Ramazanda Quran dərsləri

(otuz gün, otuz dərs)

Müəllif: Höccətül-İslam vəl-Muslimin Möhsün Qiraəti

Tərcümə edən: Emin Haciyev

قرائتی ، محسن ، ۱۳۲۴ – .
Keraet,Muhsin
رمضان با قرآن – سی روز ، سی درس . آذری.

Kitabın adı: Ramazanda Quran dərsləri (otuz gün, otuz dərs)

Müəllif: Höccətül-İslam vəl-Muslimin Möhsün Qiraəti.
Mashhad: Islam Araşdırmaları Mərkəzi, Islami əlaqələr və xarici zəvvarlar idarəsi 1395
ISBN 978-600-06-0076-1
226ص.
فیپا.
۱ رمضان با قرآن – سی روز ، سی درس .
کتاب حاضر ترجمه برگزیده‌ای از "تفسیر نور" تالیف محسن قرائتی است.
تفاسیر شیعه – قرن ۱۴. رمضان – جنبه‌های قرآنی.
بنیاد پژوهشهای اسلامی Islamic Research foundation
4 ق / 98 BP 297 / 179
کتابخانهٔ ملی جمهوری اسلامی ایران 4213652

Kitabın adı: Ramazanda Quran dərsləri (otuz gün, otuz dərs)
Müəllif: Höccətül-İslam vəl-Muslimin Möhsün Qiraəti
Tərcümə edən: Emin Haciyev
Redaktor:
Birinci cap: 2016/1395
Tiraj: 5000
Qiymət: 85000
Astan Qüdsi Rəzəvi nəşriyyatı

info@islamic-rf.ir www.islamic-rf.ir

حق چاپ محفوظ است

Müqəddimə

Əziz oxucu!

Salam.

1392-ci ilin (2013) ramazan ayında dostlar, "Nur" təfsiri əsasında Quran ayının Quran müsabiqələri üçün dolğun, səlis, hər kəsin ehtiyacı olan, yığcam və Ramazan ayına uyğun bir kitabça yazmağımı təklif etdilər.

Bu kitabçanın otuz dərsində Ramazan ayının otuz günü üçün Quran ibarələrindən, təfsirdən və məsum imamların (ə) hədislərindən ibarət mətnlər tənzim olunmuşdu. Ümid edirik ki, bu seçim, tənzimləmə və icmal Quranla, hədislərlə ünsiyyət qurmaq və şərafətli ömrünüzə qənaət etmək istiqamətində müsbət bir addım olacaqdır.

Allahdan sizə ramazan və digər aylarda ixlas, bərəkət, ibadət və səylərinizin qəbul olmasını arzu edir və ümid edirəm ki, bu sətirlər, səylər diqqətə alınacaq. Sizdən də dua etmənizi iltimas edirəm.

Möhsün Qiraəti

Naşirdən

Allaha həmd-səna olsun ki, bizə bir daha xeyir və bərəkətli ramazan ayını yaşamağı nəsib etdi. Bizə minnət qoyaraq, tövbə qapılarını açdı ki, ruhlandırıcı mərhəmət mehi ruhumuzu yeniləsin. Elə bir fürsət ki, yalnız oruc tutanlara xasdır.

Quranı bu əziz ayda nazil etdi. Onu bu ayda oxumağa böyük dəyər verdi. Ramazan ayını Quranın baharı etdi ki, iman tumurcuqları müqəddəs avazı ilə könüllərimizdə canlansın və mərifət bulağından su içsin. Ümid edirik ki, Allah bu əziz ayda Öz kəramət süfrəsindən faydalanmağı bizə də nəsib edəcək.

Qarşınızdakı kitab Quran maarifindən səmavi bir töhfədir ki, "Quran Dərsləri Mədəni Mərkəzi"nin Quran xadimləri tərəfindən ustalıqla hazırlanmışdır. Bu yazı dəyərli ustad Höccətül-islam vəl-müslimin Qiraətinin nəzarəti altında ərsəyə gəlmişdir. Allahdan onun Quran

və Əhli-beyt (ə) yoluna xidmətdə uğurlarının davamlı olmasını təmənna edirik.

Müqəddəs İmam Rza (ə) türbəsinin Təbliğat və İslami Münasibətlər idarəsi bu dəyərli əsəri Quran maarifini yaymaq və mübarək Ramazan ayında böyük Quran müsabiqələri keçirmək məqsədi ilə Quran və Əhli-beyt (ə) ardıcılarına təqdim edir.

Təbliğat və İslami Münasibətlər idarəsi

1436, Ramazan

1-ci dərs: Ramazan

Allahın qonaqlıq ayı

﴿شَهْرُ رَمَضَانَ الَّذِي أُنْزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِلنَّاسِ وَبَيِّنَاتٍ مِنَ الْهُدَىٰ وَالْفُرْقَانِ فَمَنْ شَهِدَ مِنْكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ وَمَنْ كَانَ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللَّهُ بِكُمُ الْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ الْعُسْرَ وَلِتُكْمِلُوا الْعِدَّةَ وَلِتُكَبِّرُوا اللَّهَ عَلَىٰ مَا هَدَاكُمْ وَلَعَلَّكُمْ تَشْكُرُونَ﴾

"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona təzim və şükür edəsiniz."[1]

"Ramazan" sözü ərəb dilində tüstüsü və külü

1 Bəqərə: 185

olmayan yandırma mənasında işlədilən "rəmz" kökündən alınmışdır. Bu ayın qeyd olunan adla adlandırılmasının səbəbi Ramazan ayında insanın günahlarının yandırıldığına görədir.

Ramazan ayı- Quranın endiyi ay və eyni zamanda adı Quranda qeyd olunan təkcə aydır. "Qədr gecəsi" də bu ayda baş vermişdir. Peyğəmbər (s) belə buyurur: "Bütün səmavi kitablar Ramazan ayında nazil olmuşdur. Ramazan ayı Allahın ən yaxşı ayıdır".[1] O həzrət Şaban ayının sonuncu cüməsində Ramazan ayının əzəməti barəsində bəzi təfsir və hədis kitablarında qeyd olunan müfəssəl bir xütbə söyləmişdir. Həmçinin Səccadiyyə səhifəsində imam Səccadın (ə) Ramazan ayını qarşılayıb onunla vidalaşarkən oxuduğu bir duası da vardır.

Ramazan ayında möminlər *"Ey iman gətirənlər! Oruc tutmaq sizə vacib edildi"* - ayəsi ilə Allahın qonaqlığına dəvət ediliblər. Bu qonaqlığın bir sıra xüsusiyyətləri vardır:

1. Ev sahibi Allah olub, şəxsən Özü qonaqları dəvət etmişdir.

2. Xidmət vasitələri- "Qədr gecəsi", Quranın nazil olması, mələklərin enməsi, duanın qəbul

1. Burhan təfsiri

olunması, ruhun incəlməsi və cəhənnəmdən uzaq olmaqdır.

3. Bu xidmətin vaxtı Ramazan ayıdır, belə ki, bəzi hədislərə görə, onun əvvəli rəhmət, ortası bağışlanma, axırı isə mükafatdır.

4. "Qədr gecəsi"ndəki xidmətin keyfiyyəti qonaqların bir illik ehtiyacını təmin edəcək şəkildə nəzərdə tutulmuşdu. Yer isə mələklərin bu gecədə enməsi ilə zinətlənir.

5. Bu ayın qidası cisim qidası yox, ruh qidasıdır ki, bu da mənəvi inkişaf üçün vacib hesab olunur. Bu qonaqlığın qidası Quran ayələridir. Belə ki, kimsə bu ayda bir ayə oxuyarsa, başqa aylarda bütün Quranı oxumuş kimidir.

Bu ziyafətin dünyəvi ziyafətdən heç bir oxşar tərəfi yoxdur; bilikli, zəngin, yaradan, qalıcı, məğlubedilməz, calal sahibi olan Allah biliksiz, yoxsul, aradan gedən, yaradılan, zəlil, möhtac olan insanlara ev sahibliyi edir.

Vəsailüuş-şiə kitabında [1] qeyd olunan geniş bir hədisdə oruclu insanın əxlaqı barədə elə oxuyuruq: "Oruclu insan yalan, günah, mübahisə, paxıllıq, qeybət, haqla müxalifət, söyüş, danlama, qəzəb, tənə, zülm,

1. C. 7, səh. 119

mərdimazarlıq, qəflət, pis adamlarla münasibət, sözgəzdirmə və haram yeməkdən çəkinməlidir. Namaza qarşı isə səbirli və səmimi olub, qiyamət barədə diqqətlə düşünməlidir".

Bu qonaqlıqda iştirak edə bilməyin şərti təkcə aclığa dözmək deyil. Bir hədisdə belə oxuyuruq: "Səmavi rəhbərlərin itaətindən boyun qaçıran və ya şəxsi, ailəvi məsələlərdə həyat yoldaşına qarşı pis davranan və ya onun qanuni istəklərini təmin etməyən və yaxud, valideynlərinin narazı qaldığı kəsin orucu qəbul deyil və bu qonaqlığın şərtlərini yerinə yetirə bilməmişdir".

Ramazan ayının dəyəri, qiyməti Quranın o ayda nazil olmasına görədir. İnsanların dəyəri də, Quranın onlara təsiri qədərdir- demək olar.

Şabaniyyə xütbəsi

Həzrəti Əlidən (ə) nəql edilmişdir ki, Allahın Elçisi (s) Şaban ayının son cüməsi bir xütbə oxuyub, Allaha həmd-səna etdikdən sonra belə buyurdu:

Ey camaat! Allahın ayı (Ramazan) bərəkət, rəhmət və əfvlə birgə sizə doğru üz tutmuşdur, elə bir ay ki, ayların ən yaxşısı, günləri ən dəyərli günlər, gecələri ən gözəl gecələr, saatları üstün saatlardır. Bu ayda siz Allahın qonaqlığına dəvət

olunmusuz. Bu ayda sizin nəfəsləriniz zikr, yatmağınız isə ibadətdir. Pak əməllərinizvə dualarınız Allah dərgahında qəbul olacaqdır. Elə isə xalis niyyət və təmiz qəlblə Allahdan sizə bu ayda oruc tutmağın və Quran oxumağın müyəssər olması üçün yardım etməsini diləyin. Çünki doğrudan da, bu əzəmətli ayda Allahın rəhmətindən məhrum olan şəxs bədbəxtdir.

Ramazan ayında ac-susuz qalaraq, Qiyamət gününün aclıq və susuzluğunu yada salın. Aranızdakı ehtiyaclı və yoxsul insanlara əl tutun! Böyüklərinizlə hörmətlə davranın. Uşaqlarınıza nəvaziş göstərin. Yaxınlarınıza baş çəkin və onlara yardım edin. Dilinizi pisliklərdən qoruyun. Gözlərinizi haram baxışlardan saxlayın. Qulaqlarınıza haram eşitdirməyin. Camaatın yetim uşaqlarına mehribanlıq edin ki, sizin yetimlərinizlə də mehriban olsunlar. Günahlarınızın bağışlanması üçün Tanrı dərgahına üz tutub, tövbə edin. Hər namaz vaxtı əllərinizi Onun qarşısında aciz qul kimi açaraq, dua edin. Çünki bu vaxt vaxtların ən yaxşısıdır. Allah-taala bu vaxtda öz bəndələrinə mərhəmətlə baxaraq, onların dua və çağırışlarına cavab verib onları qəbul edər.

Ey camaat! Nəfsləriniz əməllərinizin girdabındadır. Elə isə Allahdan bağışlanma

istəməklə onları xilas edin. Günahlarınızın ağır yükünü uzun səcdələrlə yüngülləşdirin. Bilin ki, Allah-taala namaz qılanları və səcdə edənləri əzaba düçar etməyəcəyinə söz vermişdir.

Ey camaat! Hər kəs bu ayda oruc tutan bir möminə iftar verərsə, bu, Allah dərgahında bir qulu azad etmək qədər savab hesab olunaraq, onun keçmiş günahlarının bağışlanmasına səbəb olar.

Bir nəfər soruşdu: "Ey Allahın Elçisi! Bizim hamimizın belə bir imkanı yoxdur. Peyğəmbər (s) isə belə buyurdu: "Allahdan qorxun! Bu, yarı xurma və bir qurtum su verməklə də olsa, bəsdir".

Ey camaat! Hər kəs bu ayda öz əxlaqını, rəftarını gözəlləşdirsə, ayaqların Sirat körpüsündə vəhşətdən titrədiyi zaman, ona bu körpüdən qorxusuz olaraq keçməyə icazə verilər. Hər kim bu ayda öz qullarının, işçilərinin zəhmətini azaldarsa, Allah-taala Qiyamətdə onun işini asanlaşdırar. Hər kim bu ayda insanlara zəhmət, əziyyət verməyi azaldarsa, Allah onu öz qəzəbindən qoruyar. Hər kəs bu ayda bir yetimi əzizləsə, Allah da onu əzizləyər. Hər kim bu ayda öz yaxınlarını baş çəkərsə, onları yoxlayarsa, Allah da ona öz rəhmətini şamil edər. Kim bu ayda qohumları ilə əlaqəni

kəsərsə, Allah da öz rəhmətini ondan kəsər. Kim bu ayda müstəhəb namaz qılarsa, Allah onu cəhənnəm odundan azad edər. Kim bu ayda vacib namaz qılarsa, onun savabı başqa aylarda qılınan yetmiş namaza bərabər olar. Kim bu ayda mənə çoxlu salavat göndərərsə, Allah Qiyamət günü əməl tərəzisi yüngül gələndə, onu ağırlaşdırar. Hər kəs bu ayda Qurandan bir ayə oxuyarsa, o biri aylarda bütün Quranı oxumuş kimi olar.

Ey camaat! Bu ayda Cənnətin qapıları açıqdır. Allahdan diləyin ki, bu qapıları sizin üzünüzə bağlamasın! Cəhənnəmin qapıları da, bu ayda bağlıdır. Allaha yalvarın ki, onun qapılarını sizin üzünüzə açmasın. Bu ayda şeytan zəncirlənmişdir. Allahdan istəyin ki, daha, onu sizə hakim etməsin.

İmam Əli (ə) bu zaman buyurdu: Mən ayağa qalxaraq soruşdum: ”Ey Allahın Elçisi! Bu aydakı ən üstün əməl hansı əməldir?” Peyğəmbər (s) isə cavabımda belə buyurdu: ”Ey Əbülhəsən! Bu ayda ən üstün əməl təqva-Allahın yasaqlarından çəkinməkdir”. Elə bu vaxt Peyğəmbər (s) ağlamağa başladı. Mən isə soruşdum: "Ey Allahın Elçisi! Nə üçün ağlayırsınız?" Buyurdu: "Ey Əli! Sanki bu ayda səni namaz qılan halda görürəm və insanların ən

bədbəxti sənin başına elə bir qılınc zərbəsi endirir ki, saqqalını al-qana boyayır". Bu zaman mən soruşdum: "Ey Allahın Rəsulu! Bu hadisədə dinimə xələl gəlməyəcək ki?" Peyğəmbər (s) buyurdu: "Bəli, heç bir xələl gəlməyəcək". Sonra isə əlavə etdi: "Ey Əli! Sənin canına qəsd edən mənim canıma qəsd etmişdir. Səni qəzəbləndirən məni qəzəbləndirmişdir. Səni təhqir edən məni təhqir etmişdir. Çünki sən mənim canımsan- sənin ruhun, mənim ruhum və sənin varlığın mənim varlığım deməkdir.[1]

Odur ki, ehtiyatlı olmalıyıq. Allah eləməsin, məbada, dua və ibadət tərzimizlə, hay-küy salmaqla, ərtafımızdakılara və ailəmizə qarşı pis davranmaqla və ya qonaqlıq və iftar süfrələrimizdə israfa yol verməklə savab əldə etmək əvəzinə, günah yükümüzü ağırlaşdırmış olaq.

1. Amaliş-Şeyx əs-Səduq, səh. 93-96.

2-ci dərs: Oruc

Orucun təsir və bərəkətləri

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" [1]

Təqva- özünü günahdan qoruma deməkdir. Günahların əksəriyyəti qəzəb və şəhvət adlı iki kökdən irəli gəlir. Oruc isə bu iki instinktin tüğyanlarının qarşısını alır və buna görə də, fəsadın azalmasına, təqvanın isə artmasına gətirib çıxardır.[2]

Zahir və batində təqvalı olma və Allahdan qorxma- orucun ən önəmli təsirlərindən hesab

1 Bəqərə-183

2. Əl-kafi, c. səh. 18.

olunur.

Oruc- yeganə gizli ibadət növü hesab olunur. Namaz, həcc, cihad, zəkat, xümsü insanlar görə bilir, ancaq oruc isə görünə bilən deyil. Oruc insan iradəsini gücləndirir. Bir aylıq suyu, çörəyi, öz həyat yoldaşını kənara qoya bilən adam başqalarının malına, namusuna münasibətdə özünü kontrol edə bilər. Oruc həm də insan emosiyasını gücləndirir. Bir ay boyunca aclığın nə olduğunu dadan birisi acların acısını, dərdini də hiss edəcəkdir.

Peyğəmbər (s) belə buyurmuşdur: "Oruc səbrin yarısıdır".[1]

Adi insanların orucu, sadəcə olaraq, su və çörəkdən çəkinməkdir. Ancaq xüsusi insanların orucu, onu pozan şeylərdən çəkinməklə yanaşı, günahlardan da çəkinməkdir. Daha xüsusi insanların orucuna gəlincə, o, orucu pozan şeylərdən, günahlardan çəkinməklə yanaşı, qəlbdən Allahdan qeyrisini çıxarmaqdır.[2] Oruc insanı yemək, içmək və şəhvətdən uzaq olan mələklərə bənzədir.

Allah Elçisi (s) belə buyurmuşdur: "Hər kəs Ramazan ayını Allaha görə tutarsa, bütün günahları bağışlanar. Habelə Hədisi-qüdsidə

1. Əl-Mənar təfsiri
2. Ruhul-Bəyan təfsiri

Allahın belə buyurduğu qeyd olunur: "Oruc mənimkidir, mən də onu mükafatlandıracam".[1]

Orucun önəmi o qədər yüksəkdir ki, hədislərdə bir çox ibadətlərin mükafatını orucun mükafatı kimi dəyərləndirilmişdir. Oruc öncəki ümmətlərə vacib olsa da, Ramazan ayı orucu peyğəmbərlərə aid olmuşdur. İslam ümmətində isə Ramazan orucu hamıya vacib edilmişdir.[2]

İslam peyğəmbərindən (s) belə buyurduğu nəql edilir: "Hər bir şeyi zəkatı var. Bədənin zəkatı isə orucdur".[3]

Orucun şərt və qaydaları

﴿أَيَّامًا مَعْدُودَاتٍ ۚ فَمَنْ كَانَ مِنْكُمْ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِنْ أَيَّامٍ أُخَرَ ۚ وَعَلَى الَّذِينَ يُطِيقُونَهُ فِدْيَةٌ طَعَامُ مِسْكِينٍ ۖ فَمَنْ تَطَوَّعَ خَيْرًا فَهُوَ خَيْرٌ لَهُ ۚ وَأَنْ تَصُومُوا خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ تَعْلَمُونَ﴾

"(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar (xəstələr və qocalar kimi) isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş

1. Mərafi təfsiri
2. Nurus-Səqəleyn təfsiri
3. Biharul-Ənvar, c. 60, səh. 380.

görərsə (vacib miqdardan daha artıq fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!”[1]

İslam dini hər bir şəraitdə hər bir fərd üçün münasib bir qanun qoymuşdur. Bu ayədə isə səfərdə olanların, xəstələrin və sağlam insanların oruca dair hökmləri açıqlanmışdır. Bu əsasla, əgər insan hansısa bir şəraitdə oruc tuta bilmirsə, onda orucun xeyirlərindən faydalanmaq üçün başqa günlərdə oruc tutmalıdır.

Allahın əmrinə təslim olmaq özü bir dəyərdir. Belə ki, əgər oruc tutmağı əmr edərsə, deməli, oruc tutmaq lazımdır və əgər orucu açmağı əmr edərsə, onda orucu pozmaq lazımdır. Məcməül-Bəyan təfsirində belə qeyd olunur ki, Peyğəmbərin bəzi əshabələri səfərdə olarkən oruc tutur və öz oruclarını pozmaq istəmirdilər. Peyğəmbər (s) isə onları "günahkar" adlandırdı. İmam Sadiq (ə) isə belə buyurmuşdur: "Əgər kimsə səfərdə oruc tutarsa, mən ona meyit (cənazə) namazı qılmaram".

Deməli, səfərdə olan və ya xəstə olan birisi oruc tutarsa, onda onun orucu batil olar və həmin orucun qəzasını da tutmalıdır. [2] İmam

1 Bəqərə-184

2. Nurus-Səqəleyn təfsiri

Sadiq (ə) başqa bir hədis belə buyurur: "Hətta əgər ana südəmər körpəsinə və ya bətnindəki uşağa görə narahat olarsa, o zaman orucunu açmalıdır. Bu isə Allahın mehribanlıq göstəricisidir".[1]

İftar vermə

Peyğəmbər (s) belə buyurur: "Hər kəs halal qazancından oruc tutan adama yemək və ya su ilə iftar verərsə, mələklər hər an, Cəbrayıl isə "Qədr gecəsi" ona salam göndərərlər".[2]

İftar vermə- özü bir ibadət hesab olunur, o şərtlə ki, təkcə Allaha görə olmuş olsun: *"Biz sizə Allah rizası üçün yemək veririk".*[3]

İftar vermə- möminləri yedirtmək deməkdir. İmam Sadiqin (ə) sözü ilə desək, gecə namazı kimi insanın qurtuluşuna və xoşbəxtliyinə səbəb olar: "İnsanı xilas edən şeylərdən biri də kiməsə yemək yedirtməkdir".[4]

İftar vermə möminləri sevindirmək deməkdir.

İftar vermə qəlbləri bir-birinə yaxınlaşdırmağa, yaxin qohumlara baş çəkməyə,

1. Burhan təfsiri
2. Kənzul-Ummal, c. 8, səh. 459.
3 İnsan-9
4. Əl-Kafi, c. 4, səh. 51.

kin və ikiüzlülüyü aradan aradan getməsinə gətirib çıxardar.

İftar vermə insanın özünün və ailəsinin günahlarının bağışlanması və valideynlərə yaxşılıq etmək deməkdir.

İftar vermə haqqa çağırış, istiqamətləndirmə və hidayət etmə vasitəsidir.

Bu əsasla, insanları iftara çağırmaqda məqsəd özünü göstərmək olmalı deyil.

- Təkcə zənginlər və məqam sahibləri çağırılmamalıdır.

- İftar süfrəsində günah, təhqir və qeybət olmamalıdır.

- İftara çağırılan qonaqlara qarşı hörmətsizlik, ədəbsizlik edilməməlidir.

- İftar süfrəsi çətinliklə ərsəyə gətirilən bərbəzəkli və kimlərinsə paxıllığına səbəb olacaq şəkildə olmamalıdır.

- İftar süfrəsi həyat yoldaşının, ailənin və ya başqalarının incidilməsi ilə hazırlanmamalıdır.

Bir hədisdə deyilir ki, oruc tutana iftar verən adamın mükafatı oruc tutanın mükafatı kimidir.

3-cü dərs: Quran üzərində düşünmə

Quranın tərk edilməsindən şikayət

﴿وَقَالَ الرَّسُولُ يَا رَبِّ إِنَّ قَوْمِي اتَّخَذُوا هَذَا الْقُرْآنَ مَهْجُورًا﴾

"Peyğəmbər (qiyamət günü şikayət olaraq) "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!" – deyəcək".[1]

Ayədə işlədilən "məhcur" sözü "hicr" sözündən alınaraq hansısa bir şeydən əməl, bədən, dil və qəlb vasitəsilə ayrılmağa deyilir. Deməli, insanın səmavi kitabla olan əlaqəsi daimi və bütün sahələrdə olmalıdır. Çünki "hicr" sözü o yerdə işlədilir ki, insanla həmin şey arasında hansısa bir əlaqə olmuş olsun. Demək, hər tərəfli cəhd göstərməliyik ki, Quranı "tərk edilmək"dən xilas edib, onu həyatımızın bütün sahələrində elm və əməlin mərkəzinə çevirə

1 Furqan-30

bilək ki, bununla da İslam peyğəmbərinin (s) razılığını əldə etmiş olaq.

Quranı oxumamaq, qeyri-Quranı Qurana tərcih etmək, onu mərkəz olaraq seçməmək, onun üzərində düşünməmək, onu başqalarına öyrətməmək, ona əməl etməmək- bunların hamısı Quranın tərk edilməsinin örnəklərindən hesab olunur. Hətta Quranı öyrənib onu kənara qoyan, ona nəzər salmayan, ona qarşı heç bir öhdəlik daşımayan adam belə Quranı tərk etmiş hesab olunur.

Bu ayə Peyğəmbərin (s) şikayətindən söz açır. Digər tərəfdən, o həzrət "aləmlərə rəhmət olaraq" göndərildiyindən heç bir zaman kiməsə nifrin etməz. Ancaq qiyamət günü şikayətçilərdən biri də İslam peyğəmbəri (s) olacaq. Deməli, Quranın tərk edilməsi, Peyğəmbərin şikayəti və bizim bunların qarşısında məsuliyyətimiz qaçılmaz olacaq. Bu əsasla, Quranın üzdən oxunması kifayət deyil, əksinə, "tərk edilmə" tamamilə aradan qaldırılmalıdır.

İmam Rza (ə) belə buyurmuşdur: "Namazda Quran oxumağımızın səbəbi Quranın tərk edilməkdən xilas olmasına görədir".

Hədislərdə qeyd olunub ki, hər gün Qurandan 50 ayə oxuyun və hədəfiniz surəni

bitirmək olmamamlıdır. Aram şəkildə oxuyaraq qəlbinizi onunla sirkələyin. Hər zaman fitnələr qaranlıq gecə kimi sizə hücum etsə, onda Qurana sığının.[1]

Burada bəzi böyük şəxsiyyətlərin Quranın tərk edilməsi barədəki sözlərini qeyd edirəm:

a) Molla Sədra Vaqiə surəsinin girişində belə yazır: Filosofların kitablarını çox mütaliə etdim, o qədər oxudum ki, nəyəsə nail olduğumu düşündüm. Ancaq azacıq bəsirətim açılan kimi gerçək elmlərdən əlimdə heç nəyin olmadığını gördüm. Ömürümün sonlarında Quran üzərində, Peyğəmbər və Əhli-beytin hədisləri üzərində düşünmək fikrinə düşdüm. Əmin oldum ki, indiyədək gördüyüm işlər əsassız idi. Çünki ömrüm boyu nur əvəzinə kölgədə dayanmışdım. Qüssədən canımı atəş bürüyərək qəlbim şölələndi. Sonda ilahi rəhmət əlimdən tutaraq, məni Quranın sirləri ilə tanış etdi və mən də Quran üzərində düşünməyə, onu təfsir etməyə başladım. Vəhy evinin qapısını döydüm, qapılar açıldı, pərdələr kənara çəkildi və gördüm ki, mələklər mənə *"Salam əleykum! (Sizə salam olsun!) Xoş gəldiniz! Əbədi qalacağınız Cənnətə daxil olun!"*- deyirlər.

1. Nurus-Səqəleyn təfsiri

b) Feyz Kaşani isə belə yazır: Kitablar, traktatlar yazdım, tədqiqatlar apardım, ancaq heç bir elmdə dərdimə dərman və susuzluğuma isə su tapa bilmədim. Öz halıma qorxdum, Tanrıya tövbə etdim və nəticədə, Allah məni Quran və hədis üzərində dərin düşünməklə hidayət etdi.[1]

c) İmam Xomeyni bir kəlamında, bütün ömrünü Quran yolunda sərf etmədiyinə görə təəssüf bildirir. Hövzədə, universitetdə oxuyanlara ömürlərinin sonunda cavanlıq çağlarına təəssüf etməmələri üçün Quranı və onun müxtəlif yönlərini bütün sahələrdə ən ali məqsədə çevirmələrini tövsiyə edir.[2]

Quran üzərində düşünməyin vacibliyi

﴿كِتَابٌ أَنْزَلْنَاهُ إِلَيْكَ مُبَارَكٌ لِيَدَّبَّرُوا آيَاتِهِ وَلِيَتَذَكَّرَ أُولُو الْأَلْبَابِ﴾

"(Bu Quran) sənə nazil etdiyimiz mübarək bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!" [3]

Quranın çöhrəsi bu ayədə təsvir edilmişdir:

1. Quran mətni yazılı şəkildədir. *"Kitab"*

1. Risalətul-İnsaf
2. Nur səhifəsi, c. 20, səh. 20.
3 Sad-29

2. Quran sonsuz ilahi elm və vəhy qaynağındandır. *"Nazil etdiyimiz"*

3. Quranı qəbul edən şəxs məsumdur. *"Sənə"*

4. Quranın məzmunu xeyir-bərəkətlidir. *"Mübarək"*

5. Quranın nazil olma hədəfi onun üzərində düşünməkdir. *"Düşünüb dərk etsinlər"*

6. Qurandakı biliklərdən xəbərdar olmaq mənəvi hərəkətin, Allaha yaxınlaşmağın müqəddiməsi hesab olunur. *"İbrət alsınlar"*

7. Bu uğura yalnız ağıl sahibləri nail ola biləcəklər. *"Ağıl sahibləri"*

Yuxarıda deyilənlərə əsasən, Quran üzərində düşünmək yüksək bir əhəmiyyətə malikdir. Çünki Quran ayələri üzərində düşünməyən adam ilahi qınağa layiqdir: "*Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa qəlbləri qıfıllıdır?" (Muhəmməd:24)* Necə ki Qurana görə, rəbbani alim o şəxsdir ki, işi Quranı öyrənib öyrətməkdən ibarətdir: *"Öyrətdiyiniz kitabın və öyrəndiyiniz şeyin sayəsində rəbbani (mükəmməl elm və əməl, gözəl əxlaq və itaət sahibi) olun!"*

İmam Əli (ə) Quranın ehtiva etdiyi anlayışların sonsuzluğu, qeyri-məhdudluğu barədə belə buyurur: "Quran elə bir dəryadır ki, onun dibinə çatılmaz".

Adətən, insanların sözləri, yazıları uzun

müddət keçdikdən sonra dəyişikliyə, inkişafa və ziddiyyətə məruz qalır, ancaq Quran isə belə deyil. Quranın 23 il ərzində müharibə, sülh, qəriblik, zəiflik, güclülük kimi müxtəlif vəziyyətlərdə, dövrünün eniş-yoxuşlarında təlim görməyən bir şəxs tərəfindən içərisində heç bir ziddiyyət olmadan bəyan edilməsi onun bəşərin deyil, Allahın kəlamı olduğuna bariz bir sübutudur. Elə buna görə də, Quran bu faktı önə çəkir:

"Onlar Quran barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar".[1]

Hər bir əsrdə, nəsildə hamı üçün Quran üzərində düşünmə əmri onu göstərir ki, "düşünən" hər bir adam hər zaman Qurandakı incə bir bilgiyə nail olacaqdır.

Yuxarıdakı ayədə azacıq düşünməklə aşağıdakı gözəl nüansları əldə etmək olar:

1. Quran üzərində düşünməmək ilahi qınağa məruz qalmaq deməkdir.

2. Quran barədə düşünmək nifaq xəstəliyini sağalda bilən bir dərmandır.

---

1 Nisa-82

3. İslam və Qurana meyllənmə yolu təqlid yox, düşünməkdir.

4. Quranı hamını düşünməyə səsləyib. Demək, insanın, onun içərisində olan bilgiləri anlamağa dərki çatır.

5. Quranda ixtilaf və ziddiyyətin olduğunu güman etmək diqqətsizlik, düşünməmək və səthi yanaşmanın nəticəsidir.

6. Quran ayələrində uyğunluğun olması, ixtilafınsa olmaması onu göstərir ki, onun qaynağı dəyişikliyə məruz qalmayan bir varlıq tərəfindəndir. Çünki Allah tərəfindən olan hər bir şey haqq, sabit və ziddiyyətsizdir.

4-cü dərs: Quranın imtiyazları

Bərəkətli bir kitab

﴿إِنَّا أَنزَلْنَاهُ فِي لَيْلَةٍ مُّبَارَكَةٍ إِنَّا كُنَّا مُنذِرِينَ﴾

"Biz onu mübarək bir gecədə (qədr gecəsində) nazil etdik. Biz (o Kitab vasitəsilə) qorxuduruq!" [1]

Quran hər baxımdan bərəkətli bir kitabdır:

a) Nazil edən baxımından: "Furqanı (Quranı) nazil edən (Allah) necə də xeyirxahdır!" (Furqan:1)

b) Nazil olma məkanı baxımından: *"Məkkədə mübarək olaraq"* (Ali İmran:96)

c) Nazil olma zamanı baxımından: *"Mübarək bir gecədə"* (Duxan:3)

d) Mətn və məzmun baxımından: "(Bu Quran) sənə nazil etdiyimiz mübarək bir Kitabdır." (Sad:29)

---

1 Duxan-3

Ehtirama layiq bir kitab

﴿إِنَّهُ لَقُرْآنٌ كَرِيمٌ فِي كِتَابٍ مَكْنُونٍ لَا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ تَنْزِيلٌ مِنْ رَبِّ الْعَالَمِينَ﴾

“Həqiqətən, bu, kərim (ehtirama layiq) Qurandır, qorunub saxlanılan bir Kitabdadır. Ona yalnız pak olanlar toxuna bilər! (O) Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir”.[1]

Qurani-Kərimdə Allah və Ona aid olanlar "kərim (ehtirama layiq olan)" sifəti ilə xarakterizə edilmişdir:

1. Allah kərimdir: "Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir?" (İnfitar:6)

2. Quran kərimdir: "Həqiqətən, bu, kərim (ehtirama layiq) Qurandır". (Vaqiə:77)

3. Allahın elçisi kərimdir: "Onlara kərim olan (ehtirama layiq) bir elçi gəldi". (Duxan:17)

4. Vəhyin nazil olma vasitəsi- Cəbrail kərimdir: "Bu, kərim olan (ehtirama layiq olan) bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır". (Təkvir:19)

Qeyd edək ki, insan da, ən üstün ilahi yaradılış kimi "kərim" sifətilə xarakterizə olunur: *” Biz, Adəm övladını hörmətli elədik (kərim etdi)”*

1 Vaqiə:77-80

(İsra:70). İmam Əli (ə) də Nəhcül-Bəlağənin 152-ci xütbəsində Əhli-beyti (ə) "Kəraimul-Quran (Quranın kərimləri, hörmətə layiq olanları)" adlandırır. Bəli, Quran fərd və cəmiyyətin izzət, hörmət açarı hesab olunur. Bu əsasla, ona nəzər salmaq, onu oxumaq, əzbərləmək, onun üzərində düşünmək, ondan ibrət almaq insanın inkişafına və onun "kərim (hörmətə layiq)" olmasına gətirib çıxardır:*"Həqiqətən, bu, kərim (ehtirama layiq) Qurandır".*

Əbədi ilahi möcüzə sayılan Quranın bəzi imtiyazları Yunus surəsinin 38-ci ayəsində belə ifadə olunur:

1. Yüksək bilgiləri qısa ifadələrə sığdırmaq: Məsələn, Quran qadın və kişi barədə belə bir ifadə işlədir: *"Onlar sizin, siz də onların libasısınız" (Bəqərə:187).* Və yaxud, qeyri-ilahi qüdrətlərin süst, zəif olduqlarını ifadə etmək üçün onları hörümçəyin yuvasına bənzədir (Ənkəbut:41). Yaxud, onları bir milçək belə yaratmaqda acız hesab edir (Həcc:73).

2. Kəlamın şirinliyi və təsiri: Quran min dəfə oxunarsa da, yenə köhnəlmir, əksinə, hər dəfə ondan yenilik kəşf olunur.

3. Kəlamın tonu və melodiyası: Quran kəlmələrinin tonu, melodiyası spesifikdir. Belə ki, Quranın bir ayəsi ərəb dilli şəxsin sözləri və

ya hədislər arasında oxunarsa, dərhal məlum olur.

4. Quranın əhatəliyi: Sübutdan tutmuş məsələ, dünyadan tutmuş axirətə qədər, habelə, ailəvi, hüquqi, siyasi, hərbi, əxlaqi, tarixi və s. məsələləri özündə ehtiva edir.

5. Quranın realist olması: Quran mətninin məzmunu, güman, xəyal üzərində qurulmayıb. Hətta onun nəql etdiyi hekayətlər belə real, gerçək hesab olunur.

6. Quranın qlobal olması: İnsanlar hansı səviyyədə, hansı yerdə olmalarından asılı olmayaraq ondan faydalana bilirlər. Quran ixtisaslaşdırılmış bir kitab deyil.

7. Quranın əbədiliyi: Bəşər və elm nə qədər yaşlanırsa, bir o qədər Qurandan çoxsaylı sirlər açılır, kəşf olunur.

8. Getdikcə artan inkişaf: Quran, çoxsaylı düşmənlərinin olmasına və çoxsaylı zərbələrə məruz qalmasına rəğmən, ömründə ən yüksək inkişafı əldə edə bilmişdir.

9. Əldəki möcüzə: Quran möcüzəsi hamının ixtiyarındadır. Ecazkarlığı da hamının bacara bildiyi "cümlə quruluşu" vasitəsilədir.

10. Quran həm moizədir, həm də qanun kitabı.

11. Quran təhsildən məhrum olan toplumda

böyüyən, təhsil almayan bir fərd tərəfindən gətirilmişdi.

12. Qurana nə bir şey artırılıb, nə də ondan nə isə azaldılıb. Bu, təhrifdən sığortalanmış bir kitabdır.

13. Quran şəfa və rəhmət qaynağıdır. Bu dərmanı təyin edən təbib həm bizi tanıyır, həm bizi sevir, həm də nüsxəsi əbədi və bənzərsizdir.

Quranın ecazkarlığı

﴿أَمۡ يَقُولُونَ ٱفۡتَرَىٰهُۖ قُلۡ فَأۡتُواْ بِعَشۡرِ سُوَرٖ مِّثۡلِهِۦ مُفۡتَرَيَٰتٖ وَٱدۡعُواْ مَنِ ٱسۡتَطَعۡتُم مِّن دُونِ ٱللَّهِ إِن كُنتُمۡ صَٰدِقِينَ﴾

"Yoxsa (müşriklər): “Onu (Quranı) özündən uydurdu!” - deyirlər. (Onlara) de: “Əgər doğru deyirsinizsə, onun kimi özünüzdən on surə uydurub gətirin və (bu işdə) Allahdan başqa, kimi bacarırsınızsa, onu da köməyə çağırın".[1]

Quran təkcə fəsahət və bəlağət baxımından möcüzə deyil, əksinə, bilik, moizə, sübut, qeybdən xəbər vermə və qanun baxımından da möcüzə hesab olunur. Çünki "kimi bacarırsınızsa" - cümləsi təkcə Quranın fəsahət və bəlağətini anlayan ərəblərə deyil, bütün insanlara xitabdır. Allah başqa bir ayədə isə belə buyurur: "(Ya Peyğəmbərim!) De: “Əgər

1 Hud:13

insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər".[1]

Quranın ecazkarlıq tərəfləri çoxdur. O cümlədən, Quran kəlmələrinin oxunarkən şirin səslənməsi, 23 il müddətində nazil olsa da, ehtiva etdiyi məzmunun harmonik olması, o zamana qədər bilinməyən elmləri üzə çıxarmaq, sonradan baş verən hadisələri öncədən demək, əsər-əlamətləri qalmayan keçmiş toplumların tarixi barədə məlumat vermək, insan həyatının bütün fərdi və ictimai yönlərinə dair kamil, hər tərəfli qanunları bəyan etmək, əsrlər boyu hansısa təhrifə, dəyişikliyə, köhnəlməyə, unudulmağa məruz qalmamasını qeyd etmək olar.

Bəşər, bu qədər güzəşt və təşviqə rəğmən, yenə də acizdir. Quran bir ayədə belə buyurur: Bu Qurana bənzər bir şey gətirin (İsra:88). Digər ayədə isə belə deyir: Quran kimi on surə gətirin (Hud:13). Üçüncü bir ayədə isə yenə güzəştə gedərək buyurur: Qurana bənzər bir surə gətirin (Bəqərə:23). Deyilən bu güzəştlərdən əlavə, Quran çoxsaylı təşviqlər də qeyd etmişdir. Bir surədə belə buyurur:"(Ya Peyğəmbərim!) De:

1 İsra:88

“Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər” (İsra:88).

Tarix də sübuta yetirmişdir ki, İslam əleyhinə çoxsaylı döyüşlərlə çıxış edən düşmənlər intriqa aparsalar da, heç bir zaman hətta Quran kimi bir surə belə gətirə bilməmişdirlər. Möcüzə bundan savayı bir şeydirmi?!

Quran hekayətlərinin imtiyazı

﴿نَحْنُ نَقُصُّ عَلَيْكَ أَحْسَنَ الْقَصَصِ بِمَا أَوْحَيْنَا إِلَيْكَ هَٰذَا الْقُرْآنَ وَإِنْ كُنْتَ مِنْ قَبْلِهِ لَمِنَ الْغَافِلِينَ﴾

“ (Ya Rəsulum!) Biz bu Quranı sənə vəhy etməklə sənin üçün ən gözəl hekayəti (qissəni) danışırıq. Hərçənd ki, sən əvvəlcə (ondan) əsla xəbərdar deyildin.” [1]

Quran hekayətlərinin başqa hekayətlərə baxanda imtiyazı:

1.Hekayəti danışan Allahdır: "Biz hekayəti danışırıq." (Yusuf:3)

2.Məqsədyönlüdür: "Biz peyğəmbərlərin xəbərlərindən ürəyini möhkəmləndirəcək (qəlbinə qüvvət verəcək) nə varsa, (hamısını)

1 Yusuf:3

sənə hekayət edirik." (Hud:120)

3.Xəyal deyil, həqiqətdir: "Biz onların xəbərini sənə doğru şəkildə hekayət edirik." (Kəhf:18)

4.Güman deyil, elm əsasındadır: "Biz mütləq onlara öz elmimizlə (hamısını bir-bir) hekayət edəcəyik (söyləyəcəyik). Axı Biz qaib deyildik (onların yanındaydıq)." (Əraf:7)

5.İnsanın bihuşluq yox, təfəkkür vasitəsidir: "(Ey Peyğəmbərim!) Bu hekayətləri söylə ki, bəlkə, düşünsünlər!" (Əraf:176)

6.Əyləncə yox, ibrət vasitəsidir: "Onların (peyğəmbərlərin) hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır." (Yusuf:111)

Quran oxuyanların qisimləri

﴿وَإِذَا قُرِئَ الْقُرْآنُ فَاسْتَمِعُوا لَهُ وَأَنْصِتُوا لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

"Quran oxunan zaman onu dinləyin və susun ki, (onun sayəsində) sizə rəhm olunsun!"[1]

İmam Baqir (ə) belə buyurub: Quran oxuyanlar üç qrupa bölünür:

- Quranı qazanc mənbəyinə çevirərək insanlara yük olanlar;
- Quranı təkcə dildə qəbul edib hökmlərinə əməl etməyənlər;
- Quranı oxuyaraq onu öz dərdlərinə dərman

1 Əraf:204

bilib, onunla daim təmasda olanlar.

Allah-taala məhz bu üçüncü qrupa görə, əzabın qarşısını alır və onların naminə yağış yağdırır. Bu kimi adamlar olduqca nadirdir.[1]

1. Əl-Kafi, c. 2, səh. 627.

5-ci dərs: Dua

Duanın əhəmiyyəti

﴿قُلۡ مَا يَعۡبَؤُاْ بِكُمۡ رَبِّي لَوۡلَا دُعَآؤُكُمۡۖ فَقَدۡ كَذَّبۡتُمۡ فَسَوۡفَ يَكُونُ لِزَامٗا﴾

“De: “Əgər duanız olmasa, Rəbbim sizə diqqət yetirməz. Siz (haqqı) təkzib etdiniz. Buna görə də (nə dünyada, nə də axirətdə əzab) yaxanızdan əl çəkməyəcəkdir!”[1]

Ayədə keçən "əbə" feli diqqət, dəyər anlamını ifadə edir. Bu əsasla, ayə demək istəyir ki, sizin dəyəriniz, sizə ayrılan ilahi diqqət təkcə sizin dua və ibadətiniz sayəsindədir.

Qeyd edək ki, ayədəki "duanız" ifadəsi iki cür təfsir olunmuşdur. Belə ki, bəziləri ayədə qeyd olunan "dua"nı Allahın diqqətini cəlb edən yalvarış, dua etmək kimi şərh edirlər. Hədisdə oxuduğumuz kimi, dua əhli heç bir zaman həlak

1 Furqan:77

olmaz.[1] Deməli, bu təfsirə əsasən, Allah dua əhli olmayanlardan şikayət edərək, onlara "Siz haqqı təkzib edib Allaha dua etmək, yalvarmaq əvəzinə, bütlərin, tağutların, nəfslərin ardınca düşdünüz. Elə buna görə, cəzalandırılacaqsınız"- deməklə onları qınayır. Bəziləri isə ayədəki "dua" sözünü "Allahın insanları çağırması" kimi yozurlar. Çünki ilahi ənənə insanları haqqa çağırıb sübutu onlara tamamlamaqdan ibarətdir. Bu əsasla, insanı üstün və dəyərli varlığa çevirən məhz ilahi dəvətə cavab verərək onu qəbul etməkdir. Deməli, ayə deyir ki, siz ilahi dəvəti qəbul etmədiniz və onu təkzib etdiniz. Demək, sizə heç bir ümid yoxdur və etdiyiniz əməllərin cəzasını alacaqsınız.

Allah bir ayədə belə buyurur: *"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!"*.[2] Yuxarıdakı ayədə isə qeyd edir ki, əgər insanın duası olmasa, onun heç bir dəyəri olmaz. Demək, dua- ibadətin məğzi, ruhudur.

Düzdür, Allah hər bir şeyi bilsə də, dua etmək bizim vəzifəmizdir. Dua hər bir yerdə, hər bir zamanda faydalıdır, çünki Allah belə buyurur: *"Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni*

1. Yenə orda, c. 4, səh. 228.
2 Zariyat:56

çağıranın duasını qəbul edərəm." (Bəqərə:186). Əgər bəzən Allahın qəzəbinə tuş gəliriksə, bu, bizim günahlar nəticəsində Ondan uzaqlaşdığımıza görədir.

Allahın dua edənə diqqəti

﴿وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ ۖ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ ۖ فَلْيَسْتَجِيبُوا لِي وَلْيُؤْمِنُوا بِي لَعَلَّهُمْ يَرْشُدُونَ﴾

"(Ya Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edən Məni çağırarkən onun duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər".[1]

Dua edən o qədər Allahın sevgisinə məruz qalır ki, adıkeçən ayədə Allah-taala öz diqqətini, lütfünü bildirmək üçün düz yeddi dəfə "özüm" ifadəsini işlətmişdir: Əgər öz bəndələrim mənim özüm barədə soruşsalar, onlara de: Mən özüm onlara yaxınam. Hər zaman mənim özümü çağırsalar, özüm onların duasını qəbul edərəm. Deməli, mənim özümə iman gətirsinlər və mənim çağırışımı qəbul etsinlər. Deyilən bu sevgi əlaqəsi o zaman baş verir ki, insan Allaha minacat etmiş olsun.

1 Bəqərə:186

Sual: Nə üçün bəzən dualarımız qəbul olmur?

Cavab: əl-Mizan təfsirində belə oxuyuruq: "*Dua edən Məni çağırarkən onun duasını qəbul edərəm.”*- ayəsinin mənası "Təkcə məni çağırıb, tamamilə xalis niyyətlə məndən xeyir istəyən adamın duasını özüm qəbul edərəm." deməkdir. Deməli, əgər dua qəbul olmasa, bunun bir neçə səbəbi ola bilər: ya Allahdan xeyir istəmədiyimizə görədir və ya həmin duanın əslində bizim üçün şər olduğuna görədir və yaxud, əslində duamız xeyir olsa da, onu Allahdan ixlasla istəmədiyimizə, başqasından onu umduğumuza görədir, ya da ki, duamızın qəbul olunması bizim xeyirimizə olmadığına görədir. Bu sonuncu halda, hədislərin dili ilə desək, qəbul olunmayan duanın əvəzinə hansısa bəlalar bizdən uzaqlaşar və ya gələcəyimiz və yaxud nəslimiz üçün zəxirə olaraq saxlanılar, ya da ki, axirətdə qarşılığı, əvəzi bizə verilər.

Üsuli-Kafidə belə oxuyuruq: "Haram yeyən, yaxşılığa dəvət, pislikdən çəkindirməyən, fikri yayğın olan halda dua edən adamın duası qəbul olmaz".

Dua etmək- işləməmək demək deyil, əksinə, çalışmaqla Allaha bel bağlamaq deməkdir. Elə buna görə, hədisdə belə oxuyuruq: Bikar adamın duası qəbul olmaz.

Ola bilsin, dua ayəsinin orucla əlaqədar olan ayələrin arasında yerləşməsi Allah ayının-Ramazanın dua ilə sıx əlaqəsinə görədir.

Sual: Allahın işləri sabit qanunlar, qaydalar əsasında həyata keçdiyi halda, dua nə kimi rola malikdir?

Cavab: Səfərdə olan insanın namaz və orucu vətəndəki insanın namaz və orucundan fərqli olduğu kimi, dua edən insan da, Allahı unudan insandan tamamilə fərqlidir. Allahın qanunları ikinci insana yox, birinci insana şamil olur. Allaha dua etmək, onunla danışmaq insanın ilahi lütfləri əldə etmək üçün tutumunu daha da çoxaldır. Necə ki təvəssül ilahi övliyaları ziyarət etmək insanın vəziyyətini dəyişir və ya bir uşağın öz atası ilə birgə qonaqlığa gedərkən ona göstərilən sevgi təkcə getdiyi təqdirdə ona göstərilən sevgidən daha çox olur. Beləliklə, dua, ziyarət, təvəssül sabit ilahi qanunların deyil, şəraitin, vəziyyətin dəyişməsinə gətirib çıxardır.

Duanın mədəniyyəti

﴿وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ﴾

“Rəbbiniz buyurdu: “Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməkdən boyun qaçıranlar Cəhənnəmə zəlil

olaraq girəcəklər!”[1]

Duanın özünə xas şərtləri var:

1. İman və yaxşı: "İman gətirib yaxşı işlər görənlərin duasını qəbul edər". (Şura:42)

2. Xalis niyyət: "...Dini məhz Ona məxsus edərək dua edin". (Əraf:29)

3. Gizlicə yalvarma: "Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin". (Əraf:55)

4. Qorxu və ümid: "Ona (Allaha) həm qorxu, həm də ümidlə dua edin". (Əraf:56)

5. Günün müəyyən saatlarında: "...Rəbbilərinə səhər-axşam dua edənlər". (Ənam:52)

6. Dua edənin Allahın ən gözəl adlarından istifadə etməsi: "Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin". (Əraf:180)

Qeyd etmək lazımdır ki, günah, zülm, bizdən üzrxahahlıq diləyən birisini bağışlamamaq duanın qəbul olması qarşısında maneə hesab olunur. Bəzən isə duamızın qəbul olması yaradılış sisteminin çökməsi ilə nəticələnə bilir. Məsələn, fərz edin, bir şagird coğrafiya imtahanında "Dənizin səviyyəsi yüksəkdir, yoxsa dağların?" - sualına cavab olaraq, səhvən, dənizin səviyyəsinin yüksək olduğunu yazmış

1 Ğafir:60

və eyni zamanda Allahdan bu ikisinin yerini dəyişməsini istəmişdir ki, imtahanda qəbul qiyməti ala bilsin. Hər halda, unutmamalıyıq ki, Allah qadir olduğu qədər, hikmət sahibidir.

Duanın qəbul olması iki tərəflidir, belə ki, əgər insanlar dualarının Allah tərəfindən qəbul olmasını istəyirlərsə, o zaman Onun çağırışını qəbul etməlidirlər: "Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin". (Ənfal:24) Deməli, hər zaman Allah və Onun elçisi bizi həyatbəxş məktəbə çağırsalar, müsbət cavab verməliyik ki, Allah da bizim dualarımızı qəbul etsin.

Allahın ən gözəl adları

﴿وَلِلَّهِ الْأَسْمَاءُ الْحُسْنَىٰ فَادْعُوهُ بِهَا...﴾

"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin..."[1]

Allahın bütün ad və sifətləri gözəl olsa da, saysız-hesabsız kamallara sahib olsa da, hədislərdə 99 ad xüsusilə vurğulanıb. Belə ki, hər kəs bu adlarla Allaha çağırıb dua edərsə, duası qəbul olar. 99 ad isə aşağıdakılardan ibarətdir:

"Allah, ilah, əl-Vahid, əl-Əhəd, əs-Saməd,

1 Əraf:180

əl-Əvvəl, əl-Axir, əs-Səmi, əl-Bəsir, əl-Qədir, əl-Qahir, əl-Əli, əl-Əla, əl-Baqi, əl-Bədi, əl-Bar, əl-Əkrəm, əz-Zahir, əl-Batin, əl-Həy, əl-Həkim, əl-Əlim, əl-Həlim, əl-Həfiz, əl-Həq, əl-Həsib, əl-Həmid, əl-Həfi, ər-Rəb, ər-Rəhman, ər-Rəhim, əz-Zari, ər-Rəzzaq, ər-Rəqib, ər-Rəuf, ər-Rai, əs-Səlam, əl-Mumin, əl-Muhəymin, əl-Əziz, əl-Cəbbar, əl-Mutəkəbbir, əs-Seyyid, əs-Subbuh, əş-Şəhid, əs-Sadiq, əs-Sani, ət-Tahir, əl-ədl, əl-Əfv, əl-Ğəfur, əl-Ğəni, əl-Ğiyas, əl-Fatir, əl-Fərd, əl-Fəttah, əl-Faliq, əl-Qədim, əl-Məlik, əl-Quddus, əl-Qəvi, əl-Qərib, əl-Qəyyum, əl-Qabiz, əl-Basit, qazil-Hacat, əl-Məcid, əl-Movla, əl-Mənnan, əl-Muhit, əl-Mubin, əl-Muqit, əl-Musəvvir, əl-Kərim, əl-Kəbir, əl-Kafi, kaşifuz-zur, əl-Vətr, ən-Nur, əl-Vəhhab, ən-Nasir, əl-Vasi, əl-Vədud, əl-Hadi, əl-Vəfi, əl-Vəkil, əl-Varis, əl-Bir, əl-Bais, ət-Təvvab, əl-Cəlil, əl-Cəvad, əl-Xəbir, əl-Xaliq, xeyrun-nasirin, əd-Dəyyar, əş-Şəkur, əl-Əzim, əl-Lətif, əş-Şafi."[1]

Quranda Allahın adları 145 ədəd kimi qeyd olunub. Hədislərdə 99 ədəd kimi qeyd olunmasına gəldikdə, bu, ya bəzi adların bir-biri ilə sintez olub bir birlərinə tətbiq edilə bilməsinə görədir, ya da bu adların Quranda da deyildiyini

1. Tovhidus-Səduq, Məcməul-Bəyan və Nurus-Səqəleyn təfsirləri

və təkcə qeyd olunanlardan ibarət olmadığını bildirmək üçündür. Bəzi hədis və "Cövşən kəbir" kimi dualarda Allah üçün başqa adlar da qeyd olunmuşdur. Düzdür, bəzi ilahi əsmayi-husnaların özünəxas təsir, bərəkət və üstünlükləri vardır.

İmam Rza (ə) bir hədisdə belə buyurur: "And olsun Allah, biz Əhli-beyt Allahın ən gözəl adlarıyıq, hansı ki, Allah hər kəsin əməlini yalnız bizi tanımaqla qəbul edər".[1]

Digər bir hədisdə isə belə buyurur: "Hər zaman çətinliyə düşsəniz, problem yaşasanız, bizim vasitəmizlə Allahdan yardım diləyin. Sonra imam Rza (ə) belə dedi: *Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin. (Əraf:180)*

Yenə də, imam Rzadan (ə) belə buyurduğu nəql edilir: "Xaliq (Yaradan) yalnız özünü vəsf etdiyi şeylərlə vəsf oluna bilər". Bu isə o deməkdir ki, kimsə özündən Allaha ad verə bilməz. Məsələn, Onu iffətli, şücaətli və s. bu kimi adlarla adlandırmaq olmaz.[2]

1. İsna əşəri təfsiri
2. Furqan təfsiri

6-cı dərs: Namaz

Həzrət Loğmanın tövsiyələri

﴿يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنْكَرِ وَاصْبِرْ عَلَىٰ مَا أَصَابَكَ إِنَّ ذَٰلِكَ مِنْ عَزْمِ الْأُمُورِ﴾

"Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir!"[1]

Həzrət Loğmanın adıkeçən ayədə öz oğluna namaz və yaxşılığa dəvət barədə etdiyi tövsiyə münasibəti ilə qısa və konkret şəkildə bu iki vacib əməl haqqında açıqlama verək:

1. Namaz- bütün səmavi dinlərdə qeyd olunan insanın Allahla olan ən sadə, ən dərin və ən gözəl rabitəsidir.

2. Namaz tövsiyə edilən yeganə ibadətdir ki, ondan əvvəl səsi gözəl olan birisi hündür bir

1 Loğman:17

yerə çıxaraq yüksək səslə "Həyyə ələs-səlat, həyyə ələl-fəlah, həyyə əla xeyril-əməl"- şüarı car çəkməlidir. Öz azanı ilə sükutu dağıtmalı və bununla da, İslamın xalis düşüncələrini elan etməklə qəflətdə olanları ayıtmalıdır.

3. Namaz o qədər önəmlidir ki, həzrət İbrahim həyat yoldaşı və övladını Məkkənin əkin bitməz bir vadisində sakin etməkdəki öz məqsədini həcc mərasimini həyata keçirmək kimi yox, namaz qılmaq kimi təqdim edir.

4. İmam Hüseyn (ə) Aşura günü günorta çağı iki rükət namaz qıla bilmək üçün öz sinəsini düşmənin oxları qarşısında sipər etdi.

5. Quran həzrət İbrahimə və İsmailə əmr edir ki, Məscidul-həramı namaz qılanlar üçün hazırlayıb paklasınlar. Bəli, namaz o qədər önəmlidir ki, Zəkəriyya, Məryəm, İbrahim və İsmail kimi böyük ilahi şəxsiyyətlər namaz qılınan məkanın məscidin xadimləri olmuşlar.

6. Namaz körpənin qulağına azan və iqamə oxunan doğum zamanından tutmuş, qəbiristanlıqda meyitə namaz qılınan ölümdən sonrakı dövrə qədər özünü təzahür etdirir.

7. Namaz- bütün əməllərin qəbul açarıdır. İmam Əli (ə) təyin etdiyi hakiminə belə buyurur: "Ən yaxşı vaxtını namaza ayır və bil ki, bütün işlərin qıldığın namaz əsasında qəbul olunur".

8. Namaz- Allahı anmaqdır. Allahı anmaqsa qəlblərə təkcə aramlıq bəxş edəndir.

9. Namaz Quranda ən böyük surələrdən (Bəqərə) tutumuş, ən kiçik surəyə (Kövsər) qədər qeyd olunur.

10. Həm zəlzələ və qorxuducu küləklər kimi yer hadisələri üçün, həm günəş və ay tutulması kimi göy hadisələri üçün "ayət namazı" adlı bir namaz vacib edilmişdir. Hətta yağış yağması üçün belə "yağış namazı" adlı bir namaz təyin edilmişdir.

11. Namaz insanı bir çox çirkin işləri görməkdən çəkindirir.

Namazda bütün kamallara, müsbət şeylərə diqqət və meyl nəzərə çarpır, o cümlədən:

-Misvak, dəstəmaz, qüsl, bədən və libasın təmizliyi ilə paklığa, gigiyenaya riayət etmiş oluruq.

-Azandan cürət, cəsarət və fəryad etməyi öyrənirik.

-Məsciddə toplaşmaqdan ictimai fəallığı öyrənirik.

-Ədalətə olan diqqəti camaat namazında ədalətli pişnamazın seçilməsində müşahidə edirik.

-Kamal və dəyərlərə olan diqqəti camaat namazının birinci cərgəsində dayanan kəslərdən

başa düşürük.

-Müstəqil istiqamətlənməni qiblədə hiss edirik. Belə ki, Yəhudilər öz dini rituallarını icra edərkən bir tərəfə, Xristianlar isə başqa bir tərəfə dönürlər. Müsəlmanlara gəlincə, onlar müstəqil olmalıdırlar. Elə buna görə, Quran Kəbənin müsəlmanların müstəqil qibləsi olduğunu qeyd edir ki, onların istiqamətlənmədəki azadlıqları qoruna bilsin.

-Namazda başqalarının hüquqlarına riayəti də müşahidə edirik, belə ki, hətta namaz qılanın libasında qəsb edilmiş bir sap belə olmalı deyil.

-Siyasətə olan diqqəti namazda görmək olar, belə ki, hədislərdə oxuduğumuz kimi, məsum imamın vilayətini, rəhbərliyini qəbul etmədən qılınan namaz qəbul deyildir.

-Nizam-intizama olan diqqəti camaat namazındakı olan cərgələrdə, şəhidlərə olan diqqəti Kərbəla türbətində (möhür), ətraf mühitin təmizliyinə olan diqqəti isə məscidin və ora gələnlərin təmizliyi ilə əlaqədar tövsiyələrdə müşahidə edirik.

-Allaha olan diqqəti namazın bütün hissələrində, axirətə olan diqqəti Fatihə surəsinin*"Haqq-hesab (qiyamət) gününün sahibinə!"*- ayəsində, yol seçiminə olan diqqəti *"Bizi doğru (düz) yola yönəlt!"*- ayəsində, gözəl

yolçular seçimini *"Nemət verdiyin kəslərin yoluna!"*- ayəsində, sapmışlardan və qəzəbə düçar olanlardan çəkinməni*"Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!"*- ayəsində, peyğəmbərliyə və Əhli-beytə olan diqqəti təşəhhüddə və nəhayət, əməlisalehlərə olan diqqəti isə ikinci salamda (Bizə və Allahın saleh bəndələrinə salam olsun!) müşahidə edirik.

-Namazda sağlam qidalanmağa olan diqqəti də müşahidə etmək olar, belə ki, hədisdə deyildiyi kimi, əgər kimsə şərab içərsə, onda həmin adamın namazı qırx gün qəbul olmaz.

-Namazda zahiri bəzənmənin də şahidi oluruq, belə ki, tövsiyə olunduğu kimi, namazda ən yaxşı paltar geyinib ətirlənməliyik. Hətta qadınlar ən gözəl zinət əşyalarımızı belə namazda özləri ilə birgə daşımalıdırlar.

-Namazda həyat yoldaşına olan diqqəti də sezmək olar, belə ki, hədisdə oxuduğumuz kimi, əgər qadınla kişi arasında inciklik olarsa və ya bir-birlərini incidələrsə və yaxud bir-birlərini acılayarsalar, onda heç birinin namazı qəbul olmaz.

Quran ayələrində "namaz" və "yaxşılığa dəvət, pislikdənsə çəkindirmə" prinsipi yanaşı göstərilərək bir-birindən təsirləndiyi qeyd olunur. O cümlədən aşağıdakıları sadalamaq olar:

1. *"Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir." (Ənkəbut:45)*

2. *"Həqiqətən, yaxşı işlər (namaz kimi) pis əməlləri silib aparır". (Hud:114)*

3. *"Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə". (Loğman:17)*

4. *"O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər". (Həcc:41)*

7ci dərs: Yaxşılığa dəvət və pislikdən çəkindirmə

Məsələnin əhəmiyyəti

﴿وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ ۚ وَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

"Qoy, içərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir".[1]

Yuxarıdakı ayədə keçən "əmrun bil-məruf" ifadəsi yaxşılıqlara əmr etmək, "nəhyun ənil-münkər" ifadəsi isə pisliklərdən çəkindirmək deməkdir. Bu iki önəmli buyuruğu icra etmək xüsusi bir yaş həddi ilə məhdudlaşmır. Çünki Loğman öz uşağına belə deyir: *"Oğlum, namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan*

1 Ali İmran:104

elə".[1]

Yaxşılığa dəvət- məktəbə olan eşq, insana, cəmiyyətin sağlam olmasına sevgi, ifadə azadlığının göstəricisi, dini qeyrət, insanlar arasındakı səmimi əlaqə, ayıq fitrətin əlaməti, ümumi kontrol və ictimai fəallıq deməkdir.

Yaxşılığa dəvət və pislikdən çəkindirmə yaxşı insanları təşviq edir, nadan insanları isə ayıldır. Eyni zamanda qanunsuzluqdan çəkindirərək müəyyən mənada ictimai inzibat yaradır. Quran bu haqda belə buyurur: *"Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, çünki yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiz...". (Ali İmran:110)*

İmam Əli (ə) belə buyurur: Yaxşılığa dəvət və pislikdən çəkindirmə- xalqın ümumi mənafeyidir. [2] Başqa bir hədisdə isə belə oxuyuruq: Pisliyin qarşısını almayan adam yolda yaralı biri ilə rastlaşdığı halda onu ölümə tərk edən adam kimidir.[3]

Həzrət Davud və hz. İsa kimi peyğəmbərlər pislikdən çəkindirməyən

1 Loğman:17
2. Nəhcül-Bəlağə, 252-ci hikmət.
3. Kənzul-Ummal, c. 3, səh. 170.

adamlara lənət oxuyurdular.[1] İmam Hüseyn (ə) da məhz yaxşılığa dəvət, pislikdən isə çəkindirmək üçün qiyam etmişdir: *"Mən yaxşılığa dəvət edib, pislikdən isə çəkindirmək istəyirəm".*[2]

Günah qarşısında sükut və etinasızlıq onun adiləşməsinə, günahkarın Allaha qarşı cəsarətlənməsinə, qəlblərimizin bərkiməsinə və bir sözlə, şeytanın bizdən razı qalmasına, Allahınsa bizə qəzəb etməsinə gətirib çıxardır.

Quran belə buyurur: Əgər hansısa bir yığıncaqda ilahi ayələr təhqirə məruz qalırsa, həmin yığıncağı etraz əlaməti olaraq dərhal tərk edin ki, müzakirənin istiqaməti dəyişsin.

Əgər kimsəni yaxşı bir işə dəvət ediriksə, deməli, biz də onun yaxşı işlərinin mükafatında şərikik. Ancaq əgər fəsad, sapma və günah qarşısında sükut ediriksə, deməli, fəsadın inkişafı və nəticə etibarilə fəsadçı adamların cəmiyyətə hakim olması üçün zəmin yaratmış oluruq.

İnsan günah işləməkdən qəlbən də narahat olmalıdır. Bu əsasla, həm dillə bunun qarşısını almalıdır, həm də güc və qanun tətbiq

1. "İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi". (Maidə:78)
2. Biharul-Ənvar, c. 44, səh. 328.

etməklə buna maneə olmağa çalışmalıdır.

Yaxşılığa dəvət və pislikdən çəkindirmə iki ilahi vacib əməl hesab olunur. Odur ki, "Başqalarının günahından bizə nə?", "İnsanların azadlığına maneə olmamalıyıq.", "Mən qorxaq və utancağam.", "Bir güllə bahar olmaz.", "İsanı öz dini, Musanı da öz dini maraqlandırar.", "Bizi ki bir qəbirə qoymayacaqlar.", "Başqaları var, niyə mən yaxşılığa dəvət etməliyəm?", "Pislikdən çəkindirməklə mən öz dostlarımı və ya müştərilərimi əldən verirəm." və s. bu kimi xəyallar bu ilahi görəvi bizim boynumuzdan götürə bilməz.

Məsələnin şərtləri

Yaxşılığa dəvət və pislikdən çəkindirmə şüurlu, ürəkdən, məntiqli və hətta imkan daxilində gizli həyata keçirilməlidir. Bəzən bunu özümüz etməliyik, ancaq sözümüzün təsiri olmayanda, bu zaman başqalarından bunu etmələrini istəməliyik. Hətta əgər fəsadın qabağını müvəqqəti vaxta qədər ala bilsək də, bunu etmək lazımdır və əgər buna təkrarla nail ola biləcəyiksə, o zaman təkrarlamalıyıq.

Yaxşılığa dəvət və pislikdən çəkindirmə iki şəkildə həyata keçir:

1. Hər kəsin bacardığı qədər etməli olduğu

ümumi vəzifə şəklində;

2. Mütəşəkkil bir qurumun tərəfindən güc sayəsində həyata keçirilən vəzifə şəklində. Məsələn, hansısa sürücü yol hərəkət qaydalarını pozursa, bu zaman həm başqa sürücülər siqnal verməklə ona etirazını bildirir, həm də polis qanun pozuntusuna yol verəni cəzalandırmaq üçün işə düşür.

Yaxşılığa dəvət ən yaxşı ümmətin göstəricisi kimi

﴿كُنتُمۡ خَيۡرَ أُمَّةٍ أُخۡرِجَتۡ لِلنَّاسِ تَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَتَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِ وَتُؤۡمِنُونَ بِٱللَّهِ...﴾

"Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız..."[1]

Adıgedən ayədə "yaxşılığa dəvət" və "pislikdən çəkindirmə"nin ümumi mərhələsinə işarə edilib. Gəlin, həmin ayənin ehtiva etdiyi bəzi nüansları aşağıda sadalayaq:

1. Ən yaxşı ümmət olmaq dildə deyil, əksinə, imanla, yaxşılığa dəvət və pislikdən çəkindirmə ilə mümkündür: *"Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edirsiz..."*

1 Ali İmran:110

2. Sakit və qorxaq ümmətdə heç bir xeyir yoxdur: "Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiz..."

3. Yaxşılığa dəvət və pislikdən çəkindirmə o qədər önəmlidir ki, onların həyata keçirilməsi ümmətin üstünlük meyarı kimi çıxış edir: *"Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz..."*

4. Yaxşılığa dəvət və pislikdən çəkindirmə o zaman həyata keçə bilər ki, müsəlmanlar "ümmət" şəklində olmuş olsun, yəni "hakimiyyət"ləri olsun: *Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz..."*

5. Müsəlmanlar bütün bəşəri toplumların islah edilməsinə məsul hesab olunurlar: *"İnsanlar üçün ortaya çıxarılmış..."*

6. Fəsadla mübarizə aparmadan yaxşılıqlara dəvət nəticəsizdir: "yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiz..."

7. Ümmətin hər bir fərdi yaxşılığa dəvət edib, pislikdən isə çəkindirməlidir. Hətta doqquz yaşlı bir qız uşağı belə ölkə prezidentini yaxşılığa dəvət edib, onu pislikdən çəkindirə bilər.

8. Yaxşılığa dəvət və pislikdən çəkindirmədə yaş, bölgə, millət, təhsil, iqtisadi və ictimai status heç bir rol oynamır: *"Siz insanlar üçün ortaya*

çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiz..."

9. Müsəlman yalvarmaqla deyil, əksinə, qüdrət mövqeyindən çıxış edərək əmr etməli və yasaqlamalıdır: *"Yaxşı işlər görməyi əmr edirsiz..."*

10. Yaxşılığa dəvət, pislikdən çəkindirməyə baxanda, prioritet hesab olunur: *"Yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiz..."*

11. O əmr və qadağa təsirli ola bilər ki, imandan qaynaqlanmış olsun: *"Yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız..."*

Təsir və bərəkətlər

Yaxşılığa dəvət və pislikdən çəkindirmənin, effekt göstərməsə də belə, bəzi təsirlərini, bərəkətlərini qeyd etmək istərdim:

1. Ola bilsin, yaxşılığa dəvət və pislikdən çəkindirmə bu gün təsir eləməsin, ancaq tarixə, fitrətə və başqalarının mühakiməsinə təsir edir. Necə ki imam Hüseyn (ə) yaxşılığa dəvət və pislikdən çəkindirmə yolunda öz canından keçərək şəhid oldu və bununla da, tarix boyu insanların vicdanını ayıltdı.

2. Bəzən yaxşılığa dəvət və pislikdən çəkindirmə atmosferi başqaları üçün qoruyub saxlayır. Məsələn, ucadan azan vermək, dinləyici

olmasa da, müstəhəb hesab olunur və yaxud, qırmızı çıraqda dayanmaq, maşın olmasa da, lazımdır, çünki qanunu qorumaq və qanuna sayğı atmosferi lazımdır.

3. Bəzən yaxşılığa dəvət və pislikdən çəkindirmə günahkarları günahdan çəkindirməsə də, ardıcıl xatırlatmalar günahın həzzini onlara acılaşdırır və ən azı, rahatlıqla günah edə bilmirlər. Bir gün vicdanları oyanacaq və bu kimi xatırlatmalar onlara öz effektiv təsirini bağışlayacaq.

4. Azadlığı qoruyub saxlamaq üçün yaxşılığa dəvət edib, pislikdən çəkindirmək lazımdır, çünki bunları etmədikdə, cəmiyyət boğulma, qorxu və sükut mühitinə çevriləcəkdir.

5. Yaxşılığa dəvət və pislikdən çəkindirmə insanın məqamını yüksəldir. Baxmayaraq ki, başqaları sənə etina etmirlər. Quran bu haqda belə buyurur: *"(Xalqaı) Allaha tərəf çağıran kəsdən daha gözəl danışan kim ola bilər?!" (Fussilət:33)*

6. Əgər yaxşılığa dəvət və pislikdən çəkindirmə başqalarına təsir etməsə, onda ən azı, bu, bizi Allaha yaxınlaşarıq və eyni zamanda, bununla şücaət məşqi etmiş olarıq.

7. İlahi qəzəb baş verərkən yaxşılığa dəvət edənlər amanda olub xilas olacaqlar.

8. Yaxşılığa dəvət və pislikdən çəkindirmə

insanın vicdanını sakitləşdirir və bu zaman öz-özünə deyir ki, mən artıq öz vəzifəmə əməl etdim. Bu vicdan aramlığı dəyərlidir, baxmayaraq ki, başqaları deyilənlərə qulaq asmırlar.

Yaxşılığa dəvət və pislikdən çəkindirmə peyğəmbərlərin həyat tərzi hesab olunur, hərçənd, bəzən başqaları onların sözlərinə qulaq asmırdılar. Quran bunu dəfələrlə vurğulayıb: İnsanlar peyğəmbərlərin sözlərinə, nəsihətlərinə qulaq asmır və onlardan üz döndərirdilər. Peyğəmbərlər məhz yaxşılığa dəvət və pislikdən çəkindirmə görəvi yolunda şəhadətə çatdılar ki, haqq itib aradan getməsin.

8-ci dərs: Həmd surəsinin təfsiri

﴿بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ الرَّحْمَٰنِ الرَّحِيمِ مَالِكِ يَوْمِ الدِّينِ إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ﴾

1. Mərhəmətli, Rəhmli Allahın adı ilə!
2. Həmd (şükür və tərif) məxsusdur Allaha- aləmlərin Rəbbinə,
3. (Bu dünyada hamıya) mərhəmətli , (axirətdə isə ancaq möminlərə) rəhmli olana,
4. Haqq-hesab (qiyamət) gününün sahibinə!
5. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!
6. Bizi doğru (düz) yola yönəlt!
7. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!

"Əl-həmdulillah (bütün həmdlər Allaha məxsusdur)". Allaha qarşı olan ən gözəl təşəkkür növüdür. Hər kəs istənilən kamal və gözəllik

barədə hər yerdə, hər dillə, hər cür tərif edərsə, əslində, bunun qaynağına tapınır. Aydındır ki, Allaha həmd etməklə Onun məxluquna təşəkkür etmək arasında heç bir ziddiyyət yoxdur, bir şərtlə ki, bu, Allahın əmri ilə həyata keçmiş olsun.

Allah-taala rəhməti, rəhmli olmağı özünə vacib etmişdir: *"O (Allah) özünə rəhmli olmağı yazmışdır..." (Ənam:12).* Onun rəhməti hər bir şeyə kölgə salır: *"Rəhmətim hər şeyi ehtiva etmişdir..." (Əraf:156).* Həmçinin Onun peyğəmbər və kitabı elə rəhmət qaynağı hesab olunur: *"Aləmlərə rəhmət olaraq..." (Əmbiya:107).* Deməli, Allahın yaradılışı rəhmət əsasında inşa olunmuşdur. Odur ki, əgər kiməsə əzab verirsə, bu, onun lütfündən irəli gəlir.

Bu əsasla, günahların bağışlanması, bəndələrin tövbələrinin qəbul edilməsi, onların eyiblərinin üstünün örtülməsi, səhvlərini düzəldə bilmək üçün onlara fürsətin verilməsi, bütün bunların hamısı Onun mehribanlıq və rəhmətinin təzahürləridir.

Allah hər bir zamanda hər bir şeyin həqiqi maliki olsa da, Onun malikliyi qiyamət günü fərqli bir şəkildə təzahür edəcəkdir.

"Nəbudu (ibadət edirik.)"- cümləsi həm namazın camaat namazı şəklində qılınmasını

bildirir, həm də müsəlmanların hamılıqla bir xətdə qardaş olduqlarını. Sanki namaz qılan kəs namazda bütün Allaha tapınanlar tərəfindən nümayəndə olaraq belə söyləyir: İlahi, təkcə mən Sənin qulun deyiləm, biz hamımız Sənin qulunuq. Təkcə mən yox, hamımız Sənin lütfünə möhtacıq.

Həmd surəsi "doğru yol"u ilahi nemətdə qərq olan kəslərin yolu kimi təqdim edir. Bu kəslər isə peyğəmbərlər, siddiqlər, şəhidlər(şahidlər), salehlərdən ibarətdir.[1] Bu ilahi şəxsiyyətlərin yoluna yönəlmək, həmin yolu getmək arzusunda olmaq, bu arzunu özünə təlqin etmək bizi sapma təhlükəsindən qoruyur. Bu istəkdən sonra, insan Allahdan diləyir ki, onu qəzəbə düçar olmuşların yoluna yönəltməsin.

"Nemət verdiyin"- ifadəsindəki nemət sözündə məqsəd hidayət nemətidir, çünki əvvəlki ayədə söhbət hidayətdən gedirdi. Maddi nemətlərə gəlincə, aydındır ki, kafirlər, azanlar və başqaları da onlara sahibdirlər.

Hidayət olmuşlar da təhlükədədirlər. Elə buna görə, daim Allahdan diləməliyik ki, bizi

1. "Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (tamamilə doğru danışanlar), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləriylə) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!" (Nisa:69)

yolumuzdan bir an da olsun belə azdırmasın.

Həmd surəsinin tərbiyəvi dərsləri

1. İnsan "Bismillah"- deməklə Allahdan başqasından ümidini kəsir.

2. "Rəbbil-aləmin" və "Maliki yəumiddin"- deməklə Allahın mülkü olduğunu, Onun tərbiyəsi ilə böyüdüyünü hiss edir. Bu əsasla, xudbinlik və qüruru kənara qoymalıdır.

3. "Aləmin" sözü ilə özünü varlıq sisteminə bağlayaraq guşənişinlikdən imtina edir.

4. "Ər-rəhmanir-rəhim"- deməklə özünü Allahın lütfü kölgəsində olduğunu görür.

5. "Maliki yəumiddin"- deməklə gələcəyə dair qəfləti aradan gedir.

6. "İyyakə nəbudu"- deməklə özünü riyadan təmizləyir.

7. "İyyakə nəstəin"- deməklə ilahi qüdrətdən başqa heç bir qüdrətə sığınmadığını ifadə edir.

8. "Ənəmtə"- deməklə bütün nemətlərin Allahdan olduğunu iqrar edir.

9. "İhdinə"- deməklə Allahdan doğru, düz, haqq yola hidayət olmağını istəyir.

10. "Siratalləzinə ənəmtə əleyhim"- deməklə haqq yolçuları ilə ittifaqını, həmrəyliyini ifadə edir.

11. "Ğayril-məğzubi əleyhim" və "vələz-

zallin"- deməklə batil və onun ardıcıllarından bezdiyini ifadə edir.

"Bismillah"ın əhəmiyyəti

"Bismillahir-rəhmanir-rəhim" təkcə Quranın əvvəlində yox, bütün səmavi kitabların əvvəlində olub. Bütün peyğəmbərlərin əməl gündəliyində "Bismillah" var idi. Həzrət Süleyman də, Səba məlikəsini (kraliça) imana dəvət edərkən öz dəvətnaməsini "Bismillahir-rəhmanir-rəhim" sözləri ilə başlamışdı.

İmam Əli (ə) belə buyurur: "Bismillah" işlərin bərəkət qaynağıdır. Elə isə onu tərk etmək uğursuzluqla nəticələnər. Elə buna görə, hər bir işə başlayarkən "Bismillah" demək tövsiyə edilmişdir. Məsələn, yemək yeyərkən, yatarkən, yazı yazarkən, miniyə minərkən, səfərə çıxarkən və s. bu kimi işlər. Hətta əgər heyvan "Bismillah"sız kəsilərsə, onun ətinin yeyilməsi haram olar.

"Bismillah"- müsəlmanlığın əlaməti, nişanıdır. Elə buna görə də, hər bir müsəlmanın gördüyü bütün işlər ilahi rənglə boyanmalıdır. Necə ki hansısa bir zavodun məhsullarının üzərində - istər xüsusi, istərsə də ümumi- o zavoda aid xüsusi bir nişan, emblem var. Başqa bir örnək. Hər bir ölkənin bayrağı həm həmin ölkənin

idarələrinin, məktəblərinin və hərbi hissələrində üzərində, həm həmin ölkənin dənizdəki gəmilərinin üzərində, həm də dövlət idarələrində stolların üzərində dalğalanır.

İmam Sadiqdən (ə) belə nəql edilir: "Bismillah"- surələrin tacıdır. Quranda təkcə tövbə surəsində "Bismillah" qeyd olunmayıb. Bu isə, imam Əlinin (ə) dili ilə desək, ona görədir ki, "Bismillah" əmin-amanlıq və rəhmət kəlməsidir, kafirlərə və müşriklərə qarşı nifrət bildirmək sevgi ifadə edən kəlmə ilə başlamaqla uzlaşa bilməz.[1]

"Bismilah" həm də şeytanın qaçma faktoru kimi çıxış edir. Belə ki, hər kəs Allahla birgə olarsa, o zaman şeytan ona təsir etməz.

Doğru yol

"Sirat"- Cəhənnəmin üzərindəki bir körpünün adıdır. Qiyamət günü bütün insanlar onun üzərindən keçməli olacaqlar.

Doğru yolda olmaq hər bir müsəlmanın hər namazda Allahdan dilədiyi bir istəkdir. Hətta Allahın Elçisi (s) və onun Əhli-beyti (ə) belə Allahdan doğru yolda sabitqədəm olmağı istəyirdilər.

1. Qurtubi və Məcməul-Bəyan təfsirləri

Doğru yolun bir neçə mərhələsi, mərtəbəsi vardır: *"Doğru yolla gedənlərə gəldikdə isə, (Allah) onlara hidayətini artırar."* [1] Hətta ilahi övliyalar kimi doğru, haqq yolda olanlar belə bu yolda qalmaları və hidayətlərinin artması üçün dua etməlidirlər.

"Doğru yol"- düşüncə və əməldə mötədillik, hər cür ifrat və təfritdən uzaq olmaq deməkdir. Məsum imamların hədislərində belə qeyd olunur ki, doğru yol "biz"ik.[2] Yəni doğru yolun konkret və əməli örnəyi, həmin yolda addımlamaq üçün ideal ülgü sayılanlar səmavi rəhbərlərdir. Onlar iş, əyləncə, təhsil, qidalanma, infaq, tənqid, qəzəb, sülh, övlada sevgi və s. bu kimi həyatın bütün məsələləri barədə əməli göstərişlər vermiş və bizi mötədil olmağa dəvət etmişdirlər.[3] Maraqlısı odur ki, İblis məhz bu doğru yolda pusqu qurur: *"...Mən Sənin düz yolunun üstündə oturub insanlara mane olacam!"*[4]

Quran və hədislərdə çoxsaylı nümunələr qeyd olunub, belə ki, onlarda "doğru yol" hesab olunan mötədillik təkid olunur, ifrat və təfrit isə yasaqlanır. Odur ki, İslam təkcə bir yönə diqqət

1 Məhəmməd:17
2. Biharul-Ənvar, c. 87, səh. 3.
3. Əl-Kafi, Babul-İqtisad fil-İbadat.
4 Əraf:16

ayırıb digər yönləri nəzərə almayan birtərəfli din deyil, əksinə, hər bir işdə mötədilliyi və doğru yolu tövsiyə edir.

Quranda qəzəbə düçar olmuşlar

Quranda Firon, Qarun, Əbuləhəb kimi fərdlər və Ad, Səmud, Bəni-İsrail kimi ümmətlər ilahi qəzəbə düçar olmuşlar kimi təqdim olunur. Bəzilərinin adı isə Quranda "azdırıcı, sapdırıcı" kimi keçir. Məsələn, İblis, Firon, Samiri, pis dost, sapqın başçılar və sələflər kimi. Çoxsaylı ayələrdə bu kimi azğın, sapmış və qəzəbə düçar olmuşların xüsusiyyətləri qeyd olunmuşdur.

Biz hər bir namazda Allahdan istəyirik ki, qəzəbə düçar olmuşlardan olmayaq, yəni ilahi ayələri təhrif edənlərdən, sələmçilərdən, cihaddan qaçanlardan olmayaq. Habelə azmışlardan, sapmışlardan da olmayaq, yəni haqqı buraxıb batilin ardınca gedənlərdən, öz dinində, inancında ifrata varanlardan, özünün və ya başqalarının nəfsani istəklərinə uyanlardan olmayaq.

Qurandakı sapma kontekstləri, zəminləri aşağıdakılardır:

1. Nəfsani istəklər: *"Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən yoldan çıxartdığı kimsəni gördünmü?" (Casiyə:23)*

2. Bütlər: *"...Allah yolundan azdırmaq üçün Ona şəriklər qoşar". (Zumər:8)*

3. Günahlar: *"...Allah bununla yalnız fasiqləri zəlalətə düçar edir". (Bəqərə:26)*

4. Batilin dostluğunu qəbul etmə: *"...Hər kəs onunla (Şeytanla) dostluq etsə, (Şeytan) onu yoldan çıxardıb cəhənnəm əzabına sürükləyər". (Həcc:4)*

5. Nadanlıq: *"...Siz bundan əvvəl (doğru yolu) azanlardan idiniz! (Bəqərə:198)*

İnsan Həmd surəsində peyğəmbərlər, şəhidlər (şahidlər), salehlər və onların yolunda olan öz eşqini, sevgisini, dostluğunu bildirərək tarixin azğın, sapmış və qəzəbə düçar olmuşlarına qarşı öz nifrətini ifadə edir. Bu isə, təvəlla (Allahın dostları ilə dost olmaq) və təbərra (Allahın düşmənləri ilə düşmən olmaq) deməkdir.

9-cu dərs: Gecə namazı

Əhəmiyyət və fəzilət

﴿وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا﴾

"(Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl. Ola bilsin ki, Rəbbin səni bəyənilib tərifl ənən bir məqama göndərsin! "[1]

Ərəb dilində "həcud" yatmaq, "təhəccud" isə ibadət etməklə yatmamaq deməkdir. Ayədəki "məqam" sözünün ehtiva etdiyi özəlliyə görə əzəmət ifadə edir. Hədislərdə qeyd olunur ki, "bəyənilib tərifl ənən bir məqama" axirətdəki ən böyük şəfaət məqamı deməkdir. Üç şey Peyğəmbərə (s) vacib idi, ancaq onlar başqalarına müstəhəb hesab olunurdu: gecə namazı, misvak (dişləri xüsusi qayda ilə təmizləmək) və gecənin müəyyən vaxtını oyaq

1 İsra:79

keçirmək.

Gecə namazı olduqca fəzilətli olan namazlardan biri hesab olunur. Odur ki, Qurani-Kərimin Muzzəmmil və Muddəssir surələrində təkidlə tövsiyə olunmuşdur: *"Gecəni – az bir hissəsi istisna olmaqla – qalxıb namaz qıl!"*

Hədislərdə gecə namazı üçün otuzdan çox fəzilət sadalanmışdır. Onların bəziləri aşağıdakılardır:

-Bütün peyğəmbərlər gecə namazı qılırdılar. Gecə namazı bədənin sağlamlığına və qəbrin işıqlanmasına səbəb olar. Həmçinin əxlaq, ruzi, qəm-qüssənin aradan getməsi, borcun ödənməsi, üzün nurlanması və gözün işıqlanmasına təsirlidir.

-Gecə namazı gündüz vaxtı edilən günahları aradan aparar və qiyamətdə isə insanın nuru olar.

-İmam Sadiq (ə) belə buyurur: Gecə namazının mükafatı o qədər çoxdur ki, Allah belə buyurur: *"Etdikləri əməllərin mükafatı olaraq (Allah dərgahında) onlar (möminlər) üçün göz oxşayan (onları sevindirəcək) nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!"*[1]

-O həzrət yenə buyurur: Möminin şərəfi gecə

1 Səcdə:17

namazı, izzəti isə insanları incitməməkdir.

-Bir hədisdə belə oxuyuruq: Bədbəxt o adamdır ki, gecə namazından məhrum olmuş olsun.

-Əbuzər Kəbənin kənarında durub nəsihət edirdi ki, qəbirdəki qorxu, tənhalıq üçün gecənin qaranlığında qalxıb iki rükət namaz qılın.

Peyğəmbər (s) belə buyururdu: Sizin ən yaxşınız o kəslərdi ki, kəlamı gözəl olsun, acları doydursun və insanlar yuxuda olarkən gecə namazı qılsın. Başqa bir hədisdə o həzrət imam Əliyə (ə) belə buyurdu: "Gecə namazı qıl, gecə namazı qıl, gecə namazı qıl".

İmam Sadiq (ə) buyururdu: Möminin zinət və fəxri gecə namazıdır.

Bir şəxs həzrət Əliyə (ə) belə dedi: Gecə namazı qılmaqdan məhrum olmuşam! İmam isə cavabında belə buyurdu: "Günahların səni zəncirləyib".

İmam Sadiq (ə) bir hədisdə belə buyurur: Peyğəmbər (s) vitr namazında yetmiş dəfə istiğfar edirdi Allahdan bağışlanma diləyirdi.[1]

Gecənin müəyyən vaxtını oyaq keçirmə

﴿إِنَّ نَاشِئَةَ اللَّيْلِ هِيَ أَشَدُّ وَطْئًا وَأَقْوَمُ قِيلًا﴾

1. Təhzibul-Əhkam, c. 2, səh. 120.

“Şübhəsiz ki, gecə (namaz qılmaq üçün) qalxmaq (çox çətin olsa da) daha əlverişli və (o zaman) söz demək (Quran oxumaq) daha münasibdir!”[1]

Allah-taala Quranda zamanın bütün hissələrinə an içib. Məsələn, *”And olsun dan yerinə”, ”And olsun sübhə”, ”And olsun gündüzə”, ”And olsun əsrə”*. Bundan əlavə, üç dəfə sübh çağına yaxın qaranlığa da and içmişdir. Məsələn, *”And olsun keçib getməkdə olan gecəyə”, ”And olsun qaralmaqda olan gecəyə” və ”And olsun dönüb-qayıdan gecəyə”*.

Sübh çağına yaxın vaxtda Allahdan bağışlanma diləmək və dinləyənlər barəsində Quranda iki ayə qeyd olunmuşdur: "...Sübh çağına yaxın bağışlanma diləyən kimsələr" (Ali İmran:17) və "Onlar sübh çağına yaxın vaxtda bağışlanma diləyirdilər". (Zariyat:18)

Allah Musa peyğəmbərə belə xitab etdi: Ey Musa, məni sevdiyini güman edən, ancaq gecə yetişərkən mənimlə danışmaq əvəzinə yatağına gedən şəxs yalan söyləyir.

Peyğəmbər (s) isə belə buyurur: Gecənin qaranlığında iki rükət namaz qılmaq dünyadan və onun içərisindəkilərdən mənə daha sevimlidir.

1 Muzzəmmil:6

10-cu dərs: Unudulmuş iki vacib əməl

Zəkat

﴿إِنَّمَا الصَّدَقَاتُ لِلْفُقَرَاءِ وَالْمَسَاكِينِ وَالْعَامِلِينَ عَلَيْهَا وَالْمُؤَلَّفَةِ قُلُوبُهُمْ وَفِي الرِّقَابِ وَالْغَارِمِينَ وَفِي سَبِيلِ اللَّهِ وَابْنِ السَّبِيلِ فَرِيضَةً مِنَ اللَّهِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

"Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə, həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər

şeyi) biləndir, hikmət sahibidir!"[1]

Zəkat hökmü bildirən ayə Məkkədə nazil oldu. Ancaq müsəlmanların azlığına və zəkat pulunun az olduğuna görə, müsəlmanlar onu özləri ödəyirdilər. Mədinədə İslam hakimiyyəti təşkil olunduqdan sonra, insanlardan zəkatın alınaraq onun beytul-mala təhvil verilməsi və onun İslam hakimi tərəfindən idarə olunması hökmü nazil oldu: *(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. (Tövbə:103)*

Zəkat təkcə İslama aid bir hökm deyil, əksinə, öncəki səmavi dinlərdə də olmuşdur. Məsələn, İsa (ə) beşikdə olarkən dilə gəlib belə dedi: *"O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu". (Məryəm:31)* Qalan peyğəmbərlər barədə isə belə oxuyuruq: *"Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər". (Ənbiya:73)*

Quranda zəkatla bağlı dörd cür ifadə qeyd olunub:

1. Mal vermək: "...Sevdiyi malı qohum-əqrəbaya sərf edən" (Bəqərə: 177)

1 Tövbə:60

2. Sədəqə: "Onların mallarından sədəqə al..." (Tövbə:103)

3. İnfaq: "İman gətirən bəndələrimə de: namaz qılsınlar və onlara verdiyimiz ruzidən gizli və aşkar infaq eləsinlər (xərcləsinlər)..." (İbrahim: 31)

4. Zəkat: "...O kəslər ki, namaz qılır və zəkat verirlər". (Maidə:55)

Zəkatın əhəmiyyəti

Quranda, adətən, zəkat namazla birgə qeyd olunmuşdur. Dindəki vacibatlardan heç biri namazla birgə bu cür qeyd olunmamışdır. Hədislərə görə, namazın qəbul şərti zəkat ödəməkdir. Bu isə Allah və insanlarla olan əlaqəni ifadə edir.

Seyidlərə zəkat almaq haramdır. Bəni-Haşimdən bir qrup Peyğəmbərdən (s) heyvanların zəkatını toplama məsulu olmaları və bununla da, bir işçi kimi müəyyən bir pay əldə etmələrini istədilər. Həzrət isə belə buyurdu: Zəkatı verənin və onu alanın hər ikisinin seyid olması istisna olmaqla zəkat mənə və sizə haramdır.

Zəkat qanunu, əslində, İslamın cəmiyyətdə zəkat alan yoxsul və zəkat verən zəngin bir təbəqənin olmasına meyli deyil, əksinə, cəmiyyətin gerçək bir reallığı üçün

düşünülmüş bir çıxış yoludur. Bəzən zəngin insanlar da oğurluq, yanğın, qəza, döyüş və əsirlik kimi hadisələrlə rastlaşırlar. Deməli, İslam sistemində sosial təminat üçün bir büdcə olmalıdır.

Hədislərdə deyilir ki, Allah zənginlərin malında ehtiyaclıların problemlərini həll edə biləcək qədər haqq təyin etmişdir və əgər bunun onlar üçün kifayət olmadığını bilsəydi, həmin haqqı artırardı. Deməli, əgər insanlar yoxsulların haqlarını onlara ödəsəydilər, hamının gözəl həyatı olardı və bu əsasla, əgər zəngin adamlar zəkat ödəsəydilər, bu zaman heç bir yoxsul var olmazdı.[1]

Bəzilərinin, fərdlərin gəlirlərinin artımının qarşısını almaq və onu məhdudlaşdırmaq barədəki düşüncələrinin əks olaraq, İslam hesab edir ki, insan səy, yaradıcılıqla təbiətdən bəhrələnib inkişaf edə bilmək üçün nisbi azadlığa malik olmalıdır, bir şərtlə ki, vergi də ödəməlidir.

Allah yolundakı zəkatdan istifadə şərti təkcə yoxsulluq deyil, əksinə, ondan İslam xəttinin inkişafı üçün lazım olan hər bir yerdə istifadə etmək olar. Həmçinin cəmiyyəti pis

1. Vəsailuş-Şiə, c. 6, səh. 4.

insanların şərindən xilas etmək üçün də zəkatdan istifadə etmək olar və bu, ayədəki *"ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlar"* hökmünü daşıyır.

Əgər kimsənin boynunda diyə olarsa və onu ödəməyə imkanı çatmasa, bu zaman *"(borcu ödəməyə imkanı olmayan) borclular"* hökmünə əsasən, zəkatdan ona yardım etmək olar.

Ola bilsin ki, ayədəki *"azad ediləcək kölələr"* ifadəsi zəkatın məhbusları azad edib onların ehtiyacını təmin etmək üçün istifadəsinə də şamil ola bilər.

Zəkatın səkkiz yerə bərabər şəkildə bölünməsi vacib deyil, əksinə, İslam hakiminin rəyi əsasında ehtiyac miqdarında bölünə bilər.

-Zəkat sərvətin bərabərləşdirilməsi faktorudur.

-Zəkat ilahi nemətlər qarşısında əməli şükürdür.

-Zəkat sinifləşmə fasiləsini azaldaraq yoxsullarla zənginlər arasındakı kin-küdurəti aradan aparır.

-Zəkat rəhmət və səxavət ruhunu insanda dirildərək onun dünyapərəstliyini və maddi asılılığını azaldır.

-Zəkat məhrum sinfin sosial təminatı sığortalayaraq yoxsula "Narahat olma",

iflasedənə "Yenidən səy göstər", müsafirə "Yolda qalmaqdan qorxma", işçiyə "Sənin payın qorunub saxlanır" deyir. Qullara gəlincə, onlara azadlıq vədi verir, ilahi xidmətlər bazarına rövnəq bəxş edir və nəhayət, başqalarının qəlbini İslama cəzb edir.

-Allahı unutmaq, insanları istismar etmək, daşqəlblilik, tüğyan, əyyaşlıq- bunların hamısı sərvət toplamanın nəticəsi, zəkat isə bu sadalanan xəstəliklərin dərmanıdır.

-Zəkat məhrumiyyəti aradan qaldırmaqla yanaşı, İslama meyli də artırır və ya ən azı, insanların İslam düşmənləri ilə həmkarlığın tərk edilməsinə gətirib çıxardır. Hədislərdə oxuduğumuz kimi, bəzən imanı zəif olan fərdlər mali yardımlarla İslama yaxınlaşıb imanları möhkəmləşir.

-İslam sisteminin sxemi hesab olunan zəkat sosial ədalət üçün zəmin yaradan, yoxsulluğu aradan aparan, işçilər üçün sosial təminat, beynəlxalq imic, qulların, əsirlikdəkilərin azadlığı, potensial güclərin hərəkətə gətirilməsi, müsəlmanların din və mövcudluğunun qorunması və ictimai xidmətlərin genişləndirilməsi hesab olunur.

Xüms

Şiə hədislərinə əsasən, Ənfal surəsinin 41-ci ayəsi hər növ qazanca (iş, ticarət və s.) şamil olur. Xümsün bir nümunəsi bu ayədə qeyd olunub, qalanları isə hədislərdə öz əksini tapmışdır: "...Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahındır...".

Hədislərdə xüms xüsusi bir əhəmiyyətə malikdir. O cümlədən, deyilir ki, kimsə malının xümsünü verməsə, malı halal olmaz və onu istifadə edə bilməz. Həmçinin xümsü verilməyən libasla qılınan namaz işkallıdır (icazəli deyil).

Fəqihlər yeddi şeydə xümsü vacib hesab edirlər: 1. illik gəlirin faydası, 2. xəzinə, 3. mədən, 4. Dənizdən əldə edilən bahalı daşlar, 5. haramla qatışmış halal mal, 6. zimmi kafirin müsəlmandan aldığı torpaq, 7. müharibə qəniməti.[1]

Aydındır ki, Allah xümsa ehtiyac duymur. Deməli, Allahın payı Onun qanunlarının və elçisinin rəhbərliyinin yer üzərində hakim olması, dini təbliğatlar, İslamın səsini dünyadakıların qulağına duydurmaq, müstəzəflərin xilası və fəsad törədənlərin qarşısının alınması üçün nəzərdə tutulmuşdur.

1. Əs-Safi təfsiri

Hədislərə görə, Allahın payı Peyğəmbərə və ondan sonra isə imama keçir. Bu üç pay imam Mehdinin qeyb zamanında onun xüsusi canişinlərinin, yəni təqlid mərcələrinin ixtiyarına verilir.[1]

Hədislərdə xüms üçün təyin olunan istifadə yerlərindən biri də Bəni-haşim seyidlərindən olan yoxsul və (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafir) yolçulardır. Çünki yoxsul seyidlərə zəkat almaq haramdır. Demək, onların ehtiyacları xüms vasitəsilə təmin olmalıdır. [2] Əslində, İslam cəmiyyətdəki məhrumluqları aradan qaldırmaq üçün iki şeyi vacib etmişdir: biri cəmiyyətin bütün yoxsullarına şamil olan zəkat, digəri isə müəyyən hissəsi seyid yoxsullara aid olan xümsdür. Xüms və zəkat yoxsullara məhz onların illik ehtiyacları miqdarında verilir.

1. Nümunə təfsiri
2. Vəsailuş-Şiə, c. 6, Kitabul-Xums.

11-ci dərs: Ata və ana

Valideynlərə yaxşılıq

﴿وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوا إِلَّا إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلَاهُمَا فَلَا تَقُل لَّهُمَا أُفٍّ وَلَا تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلًا كَرِيمًا وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُل رَّبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا﴾

"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə ,onlara : "Uf!" belə demə ,üstlərinə qışqırıb acı söz söyləmə .Onlarla xoş danış! Onların hər ikisini mərhəmət qanadının altına salıb :"Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə (tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de".[1]

Hədislərdə valideynlərə yaxşılıq etmək xeyli

1 İsra:23-24

tövsiyə olunmuş və onları incitmək qınanmışdır. Hədislərdə deyilir ki, valideynlərə şəfqətli baxışın mükafatı qəbul olunmuş həcc, onların razılığı ilahi razılıq, qəzəbləri isə Allahın qəzəbidir. Habelə, ata-anaya yaxşılıq etmək insan ömrünü uzadar və övladlarının da ona yaxşılıq etməsinə səbəb olar.

Hədislərdə qeyd olunur ki, hətta əgər səni vursalar elə, onlara "Uf" demə. Onlara gözünü bərəltmə, əl qaldırma, yeriyərkən onlardan qabağa keçmə, onları öz adları ilə çağırma, elə bir iş görmə ki, insanlar onları söysünlər, onlardan qabaqda oturma, səndən bir şey istəməzdən əvvəl onlara yardım et.

Bir kişi anasını öz çiyninə alıb onu təvaf etdirirdi. Həmin vaxt Peyğəmbəri (s) görərək ondan soruşdu: Anamın haqqını ödəyə bildimmi? Həzrət isə belə buyurdu: Hətta doğum zamanı çəkdiyi sancıların birinin haqqını belə ödəyə bilmədin.

Hədisdə deyilir ki, hətta əgər valideynlər öz övladını vursalar belə, övlad qayıdıb onlara "Allah sizi bağışlasın!" deməlidir ki, bu da yuxarıdakı ayədə keçən *"xoş danışıq"* hesab olunur.

Peyğəmbərdən (s) soruşuldu ki, ölümdən sonra da valideynlərə yaxşılıq etmək olarmı?

Həzrət cavab olaraq belə buyurdu: Bəli, bu, onlar üçün namaz qılmaqla, Allahdan onlara bağışlanma diləməklə, öhdəliklərinə sadiq qalmaqla, borclarını ödəməklə, dostlarına hörmət etməklə mümkündür.

Bir kişi Peyğəmbərin (s) yanında öz atasından şikayət elədi. Həzrət atasını çağıraraq ondan məsələ ilə bağlı sual etdi. Yaşlı ata isə belə dedi: Güclü və pullu olduğum vaxtlarda övladıma yardım edirdim, amma bu gün o, pullanıb və mənə yardım əli uzatmır. Allah elçisi ağlayaraq buyurdu: Bu hadisəni eşidib ağlamayan bir daş belə tapılmaz! Sonra həmin övlada belə buyurdu: "Sən və sənin malın atanındır".

Valideynlərə yaxşılıq etmək peyğəmbərlərin xüsusiyyətlərindən hesab olunur. Necə ki Quranda İsa (ə) barədə "O, həmçinin məni anama qarşı olduqca nəvazişkar etdi" ifadəsi və həzrət Yəhya barədə isə "Ata-anasına qarşı da olduqca nəvazişkar idi" ifadəsi keçir.

Əgər valideynlər məqam baxımından tövhiddən sonra ikinci dəyərli şey olduqlarının fərqində varsalar, bu zaman övladlarını tövhidə dəvət meyli onlarda canlanar.

Beləliklə, adıkeçən ayədən aşağıdakı

nəticələri əldə etmək olar:

1. Ata-anaya xidmət, yaxşılıq etmək gerçək tövhidçilərin xüsusiyyətlərindən hesab olunur: *"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur..."*.

2. Valideynlərə yaxşılıq etməyə olunan əmr tövhidə olunan əmr kimi qəti və qüvvədən düşməzdir: *"...buyurmuşdur"*.

3. Valideynlərə yaxşılıq etmək tövhidlə, Allaha itaətlə yanaşı qeyd olunmuşdur ki, bununla onun həm əqli, insani, həm də dini bir görəv olduğu göstərilsin: *"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur..."*.

4. Yeni nəsil keçmiş nəsillə olan əlaqəsini iman sayəsində möhkəmləşdirməlidir: *"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur..."*.

5. Valideynlərə yaxşılıq edərkən onların müsəlman olması şərt deyil: *"...valideynlərə yaxşılıq etməyi..."*

6. Ata-anaya yaxşılıq edərkən onların arasında fərq qoyulmaz: *"...valideynlərə yaxşılıq etməyi..."*

7. Valideynlərə yaxşılıq edərkən bunu birbaşa öz əlimizlə etməliyik: *"...valideynlərə yaxşılıq etməyi..."*

8. Yaxşılıq etmək infaq etməkdən daha yüksəkdir, belə ki, sevgini, ədəbi, təlimi, məşvərəti, itaəti, təşəkkürü, minnətdarlığı, qayğını və s. bu kimi şeyləri özündə ehtiva edir: *"...valideynlərə yaxşılıq etməyi..."*

9. Valideynlərə edilən yaxşılığın sərhədi yoxdur: *"...valideynlərə yaxşılıq etməyi..."*

10. Quranın yaxşılıq etməyə tövsiyəsi valideynlərə yox, övladlara aiddir: *"...valideynlərə yaxşılıq etməyi..."* Çünki valideynlərin belə bir tövsiyəyə ehtiyacları yoxdur, ona görə ki, onlar, zatən, təbii şəkildə öz övladlarına yaxşılıq edirlər.

11. Valideynlərin cismani və ruhi ehtiyacları nə qədər çox olarsa, onlara yaxşılıq etmək bir o qədər vacib olar: *"...sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə,..."*

12. Yaşlı ata-ananı qocalar evinə aparmamalıyıq, əksinə, onları öz yanımızda saxlamalıyıq: *"...sənin yanında..."*

13. Həm yaxşılıq etmək lazımdır, həm də gözəl, yaxşı söz söyləmək: *"...yaxşılıq etməyi buyurmuşdur... Onlarla xoş danış!"*

14. Valideynlərə yaxşılıq etmədə və onlarla xoş danışmada qarşılıqlı şərt qeyd olunmamışdır. Yəni əgər onlar sənlə xoş danışsalar, sən də onlarla xoş danış.

15. Övlad səviyyəsindən asılı olmayaraq təvazökar olmalı və ata-ana qarşısında özünü öyməməlidir: *"Onların hər ikisini... qanadının altına sal..."*.

16. Valideynlərə formal deyil, sevgi ilə təvazökarlıq göstərmək lazımdır: *"Onların hər ikisini mərhəmət qanadının altına sal"*.

17. Övlad öz ata-anasına qarşı həm təvazökar olmalı, həm də Allahdan onlar üçün mərhəmət diləməlidir: *"... qanadının altına salıb... "Sən də onlara rəhm et!" – de."*

18. Övladın valideynləri barədəki duası qəbul olur. Əks təqdirdə, Allah dua etməyə əmr etməzdi: *"..."Sən də onlara rəhm et!" – de."*

19. Ata-anaya dua etmək Allahın əmri və onlara təşəkkür əlamətidir: *"..."Sən də onlara rəhm et!" – de."*

20. İlahi rəhmət valideynlərin övlad üçün çəkdiyi tərbiyə zəhmətlərini əvəz edir: *"Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!"*. Sanki Allah övlada belə buyurur: Sən öz mərhəmətini əsirgəmə, Allahdan da yardım dilə. Çünki onların haqqını ödəyə bilməzsən.

21. Öz keçmişini və valideynlərinin uşaqlıq çağında sənə görə qatlaşdığı zəhmətləri, problemləri, acıları unutma: *"...Onlar məni*

körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi,..."

22. Valideynlər öz övladlarını sevgi ilə tərbiyə etməlidirlər: *"...Onlar məni...tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!"*.

23. İnsan, onu tərbiyəsi ilə məşğul olan müəllimlərinə minnətdar olub onların qədrini bilməlidir: *"...Onlar məni...tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!"*.

Bəqərə surəsinin 83-cü ayəsində, Nisa surəsinin 36-cı ayəsində, Ənam surəsinin 151-ci ayəsində və habelə İsra surəsinin 23-cü ayəsində valideynlərə yaxşılıq etmək tövsiyə edilsə də, Loğman surəsinin 14-cü ayəsində onlara yaxşılıq etmək ilahi bir vəsiyyət kimi qeyd olunmuşdur:

Odur ki, valideynlərə ehtiram etmək dini yox, insani hüquqdur, müvəqqəti yox, daimi hüquqdur.

Hədislərdə oxuyuruq ki, valideynlərə yaxşılıq etmək bütün hallarda vacibdir, istər yaxşı adam olsunlar, istərsə də pis, istər həyatda olsunlar, istərsə də ölü.

Gördülər ki, Peyğəmbər (s) öz süd bacısına süd qardaşından daha çox ehtiram göstərir. O həzrətdən bunun səbəbini soruşduqda belə buyurdu: çünki bu bacım öz valideynlərinə daha çox hörmət göstərir.

Quranda oxuyuruq ki, həzrət Yəhya və İsa - hər ikisi öz analarına ehtiram etməklə görəvli, məmur idilər.

Peyğəmbər (s) belə buyurur: Öz vaxtında qılınan namazdan sonra valideynlərə göstərilən ehtiramdan daha yaxşı heç bir əməl yoxdur.

Valideyn anlayışının dairəsi

İslam mədəniyyətində səmavi rəhbər, müəllim, tərbiyə işi ilə məşğul olan və habelə qayınata "ata" adlanır. Bəzi hədislərdə Məhəmməd (s) və imam Əli (ə) ümmətin atası olaraq adlandırılmışdır: "Mən və Əli bu ümmətin atalarıyıq". Həmçinin İbrahım də ərəblərin atası olaraq qeyd olunmuşdur.

Peyğəmbər (s) xəstə yatağında keçirdiyi ömrünün son günlərində imam Əliyə (ə) belə buyurdu: İnsanların arasına get və uca səslə bunları söylə:

-Ağvalideyn olan hər bir kəsə Allahın lənəti olsun.

-Öz ağasından qaçan hər bir qula Allahın lənəti olsun.

-İşcinin haqqını ödəməyən hər bir kəsə Allahın lənəti olsun.

İmam Əli (ə) insanların arasına gələrək həmin cümlələri təkrarlayıb geri döndü. Bəzi

əshabələr bu mesajı sadə hesab edərək soruşdular: Biz valideynlərə, ağaya və işçiyə hörmət barədə əvvəllər bu cür sözlər eşitmişdik. Bu, yeni bir mesaj deyildi ki, Peyğəmbər (s) xəstə yatağından bizim üçün göndərmiş olsun. Həzrət insanların mesajın dərinliyini anlamadıqlarını biləndə, yenidən Əlini göndərib ona belə söyləməsini buyurdu:

Ağvalideynlikdə məqsədim səmavi rəhbərə qarşı ağvalideyn olmaqdır. Ey Əli, mən və sən bu ümmətin atasıyıq və kimsə bizə itaət etməsə, bizə qarşı ağvalideyn olar.

Mən və sən bu ümmətin ağasıyıq və bizdən qaçan kəslər ilahi qəzəbə düçar olarlar.

Mən və sən bu ümmətin hidayəti üçün təyin edilmiş işçiyik və işçinin haqqını ödəməyənlər Allahın lənətinə məruz qalarlar.

Bu baş vermiş hadisədə mülahizə etdiyimiz kimi, valideynə itaət və yaxşılıq etmək yayğın anlamda olsa da, İslam mədəniyyətində daha geniş bir anlam ifadə edir.

12-ci dərs: Şükür

Şükürün necə edilməsi

﴿وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِنْ كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ﴾

"(Ey camaatım!) Yadınızı salın ki, o zaman Rəbiniz bunu bildirmişdi :"Əgər (Mənə (şükür etsəniz, sizə) olan nemətimi) artıracağam. Yox , əgər nankorluq etsəniz, (unutmayın ki) Mənim əzabım, həqiqətən şiddətlidir!"[1]

İmam Sadiq (ə) buyurur: Nemətin şükürü günahdan uzaqlaşmaqdır. Şükür odur ki, insan nemətin öz və ya başqalarının cəhdi, ağılından deyil, əksinə, Allahdan olduğunu bilsin. Habelə, Allahın ona verdiyinə razı olub onları günah yolunda vasitə etməsin. Gerçək şükür odur ki, insan Allahın nemətini Onun yolunda sərf etsin.

İlahi nemətlərin qarşılığında edilən şükür olduqca az və kiçikdir. Sədinin dili ilə desək:

1İbrahim:7

Bəndə odur ki, öz təqsirinə görə Allah dərganından üzür diləyər.

Yoxsa, kimsə Allaha layiq olanı yerinə yetirə bilməz.

Hədisdə oxuyuruq ki, Allah Musaya belə vəhy etdi: Mənim şükür haqqımı yerinə yetir. Musa isə belə dedi: Bu iş mümkün deyil, çünki hər bir şükür kəlməsi başqa bir şükür tələb edir. Ona belə vəhy oldu: Sənin bu iqrarın hər bir şeyin məndən olduğunu bilməyin mənə olunan ən yaxşı şükürdür.

İnsanlara edilən təşəkkür əslində Allaha təşəkkür etməkdir. Hədisdə deyildiyi kimi, kimsə məxluqatların (yaradılmışların) içərisindən nemət verən birinə təşəkkür etməsə, Allaha təşəkkür etməmişdir.

Əgər Allahın nemətini haqq olmayan bir yolda sərf etsək, bu zaman həmin nemətə qarşı nankorluq edərək, küfr üçün zəmin yaratmış olarıq: "...Yox, əgər nankorluq etsəniz, (unutmayın ki) Mənim əzabım, həqiqətən şiddətlidir!" və "...o kəslər ki, Allahın nemətini küfrə dəyişdilər...".

Allaha edilən şükür

Allahın bizim ibadət və şükürümüzə ehtiyacı yoxdur. Quran dəfələrlə bu həqiqətə

işarə edərək buyurmuşdur: Allah sizdən ehtiyacsızdır. Ancaq bizim Ona tərəf yönəlməyimiz təkcə bizim izzət və inkişafımıza səbəb ola bilər. Necə ki günəşin bizə ehtiyacı yoxdur, amma bizim ona ehtiyacımız var, belə ki, öz evlərimizi ona tərəf tiksək, bu zaman onun nurundan, işığından istifadə etmiş olarıq.

Allahın Qurana peyğəmbərlər barədə qeyd etdiyi tərifl ərdən biri də onların şükür etmə ruhiyyəsinə sahib olmalarıdır. Məsələn, həzrət Nuhun həyat yoldaşının, övladının və qövmünün vəfasızlığı qarşısındakı səbir və dözümlülüyünə rəğmən, Allah onun şükründən söz açaraq onu "şükür edən" adlandırır: *"Həqiqətən, o (Nuh Allahın nemətlərinə) çox şükür edən bir bəndə idi!" (İsra:3)*

Quranda Allah-taala dəfələrlə insanların nankorluğundan şikayət etmişdir. Düzdür, Allahdan ona şükür edə bilməyimiz üçün uğur, müvəffəqiyyət diləməliyik. Necə ki həzrət Süleyman Ondan bunu diləyirdi: *""Ey Rəbbim! Mənə ata etdiyin nemətə şükür etmək üçün ilham ver".* Biz çox vaxt təkcə hər gün istifadə etdiyimiz nemətlərə diqqət edirik və bir çox nemətlərın varlığından isə xəbərsiz qalırıq. Məsələn, sələflərin vasitəsilə irs olaraq bizə yetişən nemətlər və ya hər an bizdən uzaqlaşmaqda olan

minlərlə bəla və yaxud Allaha və Onun övliyalarına iman, ya da küfrə, günaha olan nifrət kimi mənəvi nemətlər bu qəbildəndir. Allah bu mənəvi nemətləri Quranda belə qeyd etmişdir: *"...Lakin Allah sizə imanı sevdirmiş, onu ürəklərinizdə süsləmiş, küfrə, itaətdən çıxmağa və (Allaha) asi olmağa qarşı sizdə nifrət oyatmışdır".*

Yuxarıda qeyd olunanlardan əlavə, məsumların bəzi dualarında ilahi nemətlər və onların qarşısındakı şükürün zəruri olmasına diqqət çəkilir ki, bu da insanda şükür etmə ruhiyyəsini dirildərək möhkəmlədir.

Allaha şükür bəzən sözlə, bəzən də davranışla həyata keçir. Bir hədisdə oxuyuruq ki, hər zaman hansısa bir ilahi neməti xatırlasanız, bu zaman şükür əlaməti olaraq üzünüzü yerə qoyaraq səcdə edin. Hətta atın belində olsanız belə, yerə düşərək deyilən əməli edin və əgər edə bilməsəniz, onda üzünüzü atın yəhərinin hündür yerinə qoyaraq səcdə edin. Yox, əgər bunu da bacarmasanız, o zaman üzünüzü ovcunuzun içərisinə qoyaraq Allaha şükür edin.

Əməli şükürün nümunələri

1. Namaz;

Namaz Allaha edilən ən gözəl şükürdür. Allah öz peyğəmbərinə belə buyurur: "(Ya

Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər bəxş etdik! Ona görə də (bu nemətlərə şükür edərək) Rəbbin üçün namaz qıl və qurban kəs!" (Kovsər:1-2)

2. Oruc;

İlahi peyğəmbərlər Allahın onlara bəxş etdiyi nemətlərin şükürü olaraq oruc tuturdular.

3. İnsanlara xidmət;

Quran bu barədə belə buyurur: Əgər savadsız birisi savadlı birisindən ona məktub yazmasını istəsə, həmin adam imtina etməməli və öz savadına şükür əlaməti olaraq onun məktubu yazmalıdır: "...Katib (yaza bilən) gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın..." (Bəqərə:282). Bu ayədə insanlara xidmət kimi xarakterizə olunan məktub yazma savad nemətinin şükürü olaraq hesab olunmuşdur.

4. Qənaət;

Peyğəmbər (s) belə buyururdu: "Qənaətçi ol, əgər belə olsa, insanların ən şükür edəni olarsan".

5. Yetimə nəvaziş;

Allah-taala öz peyğəmbərinə belə buyurur: Biz sənə, yetim olduğuna görə, sığınacaq verdik. Elə isə yetimi özündən uzaqlaşdırma: *"Elə isə yetimə xor baxma!" (Zuha:9)*

6. Ehtiyacı olanlara yardım;

Allah-taala yenə öz rəsuluna belə buyurur: Biz səni, ehtiyaclı olduğuna görə, zənginləşdirdik. Elə isə sənin yanına gələn yoxsulu özündən uzaqlaşdırma: *"Dilənçini də (qapıdan) qovma!" (Zuha:10)*

7. İnsanlara təşəkkür;

Allah öz elçisinə belə buyurur: Zəkat verənlərə təşəkkür edib təşviq etmək üçün onlara dua et, çünki sənin duan onlara aramlıq bəxş edir: *"Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır)". (Tövbə:103)*

Çətinliklərə şükür etmək

Quran bu haqda belə buyurur: "...Ola bilsin ki, xoşlamadığınız bir şey sizin üçün xeyirli, xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz". (Bəqərə:216)

-Əgər başqalarının daha çox çətinlikləri olduğunu bilsək;

-Əgər çətinliklərin bizim Allaha olan diqqətimizi çoxaltdığını bilsək;

-Əgər çətinliklərin qüruru sındırdığını, daşqəlbliliyi isə aradan qaldırdığını bilsək;

-Əgər çətinliklərin bizə ağrılı insanları xatırlatdığını bilsək;

-Əgər çətinliklərin bizi müdafiə və yaradıcılığa sövq etdiyini bilsək;

-Əgər çətinliklərin bizə keçmiş nemətlərin dəyərini xatırlatdığını bilsək;

-Əgər çətinliklərin günahlar üçün kəffarə (bədəl) olduğunu bilsək;

-Əgər çətinliklərin axirət mükafatını əldə edə bilmək üçün bir səbəb olduğunu bilsək;

-Əgər çətinliklərin qiyamət üçün xəbərdarlıq olduğunu bilsək;

-Əgər çətinliklərin öz səbrimizi yoxlamaq və ya gerçək dostları tanımaq üçün bir vasitə olduğunu bilsək.

Əgər bilsək ki, bizim üçün daha çox və daha çətin problemlər baş verə bilərdi, bu zaman zahiri çətinliklərin belə öz yerində şirin olduğunu anlayarıq. Odur ki, bir uşağa xurma şirin, soğan və bibər isə acı gəlsə də, əqli inkişaf səviyyələri yüksək olan valideynlərə görə, şirin və acı - hər ikisi xoşagəlimlidir.

İmam Əli (ə) Ühüd döyüşündə belə buyurmuşdur: "Cəbhədə iştirak etmək şükürü yerinə yetirilməsi vacib olan şeylərdən biridir". İmam Əlinin qızı Zeynəb isə Bəni-Üməyyənin cinayətlərinə cavab olaraq belə buyurmuşdur: "Mən Kəbalada yalnız gözəllik gördüm".

13-cü dərs: İlahi məmurlar

Heyvanlar ilahi məmurlar kimi

﴿فَلَمَّا قَضَيْنَا عَلَيْهِ الْمَوْتَ مَا دَلَّهُمْ عَلَىٰ مَوْتِهِ إِلَّا دَابَّةُ الْأَرْضِ تَأْكُلُ مِنسَأَتَهُ فَلَمَّا خَرَّ تَبَيَّنَتِ الْجِنُّ أَن لَّوْ كَانُوا يَعْلَمُونَ الْغَيْبَ مَا لَبِثُوا فِي الْعَذَابِ الْمُهِينِ﴾

"Sonra (Süleymanın (ölümünü hökm etdiyimiz zaman onun öldüyünü onlara (cinlərə (ancaq (Süleymanın (əsasını yeyən bir ağac qurdu xəbər verdi. (Süleymanın əlini dayayıb durduğu əsa sınandan sonra) o) ölmüş vəziyyətdə (yerə yıxıldıqda cinlərə bəlli oldu ki ,əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab (məşəqqətli iş) içində qalmazdılar."[1]

Quranda dəfələrlə heyvanların roluna, onların məmur olduqlarına işarə edilib. Məsələn:

1. İnəyin (Bəni-İsrailə aid inək) bədənindən olan bir hissə qətlə yetirilmiş bir adamı dirildir ki, öz qatilinin kim olduğunu söyləsin: *"Allah sizə*

1 Səba:14

bir inək kəsmənizi əmr edir". (Bəqərə:67)

2. Hörümçək Peyğəmbəri (s) mağarada qoruyur: "Əgər siz ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar..." (Tövbə:40)

3. Qarğa insanın müəllimi olur: "Sonra Allah qardaşının cəsədini necə basdırmağı ona göstərmək üçün yer eşən bir qarğa göndərdi..." (Maidə:31)

4. Hud-hud adlı bir quş həzrət Süleymanın məktubunu Səba torpağının kraliçası Bilqeysə çatdırmaqla görəvlənir: "Mənim bu məktubumu aparıb (göydən) onlara at,..." (Nəml:28)

5. Əbabil quşları fil ordusunu məhv etmək üçün məmur edilirlər: "Onların üstünə qatar-qatar quşlar (əbabil quşları) göndərdi". (Fil:3)

6. Əjdaha Musanın haqq olması vasitəsinə çevrilir: "Musa əsasını (yerə atdı) və o, dərhal aşkar görünən bir əjdaha oldu". (Əraf:107)

7. Balıq həzrət Yunusu tənbeh etmək üçün məmur olur: "(Yunis Allahın izni olmadan qövmünü tərk edib getdiyinə görə) özünü qınayarkən (dənizə atılarkən) balıq onu udmuşdu". (Saffat:142)

8. Ağac qurdu (termit) cinlərə hz. Süleymanın ölüm xəbərini verir: "Sonra (Süleymanın) ölümünü hökm etdiyimiz zaman onun

öldüyünü onlara (cinlərə) ancaq (Süleymanın) əsasını yeyən bir ağac qurdu xəbər verdi". (Səba:14)

9. Əshabi-kəhfin iti onları qorumaqla görəvlənir: "...Onlar iti də iki əlini (qabaq pəncələrini mağaranın) astanasına uzadıb yatmışdı". (Kəhf:18)

10. Dörd quş (tovuz, göyərçin, xoruz və qarğa) İbrahimin (ə) qəlbən əmin, xatircəm olmasına səbəb olur: "...Quşlardan dördünü tut..." (Bəqərə:260)

11. Ulaq Üzeyrin (ə) məəda yəqin etməsinə səbəb olur: "...Uzunqulağına da bax!" (Bəqərə:259)

12. Dəvə, inək və qoyun həccdə ilahi nişanələrdən hesab olunur: "Biz qurbanlıq dəvələri də Allahın nişanələrindən (Onun haqq dininin əlamətlərindən) etdik..." (Həcc:36)

13. Heyvan Allahıtanıma üçün bir vasitə kimi çıxış edir: "Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır?" (Ğaşiyə:17)

14. Heyvan insanın qınaq vasitəsi kimi çıxış edir: "...Allah sizi əllərinizin və nizələrinizin çata biləcəyi bir ovla imtahan edəcəkdir..." (Maidə:94)

15. Heyvan ilahi möcüzə rolunu oynayır: "...Allahın bu dişi (maya) dəvəsi sizin üçün (peyğəmbərliyimi təsdiq edən) bir möcüzədir..."

(Əraf:73)

16. Heyvan ilahi əzab üçün bir vasitə olur: "Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, (əkinlərinə) çəyirtkə və həşərat, (evlərinə, yeməklərinə) qurbağa və (çeşmələrinə, kəhrizlərinə) qan göndərdik..." (Əraf:133)

14-cü dərs: İslamda müqəddəslər

Müqəddəslərə ehtiram

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَرْفَعُوا أَصْوَاتَكُمْ فَوْقَ صَوْتِ النَّبِيِّ وَلَا تَجْهَرُوا لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ أَنْ تَحْبَطَ أَعْمَالُكُمْ وَأَنْتُمْ لَا تَشْعُرُونَ﴾

"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar".[1]

Fərqli inancların olmasına baxmayaraq, bütün dünya öz böyük şəxsiyyətlərinə xüsusi ehtiram bəsləyir və onların adı ilə şəhərləri, küçələri, universitetləri, aeroportları, məktəbləri və müəssisələri adlandırırlar. İslamda da, bəzi şəxsiyyətlər və hətta bəzi bitki və cansız varlıq var ki, müqəddəs hesab olunurlar.

İslama görə, hər bir şeyin müqəddəsliyi,

1 Hucurat:2

ülviliyi onun müqəddəs Allahla əlaqəsindən qaynaqlanır. Bu əsasla, bu bağlılıq nə qədər çox olursa, müqəddəslik də bir o qədər çox olur. Buna görə də, xüsusi olaraq onun ehtiramını qoruyub saxlamalıyıq. İslam dininə görə müqəddəs hesab olunanlar aşağıdakılardan ibarətdir:

1. Allah

Allah müqəddəsliyin qaynağı hesab olunur. Başqalarını Allahla bir tutan müşriklər qiyamət günü öz sapmalarını iqrar edərək, xəyali məbudlarına belə söyləyəcəklər: Bizim bədbəxt olmağımızın səbəbi odur ki, sizi aləmlərin Rəbbi ilə bir hesab edirdik, tay tuturduq: *"Allaha and olsun ki, biz (haqq yoldan) açıq-aydın azmışdıq! Çünki biz sizi (siz bütləri) aləmlərin Rəbbi ilə bərabər tuturduq".*[1]

Quranda Allaha təsbeh etməkdən, Onu pak qılmaqdan xeyli söhbət açılmışdır. Yəni biz Allahı elə ehtirama layiq və müqəddəs hesab etməliyik ki, hər hansı bir eyib, nöqsan, çatışmamazlıq Onun üçün təsəvvür belə oluna bilməsin. Hətta təkcə Onun zatı, özü yox, həm də adları belə münəzzəh (eyib və nöqsanlardan paklanmış) olmalıdır: *"(Ya Peyğəmbər!) Ən uca*

1 Şuəra:97-98

olan Rəbbinin adını pak (müqəddəs) tutub şəninə tərifl ər de!" (Əla:1)

2. Allahın kitabı

Allahın kitabı da xüsusi ehtirama layiq və müqəddəs hesab olunur. Allah Quranı əzəmətli, böyük kimi qələmə verirsə, deməli, biz ona təzim etməliyik. Allah Quranı ehtirama layiq bir kitab olaraq qeyd edirsə, deməli, biz ona hörmət bəsləməliyik. Allah Qaranı şanlı, şərəfli kimi xarakterizə edirsə, deməli, biz də onu şərafətli hesab etməliyik.

3. İlahi rəhbərlər

Bütün peyğəmbərlər və onların haqq canişinləri ilahi rəhbərlər kimi, xüsusən, Məhəmməd (s) və onun Əhli-beyti (ə) xüsusi bir məqama sahibdirlər. Yuxarıda qeyd olunan surədə o həzrətə münasibətdə sərgilənməsi gərəkən bəzi ədəblərə işarə olunmuşdur: Onlardan qabağa keçməməliyik, Səsimizi onların səsindən artıq qaldırmamalıyıq və s. Başqa ayələrdə isə deyilir ki, peyğəmbərə salavat göndərməliyik.

Qeyd etməliyik ki, Peyğəmbərin (s) vəfatından sonra belə, o həzrətin ziyarəti, onun nəslinin, canişinlərinin (imamlar), hədislərin dili ilə desək, peyğəmbər canişinləri hesab olunan alimlər, təqlid mərcələri, ilahi alimlər kimi

hansısa bir vasitə ilə o həzrətə mənsub olan adamların ziyarəti və onlara hörmət bəsləmək lazımdır. Bir hədisdə belə oxuyuruq: "Ədalətli bir fəqihin sözünü rədd edən kəs Əhli-beytin sözünü rədd edən kəs kimidir və onların sözünü rədd edən isə Allahın sözünü rədd edən kimidir".

Təkcə peyğəmbərlər özü yox, həm də onlara mənsub olan şeylər də müqəddəs və hörmətə layiq hesab olunur. Məsələn, Quranda oxuyuruq ki, Musanın uşaqlıqda içərisinə qoyularaq dəryaya atılan və sonralar ondan və nəslindən qalan şeylərin içərisində qorunub saxlanılan sandığı o qədər müqəddəs idi ki, mələklər onu daşıyırdılar və onun sayəsində düşmənə qələbə çalırdılar.

4. Valideyn

İslama görə valideynlər xüsusi bir hörmətə layiq və müqəddəs hesab olunurlar. Elə buna görə, Quranda Allahpərəstliyə tövsiyə edildikdən sonra ata-anaya yaxşılıq etmək vurğulanmış və habelə, onlara edilən təşəkkür Allaha edilən təşəkkürlə yanaşı qeyd olunmuşdur.

Valideynlərə göstərilən ehtiram o qədər önəmlidir ki, onlara sevgi ilə baxış ibadət hesab olunur. Hədislərdə bizə deyildiyi kimi, səsimizi onların səsindən artıq qaldırmamalıyıq. Hətta

onların inciməsinə səbəb olan səfər haram hesab olunur və belə bir səfərdə qılınan namaz isə qəsr yox, tam qılınmalıdır.

5. Bəzi zaman, məkan, su, torpaq və libaslar

İslama görə, Qədr gecəsi kimi bəzi zamanlar, məscid, Həcərül-əsvəd (qara daş) kimi bəzi məkanlar, Zəmzəm suyu kimi bəzi sular, imam Hüseynın (ə) türbəti kimi bəzi torpaqlar, ehram paltarı kimi bəzi libaslar müqəddəs hesab olunur. Elə buna görə, onlara xüsusi hörmət göstərmək lazımdır.

Musa (ə) müqəddəs vadiyə ehtiram əlaməti olaraq öz başmaqlarını çıxardı: *"Mən, həqiqətən, sənin Rəbbinəm. Nəleynini çıxart, çünki sən müqəddəs vadidə - Tuvadasan!" (Taha:12)*

Məscidülhəram müşriklərın daxil olması yasaq olan müqəddəs bir məkandır: *"...Özlərinin bu ilindən (hicrətin doqquzuncu ilindən) sonra Məscidülhərama yaxınlaşmasınlar..." (Tovbə:28)*

Məscidlər ibadət yerləri də müqəddəs hesab olunur. Quranda deyildiyi kimi, məscidə gedərkən gözəl və təmiz gedin: *"Hər bir ibadət vaxtı (məscidə gedərkən) gözəl libaslarınızı geyin"*. Həmçinin cunub olan birisi məsciddə dayana bilməz: *"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cunub (murdar) olduğunuz zaman - yol ötən müsafirlər müstəsnadır -*

qüsl edənədək namaza yaxınlaşmayın".

Məscid o qədər dəyərlidir ki, həzrət İbrahim, İsmail, Zəkəriyya və Məryəm kimi şəxsiyyətlər onu paklamaqla, təmizləməklə görəvli idilər: *"Evimi təvaf edənlər, etikafa girənlər, rüku və səcdə edənlər üçün təmizləyin!".* Hətta övladının oğlan olacağını sanan Məryəmin anası belə onu Məscidüləqsaya xidmətkar olmaq üçün nəzir etmişdi: "(*Ya Rəsulum!) İmranın zövcəsinin (Hənnənin): "Ey Rəbbim, bətnimdəkini Sənə xidmətkar olmaq üçün nəzir edirəm. (Bu nəziri) məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!" – dediyini xatırla!"*

6. İmanlı insan

İmanlı insan da, İslama görə, hörmətə layiq və müqəddəs hesab olunur. Belə ki, hədislərdə qeyd olunduğu kimi, onun abırı Kəbədən belə çoxdur. Habelə, onu incitmək, qeybətini etmək haram, onu müdafiə etmək isə vacibdir. Hətta öldükdən sonra belə onun qəbrini açmaq haram hesab olunur.

Peyğəmbərin təhqir edilməsi və Allahın müdafiəsi

﴿بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ. فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ. إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ﴾

"(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər

bəxş etdik! Ona görə də (bu nemətlərə şükür edərək) Rəbbin üçün namaz qıl və qurban kəs! Sənin düşməninin özü sonsuzdur! "[1]

Dinə və dini müqəddəslərə vurulan zərbə nə qədər möhkəm olarsa, onların müdafiəsi də bir o qədər möhkəm olmalıdır. İslam peyğəmbərinə qarşı (s) çoxsaylı hörmətsizlikər olunub. Belə ki, onu sehrbaz, kahin, şair və dəli adlandırıblar. Bütün bu hörmətsizlikərin əvəzi Quranda O həzrətə müəyyən qədər verilmişdir. Onlar Peyğəmbərə deyirdilər ki, sən dəlisən, səni cin vurub. Ancaq Allah isə belə buyururdu: *"Sən (ya Rəsulum!) Rəbbinin neməti sayəsində divanə deyilsən!"* O həzrətə deyirdilər ki, sən göndərilmiş peyğəmbər deyilsən. Allah isə belə buyururdu: *"Sən, həqiqətən, (Allah tərəfindən) göndərilmiş peyğəmbərlərdənsən!"* Onlar Peyğəmbərə (s) deyirdilər ki, sən divanə bir şairsən. Allah isə buna qarşılıq olar belə deyirdi: *"Biz ona (Muhəmməd) şer öyrətmədik və bu ona heç yaraşmaz da..."* O həzrətə sonsuz deyə lağ edirdilər, Allah isə bunun cavabında belə buyururdu: *"Sənin düşməninin özü sonsuzdur!"* Odur ki, varlıqların ən şərafətlisinə "əbtər" (sonsuz) deyən şəxsə cavab olaraq O həzrətə

1 Kovsər:2-3

bütün gözləri qamaşdıran və ağılları heyrətləndirən bir kövsər bəxş edir. Kövsər surəsinin son ayəsindən (*Sənin düşməninin özü sonsuzdur!)* aydın olur ki, "kövsər" anlayışı "əbtər" anlayışının ziddi hesab olunur. Ərəb övladı olmayan, ölümü ilə bütün izləri aradan gedən nəsilsiz, soysuz insanlara "əbtər" deyir. Kövsərin ən bariz nümunəsi Peyğəmbərin (s) nəslidir ki, bu da həzrət Fatimənin nəslindən olan məsum imamları özündə ehtiva edir.

Düzdür, kövsər geniş bir anlam ifadə edir və hər bir xeyrə şamil olur, ancaq hər bir xeyir kövsər hesab olunmur. Quran bu barədə belə buyurur: *"(Ya Peyğəmbərim! Müxaliflərin) nə malları, nə də oğul-uşağı səni təəccübləndirməsin. Allah onlarla ancaq müxaliflərə dünyada əzab vermək, kafir olduqları halda, canlarını almaq istər".*

Müşriklərin dəstə-dəstə İslama daxil olduqları Məkkənin fəthi zamanı Allah Peyğəmbərə (s) təkcə təsbeh etmək göstərişi verir: *"İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təsbeh et (təqdis et)."* Lakin kövsəri Peyğəmbərə bəxş edəndə isə belə buyurur: *"Rəbbin üçün namaz qıl!"* Məlum olur ki, sanki kövsər müşriklərin islama daxil olmasından da daha əhəmiyyətlidir.

15-ci dərs: Hicrət

Dini öyrənmək üçün hicrət etmək

﴿وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنْفِرُوا كَافَّةً فَلَوْلَا نَفَرَ مِنْ كُلِّ فِرْقَةٍ مِنْهُمْ طَائِفَةٌ لِيَتَفَقَّهُوا فِي الدِّينِ وَلِيُنْذِرُوا قَوْمَهُمْ إِذَا رَجَعُوا إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ﴾

“Möminlərin hamısı birdən (cihada, döyüşə (çıxmamalıdır. Barı, hər tayfadan bir dəstə dini dərindən öyrənmək üçün köçsün ki, camaatı qayıtdıqları zaman (Allahın əzabıil ə (qorxutsun. Bəlkə ,onlar) əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) çəkinsinlər!”[1]

Ayədə keçən "təfəqquh" ifadəsi dini dərindən öyrənmək üçün cəhd etmək anlamındadır ki, bu da həm İslam dininin inanclarına, əqidələrinə, həm də hökmlərinə, qanunlarına şamil olur. Bəzən insan dini dünya, məqam, dərs oxuma eşqi, bəhs, əyləncə,

1 Tövbə:122

dostlardan geridə qalmamaq üçün öyrənir. Bəzən də onu din, Allah, cənnət, ümmətin xilası üçün öyrənir. Qeyd olunan ayə məhz ikinci insanın əzərdə tutur və onu insanları Allah yoluna dəvət etməyə layiq bir fərd hesab edir*: "...camaatı qayıtdıqları zaman (Allahın əzabıil ə (qorxutsun ."*

İmam Əli (ə) öz övladına belə tövsiyə edir: "Dini dərindən öyrən, çünki dini dərindən öyrənənlər (fəqihlər) peyğəmbərlərin varisləridirlər ."İmam Hüseyn (ə) də Aşura gecəsi Allahı belə mədh edir: "Həmd olsun o Allaha ki, bizi dində fəqih (dərindən anlayan) etdi ."

İmam Sadiqdən (ə) soruşdular ki, əgər imam üçün hansısa bir hadisə baş versə, bu zaman insanların vəzifəsi nədir? İmam bu ayəni oxudu ki, hər bir şəhərdən bir dəstə imamı tanımaq üçün hərəkət etməlidirlər .

Hər bir bölgədən müəyyən fərdlər İslamı öyrənmək üçün elmi mərkəzlərə getməli və sonra yenidən öz bölgələrinə qayıtmalıdırlar ki, bununla da bütün bölgələrdə lazımi miqdarda ruhani, ilahiyyatçı mövcud olmuş olsun. Odur ki, hicrət imandan ayrılmaz bir hadisədir. Demək, ya dini müdafiə etmək üçün hicrət etməlisiz, ya da dini öyrənmək üçün. Deməli,

dini dərindən öyrənib, onu yaşadığın yerdəki insanlara öyrətməyin vacibi-kifayi[1] hesab olunur. Bu əsasla, hövzə (din) tələbələrinə iki cür hicrət (köç) lazımdır: biri hövzələrə doğru hicrət etmək, o biri isə hövzələrdən şəhərlərə doğru hicrət etməkdir. Buna görə də, hövzələrdə müəllimlərdən başqaları üçün qalmaq icazəli deyil .

Qeyd edək ki, ayədə işlədilən "təfəqquh" ifadəsi təkcə dinin əməli hökmlərini öyrənməyə şamil deyil, əksinə, bütün dini bilikləri dərindən tədqiq edib öyrənməyə şamil olur: *"...dini dərindən öyrənmək üçün "*.

Dində fəqih olmaq o zaman dəyərli ola bilər ki, insanlarıhiday ət edə bilməsi üçün öz zəmanəsindən və düşmənin hiylələrindən, nüfuz taktikalarından xəbərdar olmuş olsun. Deməli, İslamşünas bir fəqihin sözlərinə etimad etmək olar*..."*:*dini dərindən öyrənmək üçün... qorxutsun ".*

Alimlər insanların yanına getməli və onların dəvətini gözləməli deyillər: *"...camaatı qayıtdıqları zaman (Allahın əzabı ilə) qorxutsun"*. Eyni zamanda bütün insanların onların sözlərinə qulaq asacaqlarını da gözləməli deyirlər: *"Bəlkə,*

1 Bir dəstənin o əməli yerinə yetirməklə digərlərin üzərindən götürülən əmələ vacibi-kifayi deyilir. Meyit namazı, məscidin təmizlənməsi v s.

onlar (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) çəkinsinlər!"

Peyğəmbərin (s) tarixi hicrəti

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَهَاجَرُوا وَجَاهَدُوا بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ فِي سَبِيلِ اللَّهِ وَالَّذِينَ آوَوْا وَنَصَرُوا أُولَئِكَ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ ۚ وَالَّذِينَ آمَنُوا وَلَمْ يُهَاجِرُوا مَا لَكُمْ مِنْ وَلَايَتِهِمْ مِنْ شَيْءٍ حَتَّىٰ يُهَاجِرُوا...﴾

"İman gətirib hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər (mühacirlər) və) Peyğəmbərlə mühacirlərə (sığınacaq verib kömək istəyənlər) ənsar) – məhz onlar bir-birinə dostdurlar (varisdirlər). İman gətirib hicrət etməyənlərə gəldikdə isə ,onlar hicrət etməyənə qədər sizin heç bir şeydə onlara varisliyiniz yoxdur... "[1]

Besətin on birinci ilində, hz. Peyğəmbərin insanları İslama aşkar şəkildə dəvət etməsindən on il keçməsinə baxmayaraq, Məkkə müşrikləri hələ də o həzrəti və müsəlmanları incidirdilər. Gündən-günə daha da intensivləşirdi. İş o yerə çatdı ki, xüsusi bir planla kollektiv şəkildə Peyğəmbəri qətlə yetirib İslamın kökünü kəsmək fikrinə düşdülər. Ancaq Peyğəmbərin (s) həmin plandan xəbərdar olması və imam Əlinin (ə) canfəşanlığı sayəsində hicrətə hazırlıq baş tutdu.

1 Ənfal-27

Peyğəmbər Rəbiul-əvvəl ayının birinci günü ilk olaraq "Sovr" mağarasına gedərək üç gün orada ecazkar bir şəkildə gizləndi və bu müddət ərzində təkcə imam Əli (ə) onun üçün yemək aparır və çöldə baş verən olayları ona xəbər verirdi. Nəhayət, Peyğəmbər (s) imam Əlinin müsəlmanların Yəsribə hicrət etmələri və o həzrətin ailəsini özü ilə birgə gətirmək barədəki tövsiyəsindən sonra Yəsribə yola düşdü. Təqribən dörd yüz kilometr məsafə qət etdikdən sonra Rəbiul-əvvəl ayının on ikisi "Quba" adlı bir məntəqəyə yetişdi. Daha sonra isə qalan mühacirlər (hicrət edənlər) o həzrətə qoşuldular .

Yəsrib xalqı mühacirləri gözəl bir şəkildə qarşılayıb onlara qucaq açdılar və "Yəsrib"in adını dəyişərək onu "Mədinətun-nəbi" və "mədinətur-rəsul" (peyğəmbər şəhəri) adlandırdılar. Daha sonra Peyğəmbər (s) təfriqənin qarşısını almaq üçün təxminən üç yüz nəfər olan mühacirlə ənsar arasında iki-iki qardaşlıq əqdi oxutdurdu və Quba məscidinin təməlini ataraq onu tikdilər .

Mühacirlər- Məkkədə Peyğəmbərə (s) iman gətirib, işgəncə gördükləri üçün öz evlərini tərk edərək o həzrətlə birgə Mədinəyə köçən şəxslərdir. Ənsar isə İslam peyğəmbərini və mühacirləri öz aralarına qəbul edərək onlara yer

verən Mədinə müsəlmanlarıdır .

Adətən, millətlər öz ictimai, elmi və dini həyatlarında baş verən və öz milli talelərində dönüş nöqtəsi hesab olunan ən böyük, ən önəmli hadisəni öz tarixlərinin başlanğıcı olaraq təyin edirlər. Məsələn, xristianlara görə İsanın doğum günü- milad və ya ərəblərə görə Amul-fil (Əbrəhənin qoşununun Məkkəyə hücum edərək oranı dağıtdığı il), ilin başlanğıcı olaraq seçilib.

İslam dini ən kamil səmavi şəriət və eyni zamanda başqa dinlərdən müstəqil olduğundan, müsəlmanlar Məsihin miladını öz illərinin əsası kimi nəzərə almadılar. Həmçinin Amul-fil hz. Peyğəmbərin doğum ilinə təsadüf etsə belə ilin başlanğıcı kimi qəbul olunmadı. Hətta Peyğəmbərin besət- peyğəmbərlik günü belə təqvimin başlanğıcı olaraq seçilmədi. Ancaq Peyğəmbərin müstəqil bir hakimiyyət qurulmasına və müsəlmanların azad şəkildə fəaliyyət göstərməsinə səbəb olan Mədinəyə hicrəti sayəsində hicri tarixi təyin olundu. O həzrətin şəxsən özü bu işi gördü. Necə ki Quba məscidinin inşası ilə əlaqədar olan *"İlk gündən binası təqva üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir* -."ayəsindəki" ilk gündən" ifadəsindən hicri ilinin təqvim ili kimi təyin olunduğunu anlamaq olar. Çünki Peyğəmbərin

Mədinəyə hicrət edərkən ilk gördüyü iş Quba məscidini tikmək oldu. Odur ki, əgər hicrət olmasaydı, İslam həmin məkanda- Məkkədə qalaraq məhv ola bilərdi .

Qeyd edək ki, İslamın ilkin çağında iki hicrət baş tutub: biri besətin beşinci ilində bir qrup müsəlmanların Həbəşə torpağına hicrət etməsi, digəri isə besətin on üçüncü ilində Məkkədən Mədinəyə olan hicrət idi .

Hicrətin təsir və bərəkətləri

Bizim bir çox bəlalarımız rifahda qərq olaraq qurucu hicrətləri tərk etməyimizdən irəli gəlir. Əgər Qərb ölkələrində yaşayan bütün beyinlər, mütəxəssislər, ekspertlər öz ölkələrinə hicrət (köç) etsələr, həm düşmənə zərbə endirmiş olarlar, həm də İslamın və İslam ölkələrinin möhkəmləşməsinə səbəb olarlar .

Hicrət təkcə İslam peyğəmbərinə (s) aid deyil, əksinə, dini, imanı qorumaq və ya Allaha üsyan etməkdən çəkinmək üçün şirk, küfr və günah mühitindən hicrət etmək lazımdır. Necə ki Allah-taala günah işləmələrinə, günahkar olmalarına bəhanə olaraq xəstə mühiti göstərərək: *"Biz yer üzündə zəif insanlar idik!" söyləyən kəslərə cavab olaraq belə buyurur: "Məgər Allahın torpağı o qədər geniş deyildi ki, ümidli yerə*

hicrət edəydiniz?" Ayədə keçən "müstəzəf" (zəiflədilmiş, zəif olan) ifadəsində belə anlaşılır ki, əgər kimsə həmin xəstə mühitdə yaxşılığa dəvət və pislikdən çəkindirmə imkanı olarsa, onda bu mühüm vəzifəni yerinə yetirməli və həmin cəmiyyəti tərk etməyərək oranı islah etməlidir .

İmam Sadiq (ə) bir hədisdə belə buyurur: Yaşadığın yerdə Allaha qarşı üsyan edilirsə, Onun itaətindən yayınırlarsa, onda oranı başqa bir yerə getməklə tərk etməlisən. Necə ki elm, bilik öyrənmək üçün və habelə öyrəndiklərini başqalarına öyrətmək üçün hicrət etmək lazımdır .

16-cı dərs: Qədr surəsinin təfsiri Qədr gecəsi

﴿بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ. إِنَّا أَنْزَلْنَاهُ فِي لَيْلَةِ الْقَدْرِ. وَمَا أَدْرَاكَ مَا لَيْلَةُ الْقَدْرِ. لَيْلَةُ الْقَدْرِ خَيْرٌ مِنْ أَلْفِ شَهْرٍ. تَنَزَّلُ الْمَلَائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِمْ مِنْ كُلِّ أَمْرٍ. سَلَامٌ هِيَ حَتَّى مَطْلَعِ الْفَجْرِ﴾

Bağışlayan və mehriban Allahın adı ilə.

(1) Həqiqətən, Biz onu (Qur'anı) Qədr gecəsində nazil etdik (Qur'an bütünlüklə, bir dəfəyə, feyz mənbəyindən birinci səmaya, yaxud Peyğəmbərin mübarək qəlbinə Qədr gecəsində nazil oldu. Sonra isə il ərzində tədriclə birinci göydən Peyğəmbərin mübarək qəlbinə və Peyğəmbərin mübarək qəlbindən də ümmətə çatdırıldı).

(2) Sən nə bilirsən ki, Qədr gecəsi nədir?

(3) Qədr gecəsi min aydan daha xeyirlidir.

(4) O gecə mələklər və Ruh (Cəbrail, ya mələklərdən olmayan başqa bir şərəfli varlıq) Rəbbinin izni ilə (həmin gecədən gələn ilin Qədr

gecəsinədək dünyada baş verəcək) hər bir iş(in təqdir, tənzim və sabit edilməsin)dən ötrü yerə enər.

(5) O gecə dan yeri sökülənə qədər hamı salamatlıqda və (Allahın) rəhmət(in)də olar. Və (o gecə mələklərin yer üzündəki məsumu və saleh bəndələri) salamlama gecəsidir.

Quranda ”Qədr” kəlməsi bir neçə mənada işlənib:

1) Məqam və şərəf mənasında işlənməsi: ”

﴿وَمَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ﴾

“Allahı Ona layiq olan tərzdə tanımadılar və vəsf etmədilər”.[1]

2) Qismət və tale mənası: ﴿جِئْتَ عَلَىٰ قَدَرٍ يَا مُوسَىٰ﴾ “Sonra da müəyyən olunmuş vaxta (qırx yaşına) gəlib çatdın, Ya Musa!”[2]

3) Məhdudluq və çətinlik mənası:

﴿وَمَنْ قُدِرَ عَلَيْهِ رِزْقُهُ﴾

“ İmkanı məhdud olan isə Allahın ona verdiyindən versin.”[3]

Surədə sözü gedən “Qədr gecəsi”nə ilk iki məna uyğundur. Çünki “Qədr gecəsi” şərafətli və insanların taleyi yazılan gecədir.

1 Ənam-91
2 Taha-40
3 Təlaq-7

Allah-taala "Qədr gecəsi"ndə il ərzində olan işləri müqəddər edir. Bu haqda Quranın digər ayəsində belə söylənir: ﴿فِيهَا يُفْرَقُ كُلُّ أَمْرٍ حَكِيمٍ﴾ *"Hər bir iş o gecə hökm (ayırd) olunur."*[1]

"Qədr gecəsi" yalnız Quranın nazil olan və Peyğəmbərin (s) əsrinə şamil olan gecə deyil, hər Ramazan ayında "Qədr gecəsi" var. Həmin gecədən gələn ilin "Qədr gecəsi"nədək dünyada baş verəcək bütün işlər təqdir və tənzim edilir. "Qədr gecəsi"ndə oyaq qalıb dua, namaz və Quran oxumaq, xüsusən üç gecənin sonuncusuna, yəni Ramazan ayının 23–nə Peyğəmbər və Əhli-beyt tərəfindən sifariş olunub. Bir şəxs Peyğəmbərdən (s) soruşur: Yaşadığım yer Mədinədən uzaq olduğu üçün, hər dəfə gələ bilmirəm, mənə bir gecə müəyyən et ki, ancaq o gecədə gəlim. Peyğəmbər buyurdu: 23-ü şəhərə daxil ol.[2]

Imam Sadiq (ə) xəstə halında xahiş etdi ki, onu ramazanın 23-cü gecəsi məscidə aparsınlar. [3] Xanım Zəhra (ə) bu gecədə uşaqların üzünə su vurmaqla onların yuxuya getməsinə mane olurdu.[4]

1 Duxan-4
2 Vəsailuş-şiə c. 3 s. 307
3 Biharul-ənvar c. 95 s. 169
4 Biharul-ənvar c. 94 s. 10

Hədislərə görə. Peyğəmbər (s) ramazan ayının axır 10 gününü oyaq qalardı.[1]

Digər geniş hədisdə Peyğəmbərdən (s) belə nəql olunur: Həzrəti Musa (ə) Allaha ərz etdi: İlahi sənin mənə yaxın olmağını arzu edirəm. Cavab gəldi: Mənim yaxın olduğum bəndə "Qədr gecə"sində oyaq qalan kəsdir. Musa (ə) ərz etdi: İlahi sənin rəhmətini diləyirəm. Cavab gəldi: Rəhmətim "Qədr gecəsi"ndə miskinlərə mərhəmət göstərən üçündür. Dedi: İlahi sirat körpüsündən keçmək istəyirəm. Allah-taala buyurdu: Sirat körpüsündən keçə bilən "Qədr gecəsi"ndə sədəqə verən şəxsdir. Ərz etdi: İlahi cənnət və onun nemətlərin istəyirəm. Buyurdu: Cənnət və onun nemətləri "Qədr gecəsi"ndə mənə həmd-səna edən üçündür. Musa yenə ərz etdi: İlahi cəhənnəm od-alovundan amanda qalmaq istəyirəm. Cavab gəldi: Ondan nicat "Qədr gecəsi"ndə tövbə edənlədir. Sonda ərz etdi: İlahi sənin razılığını istəyirəm. Allah-taala buyurdu: Razılığım "Qədr-gecəsi" iki rükət namaz qılanadır.[2]

Tarix səhifələrinin maraqlı hadisələrindən biri həzrəti Əlinin "Qədr gecəsi"ndə, mehrabda, ibadət halında zərbə almasıdır. Allahın ən şərəfli

1 Məcməul-bəyan təfsiri
2 Vəsail c. 8 s. 20

bəndəsi şərəfli məkanda, şərəfli zamanda və şərəfli əməl üzərində şəhadətə yetirilmişdi.

"Qədr gecəsi"nin müddəti yer kürəsində 24 saat davam edir və Məkkə kimi bir şəhərə məxsus deyil, belə ki Fitr bayramı deyildikdə yer üzündə bütün şəhərlərə şamil olan bir gün nəzərdə tutulur.

"Qədr gecəsi"ndə Quranın nazil olması ilə insanların bu gecədə müqəddəratı haqda düşünəndə, insan taleyinin Quranla əlaqəli olması nəzərə gəlir. Əgər insan Qurana tabe olarsa nicata və səadətə çatar, tabe olmayan təqdirdə bədbəxtliyə düçar olar. Peyğəmbərin (s) böyük əshabəsi Əbuzər buyurur: Peyğəmbərdən (s) soruşdum ki, "Qədr gecəsi" keçmiş peyğəmbərlərin zamanında olubmu? və peyğəmbərlər dünyaların dəyişəndən sonra işlərin nazil olması dayandırılıbmı ? Peyğəmbər (s) buyurdu: "Qədr gecəsi" qiyamət gününə kimi davam edəcək.

Ola bilər ki, "Qədr gecəsi"nin gizli olmasının hikməti insanların bütün gecələrdə ibadət etməsidir. Digər tərəfdən "Qədr gecəsi" müəyyən olarsa gecəni ibadət edənlər məğrur, edə bilməyənlər isə məyus olar.

Hədisdə nəql olunur ki, "Qədr gecəsi"ndə xeyirli əməl, min ayda olunan xeyirli əməldən

üstündür.[1]

"Qədr gecəsi"ndə dünyada baş verəcək işlərin təqdiri, tənzimi mələklərin yer üzünə nazil olması ilə baş verir. (*O gecə mələklər və Ruh hər bir işdən ötrü yerə enər).*

Surədə (Salam) sözü "Qədr gecəsi"-ndə Allahın bəndələrinə xüsusi inayəti, rəhməti, bərəkəti və əzab qapılarının bağlanması deməkdir. Çünki bu gecədə şeytanın hiyləsi və vəsvəsəsi təsirsizdir. "Qədr gecəsi"-ndə mələklər yer üzünə nazil olub, bütün ibadət edən kişi və qadınlara öz salamlarını deyirlər. Mələklər qiyamət günündə də behişt əhlinə salam verirlər:

﴿سَلَٰمٌ عَلَيۡكُمۡ طِبۡتُمۡ فَٱدۡخُلُوهَا خَٰلِدِينَ﴾

Mələklər deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!"

Quranda mələklərin vəsfləri

1. Mələklər Allahın möhtərəm bəndələridir. "Xeyr, (mələklər Onun övladı deyil, xəlq etdiyi) möhtərəm qullardır."[2]

2. Məsum və itaətkardırlar. "Mələklər Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirəndilər "[3]

1 Mən la yahzur c. 2 s. 158
2 Ənbiya-26
3 Təhrim-6

3. İşlərin əncamı onların öhdəsindədir. "And olsun işə əncam çəkən (mələklərə)"[1]

4. İnsanların hər sözünü yazmağa məmurdurlar. "Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!"[2]

5. İnsanların əməllərini qeyd edirlər. "Yanlarında olan elçilərimiz (onların bütün aşkar və gizli söhbətlərini) yazırlar!"[3]

6. Allah yolunda döyüşənlərə bəşarət verməkləri: "Onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə müdafiə etmiş".[4] Duanın qəbulu və övladın olması: "Ey Zəkəriyya! Sənə bir oğulla (oğlun olacağı ilə) müjdə veririk ki, adı Yəhyadır"[5]. Möminlərə ölüm ayağında təskinlik: "Şübhəsiz: "Rəbbimiz Allahdır!" – deyən, sonra da (sözündə) düz olan kəslərə (ölüm ayağında) mələklər nazil olub (belə deyəcəklər): "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!"[6]

1 Naziat-5
2 Qaf-18
3 Zuxruf-80
4 Tövbə-40
5 Məryəm-7
6 Füssilət-30

7. Günahkarlara əzab vermələri: "(Mələklər) dedilər: "Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə toxuna bilməzlər. Gecənin bir vaxtında ailənlə birlikdə çıx get. Heç kəs dönüb geri baxmasın. Təkcə övrətin istisnadır. Onlara toxunacaq əzab övrətinə də toxunacaqdır. Onların (ölüm) vaxtı səhərdir. Səhər yaxın deyilmi?"[1]

8. İnsanları qorumaları: "(Allah) Öz bəndələri üzərində hakimi-mütləqdir. O sizə (yaxşı və pis əməllərinizi yazan, sizi Şeytandan qoruyan) gözətçi mələklər göndərir."[2]

9. Möminlərə dua edib, bağışlanma istəyirlər: "Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: "Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!"[3]

10. Şəfaçı: "Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah Öz istədiyi və razı olduğu kimsəyə (mələyə, yaxud möminə) izin verdikdən sonra

1 Hud-81
2 Ənam-61
3 Ğafir-7

(onun şəfaəti fayda verər).”[1]

11. Kafirlərə lənət: “Kafir olanlara və kafir olaraq ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun!”[2]

12. Allah yolunda döyüşənlərə köməkçi: “Bəli, əgər səbr edib (Allahdan) qorxsanız, onlar (Məkkə müşrikləri) qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan qoyulmuş mələklə sizə yardım edər.”[3]

13. Günahkarları ölərkən tənbeh edirlər: “Bəs mələklər onların üzlərinə, arxalarına vura-vura canlarını alanda halları necə olacaq?” [4]

14. Cənnət əhlini qarşılamaqları: “(Dünyada Allah yolunda bütün çətinliklərə) səbr etdiyinizə görə sizə salam olsun! Axirət yurdu (Cənnət) nə gözəldir!” – deyəcəklər.”[5]

15. Cəhənnəm gözətçiləri: ” Onun üstündə on doqquz (nəfər gözətçi mələk) vardır.”[6]

16. Can alma: “O sizə gözətçi mələklər göndərir. Nəhayət, birinizin əcəli gəlib çatdıqda onun canını (göndərdiyimiz) mələklər alar.”[7]

---

1 Nəcm-26
2 Bəqərə-161
3 Ali İmran-125
4 Muhəmməd-27
5 Rad-24
6 Muddəsir-30
7 Ənam-61

17. Məqam və dərəcə sahibidirlər: "(Cəbrail Peyğəmbər əleyhissəlama belə dedi:) "Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri olmasın!"[1]

18- Vəhyi endirilər: "(Allah) Öz əmri ilə mələkləri (Cəbraili) vəhy ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: "İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Mənim adımdan onlara) bildirin: "Məndən başqa heç bir tanrı yoxdur. Məndən qorxun!"[2]

19. İnsana bənzəyə bilmələri: "Biz də Öz ruhumuzu (Cəbraili Məryəmin) yanına göndərdik. Ona (Məryəmə) kamil bir insan qiyafəsində göründü."[3]

20. Yorulmadan ibadət etmələri: "(Ya Rəsulum!) Sənin Rəbbinin dərgahında olanlar (mələklər) gecə-gündüz usanmadan Onu təqdis edib şəninə təriflər deyərlər."[4]

21. Qeyri peyğəmbərlərə xəbər vermələri: "(Cəbrail:) "Mən sənə ancaq təmiz (məsum) bir oğlan bağışlamaq üçün Rəbbinin (göndərdiyi) elçisiyəm!" – dedi."[5]

---

1 Saffat-164
2 Nəhl-2
3 Məryəm-17
4 Fussilət-38
5 Məryəm-19

22. Seçilmiş mələklər: "Allah mələklərdən də elçilər (peyğəmbərlər) seçər, insanlardan da. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, görəndir!"[1]

23. Mələklərə imanın zərurəti: "Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirərək dedilər..."[2] "Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki, (doğru yoldan) çox azmışdır."[3]

Hədislərdə imaməti inkar edənlərə, Qədr surəsini sübut olaraq gətirmək tövsiyə olunub. Çünki bu surəyə əsasən mələklər hər il "Qədr gecəsi"ndə yerə nazil olurlar. Peyğəmbərin (s) dövründə Ona nazil olardılar, peyğəmbərdən sonra kimə nazil olmaları sual olaraq qalır. Digər tərəfdən ilahi mələklərin hər kəsə nazil olmadıqlarını bilirik, çünki o şəxs Peyğəmbər (s) tək məsum və bəşərin işlərinə öhdəçiliyi olmalıdır. Belə bir şəxs yalnız şiə məzhəbinin məsum imamlarıdır və bizim zəmanəmizdə mələklər "Qədr gecəsi"ndə imam Məhdiyə (ə) nazil olur.

1 Həcc-75
2 Bəqərə-285
3 Nisa-136

17-ci dərs: Müqəddərat

İlahi müqəddəratın qisimləri

﴿يَمْحُو اللَّهُ مَا يَشَاءُ وَيُثْبِتُ وَعِنْدَهُ أُمُّ الْكِتَابِ﴾

"Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar). Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır".[1]

Ayə və rəvayətlərə görə ilahi müqəddərat iki növdür:

A) Daimi məsləhəti olan və buna görə də qanunu daimi olan məsələlər. Misal üçün, *"Mənim sözüm dəyişməzdir"*[2] və *"Onun dərgahında hər şeyin müəyyən ölçüsü vardır"* [3] kimi ayələr bu qəbildəndir. Bu növ müqəddərat "Lövhi-məhfuz"da qeyd olunmuşdur və yalnız

1 Rəd- 39
2 Qaf-29
3 Rəd-8

"müqərrəblər" (Allah dərgahına yaxın olanlar) Allahın izni ilə ondan xəbərdar ola bilərlər. *"O, yazılı bir kitabdır. Onu ancaq (Allaha) yaxın olan mələklər görə bilər!"*[1]

B) Mütləq olmayan və məsləhəti insanların davranışından, əməllərindən asılı olan məsələlər. Misal üçün, insanların günahdan peşman olub tövbə etməsi əfv məsləhəti ilə nəticələnir. Sədəqə bəlanın aradan qalxması məsləhəti ilə sonuclanır. Yaxud, zülm və zorakılıq meydana gətirdiyi fəsadlar səbəbi ilə ilahi qəzəbə səbəb olur. Yəni, Allah yaradılış sisteminin idarəsində əlibağlı deyil. Sonsuz bilik və hikməti ilə şəraiti dəyişərək yaradılış aləmində və onun qanunlarında dəyişiklik edə bilir. Məlumdur ki, bu dəyişikliklər Allahın bilməzliyindən və ya fikrini dəyişməsindən, peşmanlığından irəli gəlmir. Əksinə, bu dəyişikliklər hikmətə əsaslanır. Şərtlərin dəyişməsindən və ya o məsələnin dönəminin sona yetməsindən irəli gəlir.

Quranda bu haqda çoxlu sayda nümunələr var. Bir neçə misala diqqət edək:

1. "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm."[2]

1 Mutaffifin 20-21
2 Ğafir-60

İnsan dua və yalvarışla öz məsləhətlərini əldə edə, taleyini dəyişə bilər.

2. *"Ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin."*[1] İlahi qanun hər yerdə sabit deyil. Ola bilər ki, Allah yeni şəraitin meydana gəlməsi ilə yeni bir proqram yaratsın.

3. *"O hər gün (hər an) bir işdədir"*[2]

4. *"Onlar (doğru yoldan) sapdıqda, Allah da onların qəlbini sapdırdı"*[3]

5. *"Əgər o məmləkətlərin əhalisi iman gətirib (pis əməllərdən) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq (göyün və yerin bərəkət qapılarını onların üzünə açardıq"*[4]

6. *"Həqiqətən də, insanlar özlərini dəyişmədikcə, Allah da onların taleyini dəyişməz"*[5]

7. *"Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər"*[6]

8. *"Əgər siz (yenidən yaramaz əməllərinizə) qayıtsanız, Biz də (sizi yenidən cəzalandırmağa) qayıdarıq"*[7]

---

1 Təlaq-1
2 Ər-Rəhman-55
3 Saff-5
4 Əraf-96
5 Rəd-13
6 Furqan-25
7 İsra-17

Şübhəsiz, Allahın biliyi səbəbiyyət qanununa əsaslanır. Belə ki, O, əgər bu vasitədən istifadə olunsa, bu nəticə törəyəcəyini, digər bir vasitədən istifadə edilsə, o nəticə ilə bitəcəyini bilir.

Bəda nədir?

Şiələrə görə, bəda Allahın elminin dəyişməsi və əksinin üzə çıxması yox, biz insanların əksini düşündüyümüz bir şeyin aşkara çıxmasıdır. Demək, bəda bizim bilməzliyimizdəndir, Allahın yox.

Yaradılışda bəda qanunda "nəsx" kimidir. Misal üçün, bir qanunun zahirindən onun daimi olduğunu düşündüyümüz halda sonradan dəyişə bilir. Təbii ki, bu, qanunvericinin peşmanlığından və ya bilməzliyindən irəli gəlmir. Əksinə, şərait mövcud qanunda dəyişiklik edilməsinə səbəb olur. Bu tam olaraq bir həkimin nüsxəsini xatırladır. Həkim xəstənin hazırki vəziyyətinə uyğun nüsxə yazır. Amma onun vəziyyəti dəyişən kimi nüsxəni də dəyişir.

Burada bəda ilə bağlı Qurandan bir neçə nümunəni diqqətinizə çatdırırıq:

1. Biz güman edirdik ki, həzrət İsmayıla (ə) oğlunu qurban kəsmək əmri verilmişdir. İsmayılın (ə) kəsilməsinin və qanının yer üzünə

axıdılması tələb olunduğunu düşünürdük. Amma sonra məlum olur ki, bütün bunlarda Allahın iradəsi atanı sınağa çəkmək olub, övladı qurban kəsmək yox.

2. Biz Allahın həzrət Musaya (ə) verdiyi vəddən münacat dönəminin otuz gün olduğunu təsəvvür edirdik. *"Musa ilə otuz gecə barədə vədələşdik"*[1] Lakin sonradan məlum oldu ki, hələ əvvəldən məqsəd qırx gün imiş. Sadəcə, Allah sınaq üçün onu iki mərhələdə açıqlayıbmış. Öncə otuz gün, sonra isə on gün.

3. Biz elə bilirdik ki, müsəlmanların qibləsi həmişəlik Beytül-müqəddəsdir. Lakin qiblənin dəyişilməsi ilə bağlı ayələr nazil olduqda bəlli oldu ki, daimi qiblə Kəbə evidir.

4. Allahın qəzəb nişanələri aydın olduqda hətta həzrət Yunus (ə) da əmin oldu ki, ilahi əzab nazil olacaq və kafir qövmünü məhv edəcək. Odur ki, xalqın arasından çıxdı. Lakin xalq iman gətirdi və ilahi əzab götürüldü. *"(Yunusun ümməti) iman gətirən zaman onları dünyadakı rüsvayçılıq əzabından qurtardıq"*[2]

Hər halda bəda Allahın bilməzliyi, elminin dəyişməsi demək deyil. Çünki Allah öncədən bilirdi ki, İsmayılın (ə) qanı tökülməyəcək,

1 Əraf-142
2 Yunus-98

həzrət Musanın (ə) münacat müddəti qırx gün olacaq, müsəlmanların daimi qibləsi Kəbə olacaq və Yunusun (ə) qövmü nicat tapacaq. Lakin zahirdə hadisələr elə cərəyan edirdi ki, insan fərqli düşünürdü. Demək, Allahın elmində dəyişiklik olmayıb, biz öncə bilmədiyimiz yeni məlumat əldə etmişik.

Bəda bu mənada bir çox tərbiyəvi nəticələrə malikdir. Onlardan biri budur ki, insan ömrünün sonunadək şərtlərin dəyişəcəyinə ümidli olur. Onda təvəkkül əhvalı yüksək olur. Zahirin əsiri olmur. İnsanın Allaha və qeybə imanı daha da artır. Tövbə, sədəqə, münacat və dua ilə hadisələrin axarını dəyişməyə, ilahi əzabın qarşısını almağa çalışır.

18-ci dərs: Əhli-beyt (ə)

"Təthir" ayəsi

﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

"Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"[1]

"إِنَّمَا" (İnnəma) ifadəsi göstərir ki, ayə Əhli-beyt (ə) haqqında müstəsna bir nemətdən söz açır.

"يُرِيدُ" (yuridu) ifadəsində məqsəd təkvini iradədir. Çünki Allahın təşrii iradəsi yalnız Peyğəmbərin (s) Əhli-beytinin (ə) deyil, bütün insanların paklığıdır.

"رِّجْسَ" (rics) sözündə məqsəd zahiri və batini olmaqla hər növ natəmizlik, napaklıqdır.

"أَهْلَ الْبَيْتِ" Əhli-beytdə məqsəd Peyğəmbərin (s) bütün ailəsi deyil. Adları şiə və əhli-sünnə hədislərində keçən bəzi insanlardır. Onlar Əli,

1 Əhzab-33

Fatimə, Həsən və Hüseyndirlər (ə).

Sual: Bu inhisarın səbəbi nədir? Nə üçün ayənin bu hissəsi Peyğəmbərin (s) qadınları və ya bütün ailəsi haqqında deyil?

Cavab:

1. Peyğəmbərin (s) qadınlarından, hətta Aişə və Ümmü-Sələmədən nəql olunan rəvayətlərdə deyilir ki, onlar Peyğəmbərdən (s) soruşmuşlar: "Biz də Əhli-beytdənikmi?" Peyğəmbər (s) buyurmuşdur: "Xeyr!".

2. Çoxsaylı rəvayətlərdə oxuyuruq: Peyğəmbər (s) bu beş nəfərin üzərinə əba saldı (onlardan biri də özü idi), "Bunlar mənim Əhli-beytimdir" buyurdu və başqa heç kimə əbanın altına girməyə icazə vermədi.

3. Əziz Peyğəmbər (s) Əhli-beytin (ə) beş nəfərdən ibarət olduğunu göstərmək, sübut etmək üçün altı ay (bəzi rəvayətlərə görə səkkiz və ya doqquz ay) Sübh namazı vaxtı həzrət Fatimənin (ə) evinin yanından keçir və buyururdu: "Namaz zamanıdır, ey Əhli-beyt" və sonra bu ayəni oxuyurdu: *"Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"*

"İhqaq əl-həqq" kitabında əhli-sünnə qanynaqlarından bu ayənin yalnız məlum beş nəfərə aid olmasını göstərən yetmişdən çox

hədis qeyd olunmuşdur. Məşhur əhli-sünnə kitabı "Şəvahid ət-tənzil"də bu haqda məşhur əhli-sünnə kitablarından yüz otuzdan çox hədis qeyd olunmuşdur.

Hər halda ayə Peyğəmbərin (s) həyat yoldaşlarına şamil olmur. Çünki onlar bəzən günah edirdilər. "Təhrim" surəsində oxuyuruq ki, Peyğəmbər (s) həyat yoldaşlarından bəzilərinə sir gəldi, amma onlar sirri saxlamadılar, başqasına dedilər. Quran bu əməli günah adlandıraraq buyurur: *"Əgər ikiniz də (bu hərəkətinizə görə) Allaha tövbə etsəniz (çox yaxşı olar). Çünki (Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə) qəlbləriniz (onun barəsində bir qədər qeyri-səmimiliyə, günaha) meyl etdi"*[1]

Peyğəmbərin (s) həyat yoldaşı olmuş Aişə həzrət Əliyə (ə) qarşı Cəməl savaşına rəhbərlik etdi və sonra peşman oldu. Bir halda ki, bu döyüşdə çoxlu sayda müsəlman qanı axıdıldı.

İradlara cavab

1. "يُطَهِّرَكُم" (yutəhhirəkum) ifadəsi Əhli-beytin (ə) çirkinliyə bulaşdığını, Allahın isə onları paklamaq istədiyini göstərmirmi?

1 Təhrim-4

Cavab: Paklanmanın şərti çirklənmək deyil. Çünki Quran cənnət huriləri haqqında heç bir çirkinlikləri olmadığı halda "مطهرة" (mütəhhərə) – "paklanmış" sözünü işlətmişdir. Başqa sözlə "يُطَهِّرَكُم" (yutəhhirəkum) öncəki çirkinlikdən paklamaq yox, pak saxlamaqdır.

2. Əgər Əhli-beyt sözügedən beş nəfərdirsə, nə üçün bu cümlə Peyğəmbərin (s) həyat yoldaşları ilə bağlı ayənin arasında yer almışdır?

Cavab:

A) "إِنَّمَا يُرِيدُ اللَّهُ..." cümləsi ayrıca nazil olmuş, lakin Quran toplanarkən burada yerləşdirilmişdir.

B) "Məcmə əl-bəyan" təfsirinə görə, ərəb fəsihlərinin, şairlərinin, ədiblərinin ənənəsi bu olmuşdur ki, adi mətləblərin arasında yeni və önəmli məsələdən söhbət açırlar ki, təsiri daha çox olsun. Necə ki, televiziyanın xəbərlər proqramında aparıcı "indi daxil olan bir xəbəri diqqətinizə çatdırıram desə, bu dinləyicilərdə psixoloji və təbliğat baxımından bir şok effekti yaradır.

Bu ayənin digər bir bənzəri də "Maidə" surəsinin 3-cü ayəsidir. Ayədə vilayət, imamət, dinin kamilləşməsi, nemətin tamamlanması, kafirlərin məyusluğu və Allahın razılığı kimi

məsələlər donuz əti və qan haqqında şəriət hökmləri ilə yanaşı verilmişdir. Bu növ yerləşdirmələr Quranın təhrifdən qorunmasının sirridir. Necə ki bəzən qadınlar evdən çıxarkən qızıl və digər zinət əşyalarını mütəkkənin pambıqlarının arasında gizlədirlər. Qızılla pambığın bir əlaqəsi olmasa da onu oğrulardan qorumaq üçün oraya yerləşdirirlər.

C) Peyğəmbərin (s) həyat yoldaşlarına tövsiyələr verdiyi halda birdən buyurur: "Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" Yəni ey Peyğəmbər xanımları! Siz elə bir evdəsiniz ki, o evdə məsumlar (ə) var. Mütləq təqvalı olmalısınız.

D) Əhli-beyt haqqında kişi cinsinə aid cəm əvəzliyi işlənmişdir. Bu əksəriyyətin kişilər olmasını göstərir. Ayənin Peyğəmbərin (s) xanımlarına aid hissəsində isə qadın cinsinə aid cəm əvəzliklərdən istifadə edilmişdir

"﴿بيوتكن", "اقمن" – "عنكم", "يطهركم﴾"

Layiq olub-olmamaq haqqında

Allah-Taala "Hud" surəsinin 46-cı ayəsində Nuhun (ə) oğlunun ailədən olmamasını bəyan edir: *"(Allah) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyildir"*. Peyğəmbərdən (s) bizə çoxlu rəvayətlər gəlib çatmışdır ki, bu sözlərlə başlayır: (ləysə

minna), yəni “bizdən deyil”. O cümlədən bir hədisdə buyurur: “Müsəlmana xəyanət edən bizdən deyil”. Yaxud, buyurur: “İnsanlara qorxusundan hörmət edən məndən deyil”. Digər bir hədisdə deyilir: “Hər səhər yuxudan qalxarkən müsəlmanlara xidmət haqqında düşünməyən kəs müsəlman deyil”.

Rəvayətlərdə oxuyuruq: “Həqiqətən, Peyğəmbərin (s) dostu o kəsdir ki, onunla qohumluğu olmasa belə, Allaha müti olsun. Peyğəmbərin (s) düşməni o kəsdir ki, o həzrətin (s) yaxını olsa belə, Allaha asi olsun”.

19-cu dərs: Əhli-beyt (ə) sevgisi

Risalətin mükafatı

﴿قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ ۗ وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا ۚ إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ﴾

De: "Mən sizdən bunun (risalətimin) müqabilində qohumlarıma məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm". [1]

Quranda dəfələrlə peyğəmbərlərin (ə) xalqdan muzd, əvəz istəmədikləri haqqında söhbət açılmışdır. "Şuəra" surəsində (ayə: 100-180) bu mətləb müxtəlif peyğəmbərlərin dilindən təkrarlanmışdır. İslam peyğəmbəri (s) də ümmətindən maddi muzd tələb etməmişdir. Lakin iki dəfə Allah tərəfindən (De) ifadəsi ilə insanların öz xeyrinə onlardan mənəvi muzd tələb etmişdir. Bu mənəvi muzd da iki ibarə ilə ifadə edilmişdir. Bir ayədə: *De: "Mən sizdən buna*

1 Şura-23

(dini təbliğ etməyə) görə heç bir muzd (əvəz) istəmirəm, ancaq Rəbbinə tərəf doğru yol tapmaq diləyən kimsələr istəyirəm"[1] buyurmuşdur. Digər ayədə deyilir: *De: "Mən sizdən bunun (risalətimin) müqabilində qohumlarıma məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm".* [2] "Səba" surəsinin 47-ci ayəsində isə sevgi istəyinin insanların özlərinin xeyrinə olduğunu bildirir: *De: "Mən sizdən bir haqq istəmişəmsə, onu sizin üçün istəmişəm. Mənim haqqım ancaq Allahdan olacaqdır. O, hər şeyə Şahiddir".*

Demək, Peyğəmbər (s) bildirir, əgər mən sizdən muzd istəyirəmsə də, Əhli-beytimə (ə) sevgi istəyirəmsə də, bu sevgi sizin xeyrinizədir. Kim Peyğəmbərin (s) məsum Əhli-beytinə (ə) rəğbət bəsləsə, onların ardınca gedər. *De: "Mən sizdən buna (dini təbliğ etməyə) görə heç bir muzd (əvəz) istəmirəm, ancaq Rəbbinə tərəf doğru yol tapmaq diləyən kimsələr istəyirəm"* [3] . Sanki bir müəllim şagirdlərinə "mən sizdən heç bir muzd istəmirəm, sadəcə dərslərinizi yaxşı oxuyun", deyir. Bu, şagirdlərin öz xeyrinədir. Demək, risalətin muzdu (əvəzi) iki şeydir: biri Allah yolunu seçmək, digəri isə qohumlara (Əhli-

1 Furqan-57
2 Şura-23
3 Furqan-57

beytə) sevgi. Maraqlı burasıdır ki, hər ikisində "إِلَّا" sözü işlənmişdir. Yəni, mənim muzdum yalnız bunlardır.

Azacıq nəzər saldıqda görürük ki, Allahın yolu və Əhli-beyt sevgisi eynidir. Çünki ayrı olsa, ziddiyyət yaranır. Yəni, bir yerdə "mən yalnız yayda mütaliə edirəm", digər bir yerdə "mən yalnız qışda mütaliə edirəm" demək olmaz. Çünki müstəsna bir olmalıdır.

İslam peyğəmbəri (s) bir dəfə Allah tərəfindən əmr alır ki, insanlara desin: "Mənim muzdum yalnız Allah yolunu seçməkdir". Növbəti dəfə əmr alır ki, desin: "Mənim muzdum yalnız qohumlara (Əhli-beytə) sevgidir. Əslində bu iki istək eyni olmalıdır. Yəni, Allah yolu elə qohumlara sevgidir. Digər tərəfdən sevgi iki şeylə yanaşıdır. Biri tanımaq və bilməkdir. Çünki insan tanımasa sevgi, eşq bəsləyə bilməz. Digəri isə itaət və tabeçilikdir. Çünki tabeçilik olmadan sevmək bir növ təzahür, riyakarlıq, yalan və yaltaqlıqdır. Demək, Əhli-beytdən (ə) qeyrisindən göstəriş alanlar Allah yolunu getmirlər. Bu, Quranın baxışıdır.

Əqli baxımdan isə muzd əmələ bərabər olmalıdır. Risalətin onun davamı olan imamətdən başqa bərabəri yoxdur. Risalətin muzdu hidayətin davam etməsidir. Bir

məsumun muzdu işi digər məsuma həvalə etməkdir. Ədalətli birinin muzdu onun zəhmətlərinin başqa bir ədalətli insana həvalə olunmasıdır.

Ağıl deyir ki, lütf olduğu müddətcə təşəkkür də olmalıdır. Biz islama hidayət olunmuşuq və risalətin muzdunu ödəməliyik. Əgər risalətin muzdu "qohumlara sevgi"dirsə, bu gün də seviləcək, itaət olunacaq "qohumlar" olmalıdır. Bəli, bu gün də İmam Mehdiyə (ə) sevgi bəsləməli, ona müti olmalıyıq. Deyə bilmərik ki, islamın erkən çağlarında yaşayan müsəlmanlara risalətin muzdunu ödəmək vacib idi, bugünkü müsəlmanlara isə yox. Yaxud o dövrdə "qohumlar" var idi, bu gün isə yoxdur ki, müsəlmanlar risalətin muzdunu ödəsinlər. Əlbəttə, qeyb dövründə həzrət Mehdiyə (ə) sevgi onun ismarışlarına əməl etmək, onun bizə tapşırdıqlarının, yəni ədalətli və nəfsani həvəslərdən uzaq, fəqihlərin yolundan getməkdir.

İnsan zəkası milyonlarla insanı hidayət edən, böyük ilahi səadətə qovuşduran Peyğəmbərin (s) "qohumlar"ına sevginin risalətin əvəzi olmasından anlayır ki, "qohumlar", sevgisi tələb olunanlar ən üstün və məsum insanlardırlar. Çünki heç vaxt günahlar birinin sevgisi

peyğəmbərliyin əvəzi və muzdu ola bilməz. İnanmaq olmaz ki, bir qrup günahkar insanın sevgisi tarix boyu bütün dünya müsəlmanlarına vacib olsun. (Şiəlikdən başqa) heç bir müsəlman sektası öz rəhbərini məsum hesab etmir. Heç bir fərd və ya qrup bu günədək nə imamların (ə) bir günahını nəql etmiş, nə də o böyük şəxsiyyətlərinin bir müəlliminin adını yazmışlar.

Ağıl deyir ki, bəşəriyyətin əlini qeyri-məsumun əlinə vermək nəinki insanlığa, hətta bütün varlığa zülmdür. Çünki varlıq insan üçün, (*"sizin üçün yaratdı"*, *"sizin xidmətinizə verdi"*, *"(Bu nemətlər)sizin faydalanmanız (istifadəniz) üçündür"* kimi ayələr göstərir ki, varlıq aləmi insan üçün yaradılıb) insan isə gerçək və mənəvi təkamül üçün yaradılmışdır. O zaman onu, bu qədər yüksək məqsədlərlə yaradılmış insanı qeyri-məsum birinə tapşırmaq, ona və varlıq aləminə zülm deyilmi?

Rəvayətlərdə məsum öndərlərlə bağlı qeyd olunan bir çox məsələlər də bu məqsədi daşıyır. Misal üçün, bir hədisdə vilayət (imamət) dinin özülü olaraq keçir. "İslam beş şey üzərində qurulmuşdur: ... və vilayət".[1] Yaxud, bir hədisə görə İmam Əlinin (ə) cənnət və cəhənnəm

1 Kafi c. 2 s. 18

insanlar arasında bölməsindən söhbət açılır. "Cənnət və cəhənnəmi bölən".[1] Bəzi hədislərə görə, vilayətsiz namaz məqbul deyil.[2] Əhli-beyt (ə) sevgisi "yaxşılıq"dır.[3] Onları ziyarət etmək və onlara təvəssül etmək tövsiyə olunur.

Böyük əhli-sünnə alimləri Zəməxşəri və Fəxr Razi təfsir əsərlərində Peyğəmbərin (s) belə buyurduğunu nəql edirlər:

"Məhəmməd Əhli-beytini sevərək ölən, şəhid olaraq ölür".

"Məhəmməd Əhli-beytini sevərək ölən, tövbə edərək ölmüşdür".

"Məhəmməd Əhli-beytini sevərək ölən, dünyadan kamil imanla getmişdir".

"Məhəmməd Əhli-beytini sevərək ölən, dünyadan Peyğəmbər sünnəsinə uyğun şəkildə köçmüşdür".

İndi belə bir sual yaranır ki, itaətsiz sevgi şəhadətə, məğfirətə, kamil imana bərabər ola bilərmi?

Elə həmin təfsirlərdə də yuxarıdakı ayəni şərh edərkən Peyğəmbərin (s) belə bir hədisi qeyd olunur: Kim Məhəmməd Əhli-beytinə kin bəsləyərək dünyadan köçsə, qiyamət günü

1 Biharul-ənvar c.7 s. 186
2 Biharul-ənvar c.27 s. 167
3 Biharul-ənvar c.43 s. 362

alnına "o, Allahın rəhmətindən məyus və məhrumdur" yazılaraq gələcək".

"Məhəmməd Əhli-beytinə kin bəsləyərək ölən, cənnət qoxusunu duymayacaq".

Fəxr Razi öz təfsir əsərində yazır: Bu ayə (Məvəddət ayəsi) nazil olanda həzrət peyğəmbərdən (s) soruşdular: "Qohumlar kimdir ki, onların sevgisi bizə vacib edilmişdir?" Həzrət (s) buyurdu: "Onlar Əli, Fatimə və övladlarıdır". Sonra yazır ki, Peyğəmbər (s) əlavə etdi: "Fatimə mənim bir parçamdır. Onu incidən məni incitmişdir. Allahın elçisini incidənlərin cəzası isə Quranda aydın bildirilir: *"Şübhə yoxdur ki, Allahı və Onun Elçisini incidənləri Allah həm bu dünyada, həm də Axirətdə lənətləmiş və onlara alçaldıcı bir əzab hazırlamışdır"*[1]

Bir hədisdə İmam Həsənin (ə) *"Kim bir yaxşılıq etsə, onun savabını artırarıq"* [2] ayəsi haqqında buyurur: "Yaxşılıq etməkdə məqsəd Əhli-beyt (ə) sevgisidir".[3]

1 Əhzab-57
2 Şura-23
3 Nümunə ilə Safi təfsirləri

20-ci dərs: İmamət və vilayət

İslam peyğəmbərinin (s) son missiyası

﴿أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ﴾

"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə (İmam Əlinin (ə) vilayəti və canişinliyi haqqında) nazil ediləni çatdır. Əgər (bunu) etməsən, (Allahın) risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"[1]

Bütün Quranda yalnız bu ayədə Peyğəmbər (s) ismarışı gizlətməklə bağlı təhdid edilmiş, demədiyi təqdirdə 23 il ərzində gördüyü işlərin hədərə gedəcəyi bildirilmişdir.

Həzrət Peyğəmbər (s) İmam Əliyə (ə) buyurur: "Sənin vilayətin (canişinliyin) haqqında

1 Maidə-67

olanları xalqa çatdırmasam, bütün əməllərim tələf olacaqdır".

Bu ayədə bir neçə istiqamət vardır ki, onun mənasını aydınlaşdırır:

1. "Maidə" surəsi Peyğəmbərin (s) ömrünün sonlarında nazil olmuşdur.

2. Bu ayədə "Ey Allahın nəbisi!" əvəzinə "Ey Allahın rəsulu!" ifadəsi işlənmişdir ki, çox önəmli bir risalət olduğunu göstərir.

3. "Əbliğ" əmri əvəzində "Bəlliğ" əmri gəlmişdir ki, qəti, rəsmi və önəmli məsələnin şatdırılmasından söhbət getdiyini göstərir.

4. Peyğəmbər (s) önəmli bir xəbəri çatdırmaqla bağlı təhdid olunmuş və çatdırmadığı təqdirdə bütün zəhmətinin hədər gedəcəyi bildirilmişdir.

5. Peyğəmbər (s) öz canından qorxmur. Çünki bir zamanlar təkbaşına bütlərə qarşı mübarizə apardıqda, müşriklərlə hərbi çəkişmələrdə təhlükələrdən çəkinmirdi. (Daşa basılanda, əshabələrinə işgəncə veriləndə qorxmurdu, indi bu qədər fədaisinin içindəmi qorxacaqdı?)

6. Ayə tövhid, nübüvvət və ya məad haqqında deyil. Çünki bu prinsiplər besətin ilk günlərində, hələ Məkkədə ikən bəyan olunmuşdu və o həzrətin (s) ömrünün sonunda bu qədər israra ehtiyac yox idi.

7. Ayə namaz, oruc, həcc, zəkat, xüms və

cihad haqqında da deyil. Çünki bunlar 23 il boyunca bəyan olunmuş, insanlar onlara əməl etmişlər və onlarla bağlı hər hansı bir qorxu yox idi.

8. Bütün şiə və bəzi əhli-sünnə təfsirçiləri ayənin nazil olma səbəblərindən biri kimi İmam Əlinin (ə) imamlığı və canişinliyini göstərmiş və bildirmişlər ki, bu hadisə hicrətin 10-cu ilində, zilhiccə ayının 18-də

Peyğəmbərin (s) "Vida həcci" zamanı baş vermiş, həzrət (s) orada "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" hədisini buyurmuş və ümməti sərgərdanlıqdan xilas etmişdir.

İmam Baqir (ə) buyurmuşdur: "İslam beş şey üzərində qurulmuşdu: Namaz, zəkat, oruc, həcc və vilayət (Əhli-beytin vilayəti). Heç bir şey vilayət qədər önəmli deyildi. Lakin insanlar dördünü qəbul edib, vilayəti tərk etdilər".

Vilayət, kamillik və risalətin tamamlanması

﴿الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ فَلَا تَخْشَوْهُمْ وَاخْشَوْنِ ۚ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا﴾

"Bu gün (İmam Əlinin (ə) canişinliyə təyin olunduğu gün) kafirlər (sizin) dininizdən (dininizi məhv etməkdən) əllərini üzdülər (ümidsiz oldular). Onlardan qorxmayın, Məndən

qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim" [1]

Şiə və əhli-sünnə rəvayətlərinə görə, ayənin "bu gün kamil etdim ..." hissəsi Qədir-Xumda Əli ibn Əbu Talibi (ə) imam olaraq təyin edərkən nazil olmuşdur.

Bunu təsdiq edən ənənəvi (nəqli) dəlillərdən başqa, əqli təhlillər də onu təsdiq edir. Çünki onunla bağlı dörd çox mühüm xüsusiyyət bəyan olunmuşdu: 1) Kafirlərin məyus olduğu gün; 2) Dinin kamil edildiyi gün; 3) İlahi nemətin tamamlandığı gün; 4) İslamın mükəmməl bir din olaraq Allah tərəfindən bəyənilməsi. İslam tarixində hicrət, Məkkənin fəthi, döyüşlərdə qələbə və s. heç bir mühüm tarixi gün yoxdur ki, bu ayədə olan dörd əsas xüsusiyyətə malik olsun. Demək, ayədə sözügedən dörd xüsusiyyət yalnız Qədir-Xum gününə uyğundur.

* Kafirlər ona görə məyus oldular ki, Peyğəmbərə (s) qarşı ittihamlar, savaşlar, sui-qəsdlər nəticəsiz qalmışdı. Ümidləri yalnız Peyğəmbərin (s) ömrünün sona yetməsi idi. Əli ibn Əbu Talibi (ə) canişin təyin olunması hər kəsə anlatdı ki, onun ölümü ilə din məhv

1 Maidə-3

olmayacaq. Çünki Əli ibn Əbu Talib (ə) kimi bir şəxsiyyət islam ümmətinin rəhbəri olacaq. Məhz bu zaman bütün kafirlər məyus oldular.

* Din ona görə kamil oldu ki, əgər mükəmməl qayda-qanunlar nəzərdə tutulsa, lakin ümmət və cəmiyyət üçün məsum, ideal rəhbər təyin olunmasa, qayda-qanunlar naqis qalır.

* Nemət ona görə tamamlandı ki, Quran ən böyük nemətin rəhbərlik və hidayət neməti olduğunu bildirir. Əgər Peyğəmbər (s) dünyasını dəyişsə, insanları başsız, qəyyumsuz buraxsa, ümmətə bir çobanın sürüyə rəva görmədiyini görmüş olacaq. İlahi rəhbər təyin olunmadan nemət necə tamam ola bilər?

* Allahın razı olması ona görədir ki, mükəmməl qanun və ədalətli icraçı qovuşsa, Allahın razılığı meydana gəlir.

Məhz buna görə də (dinin kamilləşməsi, nemətin tamamlanması, Allahın razılığı və kafirlərin məyusluğu) Əhli-beyt (ə) hədislərində Qədir-Xum ən böyük bayramlardan biri hesab olunmuşdur.

Əşyaların nəticələri bəzən onun bütün hissələrinin toplanması ilə meydana çıxır. Məsələn, orucda olduğu kimi. Əgər azandan bir saniyə qabaq pozsaq da batil olur. Buna görə də "tamam" ifadəsi işlənmişdir. ("Gecəyədək

orucunuzu tamamlayın" – "Bəqərə", 187). Bəzən hər bir hissənin öz nəticəsi olur. Quran ayələrinin tilavəti bu qəbildəndir. Kamil olması hamısının oxunması ilə gerçəkləşir və nə qədər oxunsa savabdır. Bəzən hissələrdən biri olmasa, bütöv bir toplu qüsurlu, naqis olacaq. Məsələn, pilot və sürücü belədir. Onlar olmadan təyyarə və ya maşın faydasızdır. İlahi rəhbərlik də belədir. İnsan və Allah arasında bağ yaratdığı üçün, o olmadan yaradılmışlar və nemətlər əzaba çevrilir, insanı Allaha qovuşdurmur.

"Vilayət" kimə məxsusdur?

﴿إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ﴾

"Sizin qəyyumunuz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər"[1]

Bu ayənin nazil olma səbəbi ilə bağlı şiə və əhli-sünnə qaynaqlarında deyilir: Bir gün ehtiyaclı bir yoxsul Peyğəmbər (s) məscidinə daxil oldu və oradakı insanlardan yardım istədi. Kimsə ona bir şey vermədi. Həzrət Əli (ə) namaz qılırdı və rükuda idi. O halda üzüyünü yoxsula

1 Maidə-55

verdi. Bu bəxşişi alqışlamaq üçün yuxarıdakı ayə nazil oldu.[1]

İslam peyğəmbəri (s) Qədir-Xumda İmam Əlinin (ə) məqamını bəyan etmək üçün bu ayəni tilavət edir. O həzrət (ə) özü də özünün haqq olmasını sübut etmək üçün dəfələrlə bu ayəyə istinad etmişdir.

Bəli, ən yaxşı təqdimat odur ki, şəxsin xüsusiyyətləri, özəllikləri deyilsin, dinləyicilər özləri onun kim olduğunu anlasınlar (Ayədə İmam Əlinin (ə) adı çəkilmədən onun gördüyü işdən, xüsusiyyətindən söhbət açılır).

Vilayəti-fəqih məsum imamın vilayətinin davamıdır. Ömər ibn Hənzələnin İmam Sadiqdən nəql etdiyi bir hədisdə oxuyuruq: "Bizim hədisimizi söyləyənə, halal və haramımıza nəzər yetirənə, ehkamımızı bilənə baxın. Onun hakimiyyətinə razı olun. Mən onu sizə hakim təyin etdim".

1 ƏL Ğədir c. 2 s. 52/ Ehqaqul-haq c. 2 s. 400

21-ci dərs:İmam Zaman (əc.)

Allahın yer üzündə canişinləri

﴿وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنْكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُمْ فِي الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِنْ قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَىٰ لَهُمْ وَلَيُبَدِّلَنَّهُمْ مِنْ بَعْدِ خَوْفِهِمْ أَمْنًا ۚ يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا ۚ وَمَنْ كَفَرَ بَعْدَ ذَٰلِكَ فَأُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ﴾

“Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini onlar (möminlər) üçün onların Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir!” [1]

1 Maidə-55

Məsum imamlardan nəql olunan bir çox rəvayətlərdə oxuyuruq ki, bu ayənin bariz nümunəsi həzrət Mehdinin (əc.) hakimiyyət günüdür.

Quranda dəfələrlə salehlərin hakimiyyəti haqqında söhbət açılmışdır. O cümlədən üç dəfə buyurmuşdur:

"onu (islamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün" [1]

"Yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar"[2]

"(Gözəl) aqibət müttəqilərindir"[3]

Ayədə sözü keçən möminlərin canişinliyində məqsəd Allahın, ya da keçmiş qövmlərin canişinliyidir.

Qurtubi öz təfsir əsərində islamın tam qələbəsi ilə bağlı bir neçə hədis nəql edərək deyir: "Yer üzündə islamın daxil olmadığı ev qalmayacaqdır".

Həzrət Peyğəmbər (s) son Həcc mərasimində Məkkədən qayıdarkən Qədir-Xumda Allahın əmri ilə Əli ibn Əbu Talibi (ə) öz canişini təyin etdi. Ayə nazil oldu və *"bir din olaraq sizin üçün İslamı bəyənib seçdim"* – buyurdu. Bu ayədə də

1 Tövbə-33
2 Ənbiya-105
3 Əraf-128

Allah bəyəndiyi dinin qələbə çalacağını vəd edir: *"Möminlər üçün onların Öz bəyəndiyi dinini möhkəmləndirəcək "*.[1] Allahın bəyəndiyi və elan edilən din Qədir-Xum məktəbidir.

Bu ayənin ismarışları aşağıdakılardır:

1. İslam dünyanın gələcək dinidir. Tarixin gələcəyi möminlərin xeyrinə, kafirlərin hakimiyyətinin məğlubiyyətinə doğru gedir. *"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini onlar (möminlər) üçün onların Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd buyurmuşdur".*

2. Məhrum möminlərə ümid verin ki, təzyiq və çətinliklər onları məyus etməsin. *"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə ... vəd buyurmuşdur".*

3. Geniş haqq hakimiyyətini ələ keçirməyin yeganə yolu yalnız iman və saleh əməldir. *"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə ...".* Qələbə vədi yalnız iman əhlinə yox, iman əhli olub yaxşı işlər görənlərə vəd edilmişdir.

4. Din siyasətdən ayrı deyil. Əksinə, siyasət və

1 Nur-55

hökumət dini qorumaq üçündür. *"yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini ... vəd buyurmuşdur".*

5. İnsanları hidayət etməkdə, dini onlara təbliğ etməkdə onların inanması üçün faydalı tarixi nümunələr göstərir. *"Özlərindən əvvəlkiləri varis etdiyi kimi".*

6. Haqq əhlinin yekun qələbəsi ilahi bir ənənədir. *"Özlərindən əvvəlkiləri varis etdiyi kimi".*

7. İman əhlinin qələbəsində, hakimiyyətində məqsəd ilahi dinin yer üzündə möhkəmlənməsi, tövhidə və ideal təhlükəsizliyə qovuşmaqdır. *"Onlar (möminlər) Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd buyurmuşdur".*

8. İslam dini Allahın razı olduğu yeganə dindir. *"Onlar (möminlər) Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) ... vəd buyurmuşdur".*

9. Həqiqi təhlükəsizlik yalnız din hakimiyyəti ilə gerçəkləşə bilər. *"Və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd buyurmuşdur".*

10.Salehlərin hakimiyyətində də yolunu azanlar olacaqdır. *"Bundan sonra küfr edənlər,*

şübhəsiz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir!"

"Bəqiyyətullah"

Hədislərdə Allahın iradəsilə bəşəriyyətə qalan hər bir mübarək vücud "bəqiyyətullah" adlanır. O cümlədən, döyüşlərdə qələbə çalıb geri dönən əsgərlər də Allahın iradəsi ilə (sağ) qaldıqları üçün "bəqiyyətullah" adlanırlar.

İmam Zamana (əc.) da "Bəqiyyətullah" deyirlər. Çünki onun mübarək vücudu Allahın iradəsi ilə bəşəriyyətin hidayəti üçün qalıb və saxlanılıb.

Hədislərdə oxuyuruq ki, o həzrətin mübarək adlarından biri "Bəqiyyətullah"dır və biz ona bu adı ilə salam veririk. "Əssəlamu ələykə ya bəqiyyətəllahi fi ərzihi" (Ey Allahın yer üzündə saxladığı, salam olsun sənə).

O həzrət (əc.) Məkkədə zühur edəndə "Hud" surəsinin 87-ci ayəsini *"Əgər möminsinizsə, (bilin ki,) Allahın saxladığı sizin üçün daha xeyirlidir"* oxuyacaq və mən "Bəqiyyətullah"am (Allahın saxladığıyam) deyəcək. Əlbəttə, digər məsumlara da "Bəqiyyətullah" ləqəbi verilmişdir.

22-ci dərs:Şəfaət

Şəfaət və onun şərtləri

﴿يَوۡمَئِذٖ لَّا تَنفَعُ ٱلشَّفَٰعَةُ إِلَّا مَنۡ أَذِنَ لَهُ ٱلرَّحۡمَٰنُ وَرَضِيَ لَهُۥ قَوۡلٗا﴾

"O gün Rəhmanın (Allahın) izn verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir"[1]

Şəfaətin inkarı Quran və hədislərə zidd, günahkar möminlərin məyusluğuna səbəb olduğu, qeyd-şərtsiz qəbulu isə günahkarların cürətlənməsinə, ilahi ədalətin əksinə olduğu üçün, Quran şəfaətlə bağlı müəyyən qayda-qanunlar nəzərdə tutmuşdur.

Qurana görə, şəfaət günahkarların ümid pəncərəsi, onların ilahi övliyalarla əlaqə və onlara itaət vasitəsidir.

Şəfaət Allahın iznidir. Şəfaətə layiq olanlar tövhid yolunda olanlar, doğru məntiqə, haqq

1 Taha-109

inanclara əsaslanan, sözləri Allah tərəfindən qəbul olunanlardırlar. Onları şəhadəti (Allahın varlığına və Məhəmmədin (s) onun elçisi olmasını iqrar etmələri) müvəqqəti, mövsümi, ikrahla, dilucu, istehza və nifaqla deyil. Məhz bu halda əməldə çatışmazlıqları olsa, şəfaət onların köməyinə gələr. Buna görə də Quran bütlərin bütpərəstləri şəfaət edəcəyini dünya və axirətdə batil hesab edir.

Şəfaətin mənası həzrət İsanın (ə) tərəfdarlarının günahdan arınması üçün fəda olması deyil. Yaxud İmam Hüseynin (ə) şiələrin şəfaəti üçün şəhid olması məqbul deyil. İmamın (ə) qiyamət günü ən böyük şəfaətçilərdən biri olmasına baxmayaraq, onun şəhid olmasının məqsədi tərəfdarlarının şəfaət olunması deyildi.

İmam Baqir (ə) bu ayə haqqında buyurur: "Peyğəmbərin (s) şəfaəti yalnız əməl və danışıq baxımından məqbul olanlara, Əhli-beytə (ə) sevgi bəsləyənlərə və bu sevgi ilə dünyasını dəyişənlərə aiddir.[1]

Şəfaət edənlər və şəfaət olunanlar

﴿وَكَمْ مِنْ مَلَكٍ فِي السَّمَاوَاتِ لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِنْ بَعْدِ أَنْ يَأْذَنَ اللَّهُ لِمَنْ يَشَاءُ وَيَرْضَى﴾

"Göylərdə neçə-neçə mələklər vardır ki,

1 Təvilul-ayat s. 304

onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa (heç kəsə) heç bir fayda verməz”[1]

“Odur ki, şəfaət edənlərin şəfaəti onlara fayda verməz”[2]

Quranda və hədislərdə oxuyuruq ki, Allah qiyamətdə bəzi insanlara şəfaət izni verəcək və onlar başqalarını şəfaət etmək hüququ qazanacaqlar.

İslam peyğəmbəri (s): Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə oxuyuruq: “Mən ilk şəfaətçiyəm”.[3] Yəni, öz ümmətimi şəfaət edən ilk şəxs mən özüm olacağam.

Quran: İmam Əli (ə) buyurur: “Qiyamət günü Quran şəfaət edənlərdən olacaq”.[4]

Peyğəmbərlər: Hədislərdə deyilir ki, peyğəmbərlər (ə) qiyamət günü şəfaət edəcəklər.[5]

Məsum imamlar və həqiqi şiələr: İmamlardan nəql olunan bir hədisdə oxuyuruq: “Qiyamət günü şəfaət bizə və şiələrimizə məxsus

1 Nəcm-26
2 Muddəssir-48
3 Səhih Muslim c. 2 s. 130
4 Nəhcül-bəlağə-xütbə 176
5 Müsnədi Əməd c. 3 s. 12

olacaqdır.[1]

Mələklər və şəhidlər: Qiyamət günü mələklərə və şəhidlərə də istədikləri adamı şəfaət etməyə icazə veriləcəkdir. [2] Qiyamətdə hər şəhid öz ailəsindən yetmiş nəfəri şəfaət edəcəkdir.[3]

İbadət. Qiyamət günü şəfaətçilərdən biri də bəndələrin ibadətliridir. Hədisdə deyilir: "Oruc və Quran qiyamət günü bəndə üçün şəfaətçi olacaqlar".[4]

Şəfaət olunanların şərtləri

Quran və hədislərə görə, yalnız aşağıdakı xüsusiyyətlərə malik olanlar şəfaət oluna bilərlər:

A) İman əhli, namaz qılan və Allah yolunda xərcləyənlər. Ömürlərini boşuna keçirməyənlər.

"Odur ki, şəfaət edənlərin şəfaəti onlara fayda verməz"[5]

B) Allah onların şəfaətinə izn vermiş olsun. *"Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət edə bilər?"*[6]

1 Xisal 624
2 Müsnədi Əməd c. 5 s. 43
3 Sunəni Əbu Davud c. 3 s. 15
4 Müsnədi Əməd c. 2 s. 178
5 Muddəssir-48
6 Bəqərə-255

C) Dünyadan imanla köçsünlər.

D) Şəfaətçi ilə şəfaət olunan arasında bir əlaqə olsun. Şəfaətçilərlə dini əlaqəsi olmayanlar şəfaət oluna bilməzlər.

Sual: Şəfaət bir növ ayrı-seçkilik deyilmi?

Cavab: Xeyr, əsla! Çünki birincisi, şəfaət olunan öz düşüncəsi və əməli ilə şəfaət ləyaqəti qazanmış olur. Odur ki, ayrı-seçkilikdən fərqli olaraq, şəfaətin ciddi qanunları var. İkincisi, şəfaətdə kiminsə haqqı tapdanmır. Ayrı-seçkilikdə isə kimlərinsə hüquqları tapdanır. Üçüncüsü, Şəfaət edənin şəfaət olunandan heç bir umacağı yoxdur. Ayrı-seçkilikdə isə bir iş görənin qarşı tərəfdən umacağı var. Dördüncüsü, şəfaət edənin məqsədi şəfaət olunanın nicat tapmasıdır. Ayrı-seçkilikdə isə məqsəd hansısa dünyəvi məqsədə çatmaqdır. Altıncısı, şəfaət tərbiyə və inkişaf vasitsilə gerçəkləşir. Çünki şəfaət olunan şəfaətçilərlə (ilahi övliyalarla) mənəvi əlaqə qurur.

Sual: Şəfaət insanların günaha rəğbətlənməsinə səbəb olmurmu?

Cavab: Qətiyyən! Çünki birincisi, kimin şəfaət edəcəyi bəlli deyil. İkincisi, zəhərlənmə əleyhinə hazırlanan dərman insanları zəhərlənməyə, zəhər içməyə həvəsləndirirmi?

23-cü dərs: Günah və itaətsizlik

Günahın növləri

﴿الَّذِينَ يَجْتَنِبُونَ كَبَائِرَ الْإِثْمِ وَالْفَوَاحِشَ إِلَّا اللَّمَمَ ۚ إِنَّ رَبَّكَ وَاسِعُ الْمَغْفِرَةِ﴾

"Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir."[1]

(Ərəb dilində) hər bir günaha "fahişə" deyilir. Məsələn, zina və s.

"Ləməm" sözü ilə bağlı müxtəlif mənalar nəql olunmuşdur:

1. İstəmədən, israrsız bir şəkildə baş verən günah;

2. Etmək qərarı verilən, lakin həyata keçməyən günah;

3. Etdikdən sonra tövbə edilən, bağışlanılması istənilən günah;

---

1 Nəcm-32

4. (Dini mətnlərdə) əzab vəd edilməyən günah;

5. Edilməzi üçün müəyyən həddi təyin olunmayan günah.

Allahın əmrinə qarşı çıxmaq nə olursa olsun böyükdür. Amma buna baxmayaraq, günahlar bir səviyyədə deyirlər. Yalan və qeybət kimi bəzi günahlar daha çirkindir və onları edənləri daha çox əzab gözləyir. Bundan başqa, günahın zamanı, məkanı, günahkarın məqsədi, onun günahı bilib-bilməməsi, günahda israrlı olub-olmamasıın da onda təsirlidir.

İmam Əli (ə) buyurmuşdur: "Ən pis günah insanın yüngül və kiçik saydığı günahdır".

İmam Rza (ə) böyük günahları aşağıdakı şəkildə sıralayır: insan qətlə yetirmək, zina, oğurluq, spirtli içkilər içmək, ağvalideynlik, döyüş meydanından qaçmaq, yetim malını zalımcasına mənimsəmək, leş əti yemək, qan içmək, donuz əti yemək, Allah adı ilə kəsilməyən heyvanın ətini yemək, sələmçilik, rüşvət almaq, qumar oynamaq, çəkidə aldatmaq, ismətli qadınlara böhtan atmaq, eynicinslilərin cinsi əlaqəyə girməsi, haqsız şahidlik, Allahın rəhmətindən məyus olmaq, özünü Allahın əzabından amanda hesab etmək, zalimlara yardım etmək və onlara arxalanmaq, yalan and

içmək, başqalarının haqqını verməmək, yalan danışmaq, təkəbbürlülük, israf, təbzir (ifrat israfçılıq), Həccə getməyə səhlənkarlıq etmək, Allah övliyalarına düşmən mövqedə olmaq, eyş-işrət işləri ilə məşğul olmaq, günahda israrlı olmaq.

Bəzi amillər və şərtlər kiçik günahları böyük günaha çevirir. Məsələn, kiçik günahları etməkdə israrlı olmaq, günahı yüngül saymaq, günah zamanı sevinc hissi keçirmək, günahı azğınlıqdan (qudurğanlıqdan) etmək, Allahın verdiyi möhlətdən qürurlanmaq, aşkara günah etmək, böyük şəxsiyyətlərin və görkəmli insanların günahları və s.

Günahın nəticələri

Günah və itaətsizlik ruha və psixikaya, fərdə, ailəyə və cəmiyyətə, məkan və zamana, nəslə və soya müəyyən təsirlər göstərir. Məsələn, vicdan əzabına (günah ağıla, fitrətə və vicdana ziddir), qəlbin daşlaşmasına, nemətin əldən alınmasına, duanın qəbul olunmamasına, ruzinin dəyişməsinə, Gecə namazı kimi bəzi (xüsusi) ibadətlərdən məhrum olmağa, qəfil müsibətlərin baş verməsinə, yağışın kəsilməsinə, evin xaraba qalmasına, rüsvayçılığa, ömrün azalmasına, yoxsulluğa, qəm-qüssəyə, xəstəliyə, şər

insanların hökmranlığına və s. səbəb olur ki, hədislərdə öz əksini tapmışdır.

Günahların qarşılığının ödənilməsi yolları

1. Tövbə etmək və pisliklərin qarşılığını ödəmək: "Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!"[1]

2. İman və yaxşı işlər: "İman gətirib yaxşı işlər görənlərin (əvvəlki) günahlarının üstünü örtər və onlara (dünyada) etdikləri əməllərdən daha gözəl (on qat artıq) mükafat verərik"[2]

3. Özləri və başqaları üçün bağışlanmaq diləmək: "Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər".[3]

4. Namaz: "Gündüzün iki başında (əvvəlində və axırında), və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib

1Furqan-70
2 Ənkabut-7
3 Nisa-64

aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır".[1]

5. Böyük günahlardan çəkinmək: "Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçər və sizi şərəfli bir keçidə (cənnətə) daxil edərik".[2]

6. Cihadda iştirak etmək və şəhidlik: "Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları (ağacları) altından çaylar axan cənnət bağlarına daxil edə-cəyəm".[3]

7. Allah yolunda xərcləmək və yoxsullara yardım etmək: "Gizlində verilən sədəqə günahların üstünü örtür (bağışlanmasına səbəb olur)".

8. Xalqın problemlərini aradan qaldırmaq: "Böyük günahların kəffarəsindən biri də köməyə ehtiyacı olanların dadına yetməkdir".

9. Salam vermək;

10.Yemək vermək;

11.Gecə namazı qılmaq. "(Günahların) üç kəffarə bunlardır: salam vermək, (acı) doyurmaq və hamı yuxuda ikən qalxıb (Gecə) namazı qılmaq).

1 Hud-114
2 Nisa-31
3 Ali-İmran-195

12.Məhəmməd və ailəsinə salavat göndərmək. (“Məhəmməd və ailəsinə (Əhli-beytə) salavat göndərmək günahları aradan qaldırır”).

İstiğfar

﴿وَالَّذِينَ جَاءُوا مِنْ بَعْدِهِمْ يَقُولُونَ رَبَّنَا اغْفِرْ لَنَا وَلِإِخْوَانِنَا الَّذِينَ سَبَقُونَا بِالْإِيمَانِ وَلَا تَجْعَلْ فِي قُلُوبِنَا غِلًّا لِلَّذِينَ آمَنُوا رَبَّنَا إِنَّكَ رَءُوفٌ رَحِيمٌ﴾

“(Səhabələrdən) sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!”[1]

İstiğfar (Allahdan bağışlanmaq istəmək) quyudan çıxmaq, tövbə isə hərəkət etməkdir. İstiğfar günahların yuyulması, ürəyin saflığına qovuşmasıdır.

Allahın peyğəmbərləri (ə) də istiğfar əhli idilər və insanlara da bunu tövsiyə edirdilər: “Allahdan əfv diləyin, sonra Ona tövbə edin”.

Həm özümüz istoğfar edək, həm də Allah övliyalarından bizim üçün istiğfar etmələrini istəyək. İslam peyğəmbəri (s) buyurmuşdur: “Mənim ölümüm də, sağlığım da sizin üçün xeyirlidir. Sağ olduğum müddətdə Allah

1 Həşr-10

üzərinizdən əzabını götürər, ölümümdən sonra isə əməllərinizi mənə təqdim etməklə və mənim sizin üçün istiğfar etməyimlə, əfv diləməyimlə xeyrə qovuşursunuz".

"Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər".[1]

Peyğəmbərin (s) möminlər haqqında duası qəbul olunduğu kimi, əməlisalehlərin və mələklərin duası və istəyi də keçərlidir. Bir ayədə mələklərin istiğfarından söz açılır: "Mələklər də Rəbbinə həmd ilə təriflər deyir və yerdəkilər üçün bağışlanma diləyirlər"[2] Digər bir ayədə isə möminlər üçün istiğfaar etdikləri bildirilir: "Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün də bağışlanma diləyirlər".[3]

Səmavi rəhbərləri ziyarət etmək, onların vasitəsilə yardım istəmək, təvəssül etmək Quran

1 Nisa-64
2 Şura-5
3 Ğafir-7

tərəfindən təsdiqlənir.

Əlbəttə, Peyğəmbər (s) günahı bağışlayan deyil. O, ilahi əfv vasitəsidir. Odur ki, günahkar öncə tutduğu əməldən peşman olmalı, Haqqa doğru qayıtmalı, sonra isə Allahla əlaqəsini möhkəmlətmək üçün risalət məqamından yardım almalıdır.

"Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir". [1]

Ayədə əzabın dəf edilməsində məqsəd Peyğəmbərin (s) mübarək vücudunun bərəkətindən ümumi olaraq müsəlmanlardan əzabın götürülməsidir. Məsələn, keçmiş ümmətlərin əzabları kimi. Yoxsa, müəyyən insanlar xüsusi şəraitdə əzaba ilahi məruz qalmışlar.

İtaətsizlik və bəzi günahlar işləmək bəla gəlməsinə və ilahi əzab göndərilməsinə səbəb olur. Onun qarşısının alınması yolu tövbədir. "Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək". "(Ölkə) əhalisi əməlisaleh olduğu bir halda, Rəbbin o ölkəni haqsız yerə məhv etməz". [2] Nə qədər ki, xalq

1 Ənfal-33
2 Hud-117

əməlisalehdir, Allah onları həlak etməz.

Hədislərdə qeyd olunur ki, Allah bəzi təmiz insanların, ilahi alimlərin (insanların arasında olduğu üçün) onlardan əzabı və çətinliyi dəf edir. Lut (ə) qövmünün məhv edilməsi hadisəsində, həzrət İbrahim (ə) əzab mələklərinə dedi: "Onların arasında Lut da var". Yəni, belə bir ilahi insanın o bölgədə olduğu bir halda oranı məhvmi ediləcəksiniz? Dedilər: "Biz bilirik ki, Lut oradadır. Ona oradan çıxmasını istəmişik".

Yaxud, həzrət Əli (ə) Peyğəmbər (s) dünyasını dəyişəndən sonra buyurdu: "İki amandan (təhlükəsizlikdən) biri bizim aramızdan getdi. Digər amanı, yəni istiğfarı qoruyun".

Yaxud, İmam Rza (ə) Zəkəriyya ibn Adəmə buyurur: "Qum (şəhərində) qal. Allah, İmam Kazıma (ə) görə Bağdad əhalisindən bəla və əzabı götürdüyünə görə, sənin varlığın vasitəsilə o şəhərdən bəlanı uzaq edər".

İstiğfar bəlanın qarşısını alır. Tövbə və istiğfarın Allah yanında xüsusi önəmi var. Belə ki, bir ümmətin taleyini də dəyişir. "Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək".

Günahkarlar məyus olmamalıdırlar. İstiğfar, tövbə və Allah övliyalarını ziyarət etmək onların (günahkarların) ruhunu yeniləyir. Əlbəttə,

istiğfarın müşrik və münafiqlərə bir faydası yoxdur: “(Ya Peyğəmbər!) Onlar (o münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsən də, yenə Allah onları bağışlamayacaq”. [1]

1 Tövbə-80

24-cü dərs:Tövbə

Quranda tövbə haqqında

﴿إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَأُولَٰئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلَا يُظْلَمُونَ شَيْئًا﴾

"Ancaq (Allaha) tövbə edib iman gətirənlər və xeyirxahlıq edənlərdən başqa! Onlar cənnətə daxil olacaq və heç bir haqsızlığa məruz qalmayacaqlar".[1]

Adətən Qurani-Kərim əzab ayələrindən sonra "tövbə edənlərdən başqa" və ya "tövbə edəndən başqa" kimi ifadələri qeyd etməklə islah yolunun kimsənin üzünə bağlı olmadığını göstərməyə çalışır.

* Tövbə etmək vacibdir. Çünki Allahın əmridir. "Allaha tövbə edin"[2]

* Tövbənin qəbul olunması qətidir. Çünki ola bilməz ki, biz Allahın əmri ilə tövbə edək, amma

1 Məryəm-60
2 Bəqərə-255

o, qəbul etməsin. “Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir” (“Tövbə”, 118) “Qullarının tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur”. (“Şura”, 25)

* Allah həm tövbəni qəbul edir, həm də çox tövbə edənləri sevir. “Şübhəsiz ki, Allah tövbə edənləri də sevir”. (“Bəqərə”, 222)

* Tövbə yaxşı əməllərlə, günahların əvəzini ödəməklə birgə olmalıdır. “Kim tövbə edib yaxşı iş görərsə, o, doğrudan da Allaha tərəf qayıtmış olar” (“Furqan”, 71). “Sizlərdən hər kəs avamlığı üzündən pis iş görsə, sonra tövbə edib (əməllərini) islah etsə, (Allah onu bağışlayar)” (“Ənam”, 54). “Yalnız tövbə edənlər (əməllərini) islah edənlər və (haqqı) bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm” (“Bəqərə”, 160).

* Tövbə nicat rəmzidir. “Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız” (“Nur”, 31).

* Tövbə pisliklərin yaxşılıqlara dönüşmə vasitəsidir. “Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər” (“Furqan”, 70)

* Tövbə yağış yağmasına və səmavi bərəkətin

enməsinə səbəb olur. “Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra da Ona tövbə edin ki, göydən sizə bolluca yağış yağdırsın və gücünüzü daha da artırsın” (“Hud”, 52).

* Tövbə gözəl ruzi səbəbidir. “Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin” (“Hud”, 3)

* Tövbə ölüm və əzab əlamətləri görülən zaman qəbul edilmir. “Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: “Mən indi tövbə etdim!” – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir” (“Nisa”, 18)

* Allah tövbəni qəbul etməkdən başqa tövbəkara xüsusi mərhəmət göstərir. “Doğrudan da O, tövbələri qəbul edəndir, Rəhmlidir” (“Bəqərə”, 37). “Hər kim haqsızlıq etdikdən sonra tövbə edib (əməllərini) islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Hə-qiqətən, Allah Bağışlayandır, Rəhmlidir” (“Maidə”, 5). “Sonra da onları bağışladı. Çünki (Allah) onlara (müsəlmanlara) qarşı Şəfqətlidir, Rəhmlidir“ (“Tövbə”, 117). “Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim Rəhmlidir, Sevəndir (həm də Seviləndir)

Bu ayələrdə tövbə ilə yanaşı ilahi mərhəmət, sevgi və lütfdən söhbət açılmışdır" ("Hud", 90).

* Qurana görə, tövbəni tərk etmək zülm və fəlakət hesab olunur. "Məhz tövbə etməyənlər zalımlardır" ("Hucurat", 11). "Sonra da tövbə etməmişlər, onlara Cəhənnəm əzabı və onları yandırıb-yaxacaq od əzabı hazırlanmışdır" ("Buruc", 10).

Bu ayələrdə tövbə ilə yanaşı ilahi mərhəmət, sevgi və lütfdən söhbət açılmışdır.

Tövbənin qəbul olunma şərtləri

"Nisa" surəsinin 17-ci ayəsi tövbənin qəbul olunma şərtlərinin bir hissəsinə işarə edir: "Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir."

Ayəyə görə tövbənin qəbul olunma şərtləri aşağıdakılardı:

A) Günah inad və küfr üzündən yox, onun nəticələrini bilmədən görülərsə, tövbə qəbul olunar;

B) Dərhal tövbə edilsə. Günah onu əhatə etməzdən öncə, onun xarakterinə çevrilmədən, yaxud ilahi əzab gəlmədən tövbə edilərsə, qəbul

olunar.

İmam Sadiq (ə) buyurur: "İnsanın işlədiyi hər günah bilərəkdən də olsa, əslində cahildir. Çünki özünü Allahın qəzəbi təhlükəsi ilə üz-üzə qoyur.

Əlbəttə, tövbə edən günahkar günah etməmiş kimi, anadan yeni doğulmuş körpə kimi tərtəmizdir.

Xilaskar tövbə

﴿فَلَوْلَا كَانَتْ قَرْيَةٌ آمَنَتْ فَنَفَعَهَا إِيمَانُهَا إِلَّا قَوْمَ يُونُسَ لَمَّا آمَنُوا كَشَفْنَا عَنْهُمْ عَذَابَ الْخِزْيِ فِي الْحَيَاةِ الدُّنْيَا وَمَتَّعْنَاهُمْ إِلَىٰ حِينٍ﴾

"(Əzab gəldiyi an,)Yunusun qövmündən başqa, iman gətirib imanı özünə fayda verən bir məmləkət (əhli) olubmu? (Yunusun)(qövmü) iman gətirəndə onlardan dünya həyatında rüsvayçılıq əzabını sovuşdurduq və onlara müəyyən vaxta qədər (fani nemətlərdən) faydalanmaq imkanı verdik". [1]

Təfsirlərə görə, həzrət Yunus (ə) uzun illər xalqı Allaha pərəstişə səslədi. Lakin onların arasından yalnız iki nəfər iman gətirdi. Onlardan biri abid, digəri isə hikmətli bir alim idi. Həzrət (ə) abidin təklifi ilə xalqı qarğıdı və onların arasından getdi. Amma bilmirdi ki, Allah bu işinə görə onun həyatını çətinləşdirəcək.

1 Yunus-98

O həzrət (ə) digər məntəqəyə getmək üçün gəmiyə mindi. Yolda gəminin yolu üstə nəhəng bir balıq çıxdı. Belə ki, gəminin batması an məsələsi idi. Gəmi sahibləri qərara aldılar ki, bu bəlanı dəf etmək üçün bir nəfəri dənizə atsınlar. Püşk atdılar. Həzrət Yunusun (ə) adı çıxdı. Onu dənizə atdılar. Nəhəng balıq onu uddu. Lakin ilahi əmr yeyib həzm etməsinə mane oldu.

Həzrət Yunus (ə) balığın qarnında, zülmət qaranlıqda öz zülmünü anladı və camaatın arasından yersiz çıxmasını bilib, onu etiraf etdi. Allah onun duasını qəbul etdi və onu xilas etdi O vaxtdan Yunus (ə) "Zun-nun" – Balıq sahibi ləqəbi ilə anıldı. "Ənbiya" surəsinin 87-88-ci ayələrində bu haqda ətraflı məlumat verilir.

Bir müddət sonra Yunus (ə) oraya geri qaytarıldı. Qövmünün həlak olmadığını görüb, səbəbini soruşdu. Olanları ona danışdılar. Mömin bilici əzab əlamətlərini gördükdə uca bir yerə çıxıb, xalqa xəbərdarlıq etdi. Xalq təsirləndi. Onun bələdçiliyi ilə tövbə etmək üçün şəhərdən çıxıb, özləri və övladları arasında fasilə saldılar. Allah da onları bağışladı və qəti əzabdan xilas etdi.

Bəli, insan hətta uçurumun qırağında da özünü qoruya bilər. Vaxtında iman gətirib, tövbə etməklə ilahi əzabı aradan dəf edə bilər. Dua və

minacatla həm bəlanı dəf edə, həm də uğurlu olmaq olar.

Yunus peyğəmbərin (ə) əhvalatı ayənin yarısında və işarə ilə verilmişdir. Amma surənin adı "Yunus" adlanır. Güman ki, Yunusun (ə) son anda tövbə edən və Allahın da tövbələrini qəbul etdiyi qövmünün işinin həssaslığı və önəmi ilə əlaqədardır.

25-ci dərs:Məad

Qiyamət sorğusu

﴿اقۡتَرَبَ لِلنَّاسِ حِسَابُهُمۡ وَهُمۡ فِي غَفۡلَةٖ مُّعۡرِضُونَ﴾

“İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı. Amma onlar hələ də qəflət içində (imandan) üz çevirirlər”.[1]

Ayələrdən əldə olunan bunlardır:

1. Bütün insanlar hesaba çəkiləcəklər: “Biz, mütləq elçi göndərilən ümməti və göndərilmiş elçiləri sorğu-suala tutacağıq”. (“Əraf”, 6)

2. Bütün əməllər haqqında soruşulacaq: “Siz etdiyiniz əməllərə görə mütləq sorğu-sual olunacaqsınız”. (“Nəhl”, 93)

3. Bütün hallar araşdırılacaq: “Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də Allah buna görə sizi hesaba çəkəcək” (“Bəqərə”, 284).

4. İnsanın bütün bədən üzvləri haqqında

1 Ənbiya-1

haqq-hesab olunacaq:

"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin əməlləri) barəsində sorğu-sual olunacaqdır" ("İsra", 36).

5. İlahi nemətlər haqqında sorğu-sual olunacaq: "Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız". ("Təkasur", 8)

6. Bütün işləri, nə qədər olursa olsun, harada olursa olsun, canlandıracaqlar:

" (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər" ("Loğman", 16).

İlk sualda naamaz haqqında soruşulacaq və gənclik, ömür, qazanc, onun xərclənməsi, xüsusilə vilayət məsələsi haqqında hesaba çəkiləcək. Bu qədərini bilmək kifayətdir ki, Allah özü hesaba çəkən olacaq. "Biz haqqı araşdırmağa bəs edərik". ("Ənbiya", 47)

Qiyamət sorğu-sualının növləri

Qiyamətdə insanlar üçün bir neçə haqq-hesab vardır:

1. Bir dəstənin hesabı asan olacaqdır: " *...tez,*

asan, haqq-hesab çəkiləcək"[1].

2. Bir dəstənin hesabı çox ağır və çətin keçəcəkdir: *"Biz də onları çətin bir hesaba çəkdik"*[2]

3. Bəziləri haqq-hesabsız cəhənnəmə gedəcəklər və onların mühakimə olunmasına ehtiyac yoxdur: *"...Qiyamət günü onlara heç bir dəyər verməyəcək və əməllərinin ölçülməsi üçün bir tərəzi qurmayacağıq."*[3]

4. Bir dəstə insan hesaba çəkilmədən cənnətə gedəcək: *"...Şübhəsiz, səbrlilərin mükafatları saysız-hesabsız və kamil şəkildə veriləcəkdir."*[4]

Çoxsaylı hədislərdən məlum olur ki, insanlara qarşı mərhəmətli və xoş davrananların haqq-hesabı asan, çətinliklə, tələbkarlıqla davrananların haqq-hesabı isə çətin olacaqdır. Müşriklər haqq-hesabsız cəhənnəmə, səbirlilər haqq-hesabsız cənnətə gedəcəklər.

Nameyi-əmal

﴿وَكُلَّ إِنسَانٍ أَلْزَمْنَاهُ طَائِرَهُ فِي عُنُقِهِ وَنُخْرِجُ لَهُ يَوْمَ الْقِيَامَةِ كِتَابًا يَلْقَاهُ مَنْشُورًا﴾

"Biz hər bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə

1 İnşiqaq-8
2 Tələq-8
3 Kəhf-105
4 Zümər-10

qarşısına qoyulan kitabı ona göstərəcəyik”[1]

Quranda dəfələrlə nameyi-əmal məsələsinə toxunulmuş və müxtəlif ayələrdə o haqda bəzi məqamlardan söz açılmışdır. Bu məqamlardan aşağıdakıları göstərmək olar:

1. Nameyi-əmal hər kəs üçündür: “Biz hər bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə qarşısına qoyulan kitabı ona göstərəcəyik”. (“İsra”, 13)

2. Orada bütün əməllər mövcuddur: “O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!” (“Kəhf”, 49)

3. Günahkarlar ondan qorxurlar: “(Hər kəsin) kitabı (qarşısına) qoyulacaq və sən günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən” (“Kəhf”, 49).

4. İnsan özü əməl dəftərini oxumaqla hakim və qazi olacaq: “Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər” (“İsra”, 14).

5. Nicat tapanların nameyi-əmalı sağ əllərinə, cəhənnəm əhlinin əməl dəftəri isə sol əlinə veriləcək:

“Kitabı sağ əlinə verilən deyəcəkdir: “Budur, oxuyun kitabımı!” ... Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: “Kaş kitabım mənə

1 İsra-13

verilməyəydi!" ("Haqqə", 19-25)

Qiyamət məhkəməsinin şahidləri

Qiyamət məhkəməsinin çoxlu şahidləri var:

1. İlk şahid Allahdır. O, bütün əməllərimizə şahiddir: "Həqiqətən, Allah hər şeyə şahiddir".

2. İslam peyğəmbəri (s): *"Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman (onların halı) necə olacaq?"*[1]

3. Məsum imamlar: *"Beləliklə Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun"*.[2] Rəvayətlərə görə, "ümmət"də məqsəd məsum imamlardırlar. Çünki ümmətin digər fərdləri şahidlik üçün zəruri olan məsumluq və biliyə sahib deyillər.

4. Mələklər. *"Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir"*.[3]

5. Yer: *"Həmin gün yer öz əhvalatlarını danışacaqdır"*.[4]

6. Vicdan: *"Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər"*.[5]

1 Nisa-41
2 Bəqərə-143
3 Qaf-21
4 Zəlzələ-4
5 İsra-14

7. Bədən üzvləri: *"O gün ki, dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir"*[1]

8. Zaman: İmam Səccad (ə) "Səhifeyi-Səccadiyyə"nin altıncı duasında buyurur: "Bu gün yeni bir gündür və o, qiyamətdə etdiyimiz əməllərə şahiddir".

9. Əməl: *"Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər"*.[2]

Bağışlayaq ki, bağışlanaq

Allahın mərhəmətini, lütfünü qazanmaq üçün bir yol var. Quran bu yolu belə aşçıqlayır: "Qoy əfv edib (bir-birlərini) bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi?[3]

Qiyamət haqq-hesab, cəza cə mükafat günüdür. İnsanın kimsəsiz olduğu bir gündür. İndi özünü düşünməlisən. Allahın lütfünü qazanmağın yolu bu gün başqalarına lütf etməkdən keçir. Lütf edərsək, lütflə qarşılaşacağıq. Nə çox insanlar var ki, ötən ramazan ayında bizimlə idilər, indi isə bizimlə deyillər. Bəlkə bu ramazan da bizim son ramazanımızdır.

1 Nur-24
2 Kəhf-49
3 Nur-22

26-cı dərs: İnfaq[1]

İnfaqın növləri

﴿يَسۡـَٔلُونَكَ مَاذَا يُنفِقُونَۖ قُلۡ مَآ أَنفَقۡتُم مِّنۡ خَيۡرٖ فَلِلۡوَٰلِدَيۡنِ وَٱلۡأَقۡرَبِينَ وَٱلۡيَتَٰمَىٰ وَٱلۡمَسَٰكِينِ وَٱبۡنِ ٱلسَّبِيلِۗ وَمَا تَفۡعَلُواْ مِنۡ خَيۡرٖ فَإِنَّ ٱللَّهَ بِهِۦ عَلِيمٞ﴾

"Səndən (Allah yolunda) nə verəcəklərini soruşurlar. De: "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir".[2]

İnfaq beş növdür:

1. Vacib infaq: Xüms, zəkat, kəffarələr, fidyə, (kişiyə vacib olan) nəfəqə və s.

2. Müstəhəb [3] infaq: Yoxsullara, yetimlərə yardım etmək, dostlara hədiyyə vermək və s.

3. Haram infaq: Qəsb olunmuş malla infaq etmək və ya günah yolunda infaq etmək və s.

---

1 Allah yolunda malın xərclənməsi

2 Bəqərə-215

3 Şəriətdə bəyənilən

4. Məkruh[1] infaq: Qohumlarda ehtiyaclı ola-ola başqalarına infaq etmək və s.

5. Mübah infaq: İmkanlarını genişlətmək, rifahını yüksəltmək üçün başqalarına infaq etmək və s. Çünki yoxsulluğu aradan qaldırmaq üçün infaq etmək vacib və ya müstəhəbdir.

Ən yaxşı infaq

﴿لَنْ تَنَالُوا الْبِرَّ حَتَّىٰ تُنْفِقُوا مِمَّا تُحِبُّونَ ۚ وَمَا تُنْفِقُوا مِنْ شَيْءٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ﴾

"Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir".[2]

"الْبِرَّ" ("birr") sözü geniş xeyir və bərəkət mənasını ifadə edir. Əkin üçün yararlı, yaşamaq üçün əlverişli yerə də "birr" deyilir. "Birr" sözü kök etibarilə geniş xeyir-bərəkət mənasında olduğu üçün Quranda saleh əməl, iman, cihad, namaz və əhdə vəfa "birr"in nümunələri kimi göstərilmişdir.

Eyni zamanda tövsiyə olunmuşdur ki, "birr"də bir-birinizə yardım edin. Buna nail olmağın yolu yuxarıdakı ayədə göstərilmişdi.

1 Şəriətdə bəyənilməyən
2 Ali-İmran-92

Möminlərin infaqlarından nümunələr

1. Əbu Təlhə Ənsari Mədinədə ən çox xurma bağlarına sahib idi. Gözəl və çox gəlirli bağı var idi. Bu bağ Peyğəmbər (s) məscidinin qarşısında idi. Duru su axan çeşməsi var idi. Peyğəmbər (s) bəzən o bağa daxil olur, çeşmənin suyundan içərdi. Qeyd edilən ayə nazil olduqda, o, Peyğəmbərin (s) yanına gəlib, dedi: "Mənim üçün ən sevimli şey bu bağdır. Onu Allah yolunda vermək istəyirəm". Peyğəmbər (s) buyurdu: "Afərin! Yaxşı ticarətdir. Amma mənim təklifim budur ki, bu bağı öz qohumlarında yoxsul olanlara ver". O, qəbul etdi və bağı onların arasında böldü.

2. Həzrət Fatimə (ə) toy gecəsi ər evinə gedərkən, bir yoxsul ondan könə don istədi. O həzrət (ə) Qeyd edilən ayəni yad edərək gəlinlik paltarını dəyişib, (Allah yolunda) ona verdi.

3. Əbuzərin qonağı gəldi. Əbuzər dedi: "Mən məşğulam, siz mənim dəvələrimdən birini tutub kəsin və yemək hazırlayın". Onlar arıq dəvəni seçdilər. Əbuzər narahat oldu və soruşdu: "Nə üçün kök dəvəni tutmadınız?" Dedilər: "Onu sənin gələcək ehtiyacın üçün saxladıq". Əbuzər dedi: "Mənim ehtiyac günüm, qəbir günümdür".

Yoxsulun əli Allahın əlidir

İmam Sadiq (ə) buyurdu: "Sədəqə yoxsulun əlində qalmır, o Allahın əlində qalır. Sonra "Tövbə" surəsinin 104-cü ayəsini oxudu: "Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah tövbələri qəbul Edəndir, Rəhmlidir?"

Demək, sədəqələri alan Allahdır. Odur ki, ürək açıqlıqla ehtiyaclılara yardım edin, (imkanınız çatandan) onlara bağışlayın, ən yaxşılarını ən yaxşı şəkildə bağışlayın.

Malını Allah yolunda xərcləmək yeddi yüz qat və daha çox artmaq imkanındadırsa, Allah yolunda axıdılan qan, verilən can necədir?

Şəhidlik can infaqıdır

﴿وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ﴾

"Allah yolunda öldürülənləri əsla ölmüş sanma. Əksinə, (onlar) diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir".[1]

Biz şəhidləri diri sanan bu prinsipə görə, islam, xüsusilə Kərbəla şəhidlərinə salam göndərir, onlarla danışır və onlara təvəssül edirik.

İndi isə şəhid və şəhidlik haqqında bir neçə

1 Ali-İmran-169

məqamı diqqətinizə çatdırıq:

1. Hədislərə görə, şəhidin Allah tərəfindən ona bəxş edilmiş yeddi özəlliyi var: Qanının ilk damlası axarkən günahları bağışlanır; başını hurilərin ətəyinə qoyur, cənnət libasları ilə süslənir, ən gözəl iyli ətirlərlə ətirlənir; cənnətdəki yerini müşahidə edir; bütün cənnətdə gəzmək icazəsi verilir; pərdələr bir kənara çəkilir və Allahın simasına tamaşa edir.

2. Hədislərdə deyilir ki, hər yaxşılıqdan üstün bir yaxşılıq da var. Amma şəhidlikdən üstünü yoxdur. Ondan üstün bir yaxşı əməl təsəvvür oluna bilməz.

3. Qiyamət günü şəhidə şəfaət məqamı veriləcək.

4. Mücahidlər cənnətə xüsusi qapıdan daxil olacaqlar. Cənnətə hamıdan qabaq daxil olacaqlar. Cənnətdə də xüsusi yerləri olacaq.

5. Həzrət Əli (ə) onlarla xüsusi fəziləti olmasına baxmayaraq, şəhidlik məqamına addım atanda "Kəbənin Allahına and olsun, xilas oldum", deyə buyurdu. O, Peyğəmbərə (s) ilk iman gətirən şəxs idi. Peyğəmbərin (s) qardaşı idi. Yalnız onun qapısı Peyğəmbər (s) məscidinə açılırdı. İmamların atası və həzrət Zəhranın (ə) həyat yoldaşı idi. Büt sındıran idi. Onun Xəndək savaşındakı zərbəsi "Səqəleyn"in

ibadətindən üstün idi. Amma sözügedən hadisələrin heç birində "xilas oldum" ifadəsini işlətmədi.

6. Həzrət Əli (ə) buyurmuşdur: "And olsun Əbu Talibin övladının canı əlində olan Allaha, Allah yolunda min qılınc yarası qəbul etmək yataqda ölməkdən daha asandır.

Ən yaxşı iş

﴿خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِالْحَقِّ وَصَوَّرَكُمْ فَأَحْسَنَ صُوَرَكُمْ ۖ وَإِلَيْهِ الْمَصِيرُ﴾

"O, göyləri və yeri ədalətlə yaratdı, sizə surət verib onları gözəl şəklə saldı. Dönüş də Onadır".[1]

Allahın bütün işləri hamısı ən yaxşılardır:

1. Onun xəlq etməsi ən yaxşıdır: "Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!" ("Muminun", 14)

2. Onun kitabı ən yaxşıdır: "Allah Sözün ən gözəlini ... nazil etdi" ("Zumər", 23).

3. Onun hekayətləri ən yaxşıdır: "Biz bu Quranı sənə vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq" ("Yusif", 3).

4. Onun adları ən yaxşılardır: "Ən gözəl adlar Allahındır" ("Əraf", 180).

5. Allahın mükafatları ən yaxşıdır: "İman

1 Təğabun-3

gətirib yaxşı iş görən kimsəyə isə ən gözəl mükafat veriləcəkdir" ("Kəhf", 88).

6. Allahın vədləri ən yaxşıdır: "Allah onların hamısına ən gözəl olanı vəd etmişdir" ("Hədid", 10).

7. Allahın hökmləri ən yaxşıdır: "Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?" ("Maidə", 5)

Allah bizdən də bütün işlərimizdə ən yaxşıları seçməkdir:

1. Danışarkən ən yaxşı sözlər deyək: "Qullarıma de ki, ən gözəl sözləri danışsınlar" ("İsra", 53).

2. Əməldə ən yaxşılarını edək: "Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur" ("Mulk", 2).

3. Davranışda ən yaxşısını edək: "Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et!" ("Fussilət", 34)

4. Mübahisədə ən yaxşı metodu əsas götürək: "(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et" ("Nəhl", 125).

5. Təşəkkür və minnətdarlıqda ən yaxşı metodu əsas götürək: "Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla

alın" ("Nisa", 86).

6. Eşitdiklərimizin arasında ən yaxşılarını seçək və onlara əməl edək: "O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar" ("Zumər", 18).

7. Yetim malına münasibətdə ən yaxşı şəkildə davranaq: "Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın!" ("Ənam", 152).

8. Stimullarımızda ən yaxşı niyyətə yer verək. İxlas və Allaha yaxınlaşmaq məqsədi ilə əməlimizə ilahi rəng qataq: "Budur Allahın rəngi! Kimin rəngi Allahın rəngindən daha doğru ola bilər?" ("Bəqərə", 138)

27-ci dərs: Məscid

Məscidin önəmi

﴿وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا﴾

"Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!".[1]

1. Yer üzündə inşa edilən ilk bina məscid olmuşdur: "Həqiqətən, aləmlərdən ötrü bərəkət və doğru yolu göstərən rəhbər kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir".[2]

2. Məscidin yeri xüsusi müqəddəsliyə malik olmalıdır. Necə ki, möminlər dedilər: "İmanlarını qorumaq üçün rifah və asayişlərindən, şəhər və şəhər həyatından keçən, çöllərə, mağaraya sığınan Əshabi-Kəhfin məzarı üzərində bir məscid inşa edəcəyik: "Onların (məzarı) üstündə mütləq bir məscid tikəcəyik!".[3]

---

1 Cinn-18
2 Ali-İmran-96
3 Kəhf-21

3. Peyğəmbərin (s) hicrətdən sonra Mədinədə gördüyü ilk iş məscid tikmək idi: "İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir".[1]

4. Quranda "Məscid əl-həram"ın adı on dəfədən çox gəlmişdir.

5. Allah məscidi öz evi adlandırıb və ən üstün insanlara – İbrahimi (ə), İsmayılı (ə), iki böyük peyğəmbəri onun xadimi etmişdir.

6. Məscidə getmək üçün zinətlənmək və gözəl geyinmək tövsiyə olunmuşdur: "Ey Adəm oğulları! Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin".[2]

7. Əgər məscidin tikilməsi təqva üzərində qurulmasa, ora müsəlmanlar arasında təfriqə amilinə çevriləcəkdir və dağıdılmalıdır.

8. Məscid o qədər müqəddəs məkandır ki, hər kəsin onu tikmək və təmir etmək haqqı yoxdur: "Müşriklər küfr etdiklərini bildikləri halda, (onlara) Allahın məscidlərini abadlaşdırmaq yaramaz".[3] Bu əmr yalnız təqvalı və şücaətli möminlərə aiddir ki, Allahdan başqa kimsədən qorxmurlar. "Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan,

1 Tövbə-108
2 Əraf-31
3 Tövbə-17

zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar".[1]

9. Məscid və xristianlıq, yəhudilik kimi digər səmavi dinlərin ibadət mərkəzləri (kilsələr, sinaqoqlar, məbədlər, sovməələr, ibadətxanalar) o qədə dəyərlidir ki, onları qorumaq üçün qan vermək lazımdır. "Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr".[2]

10.Məscid və məscidə getməyin bir sıra qaydaları var. Misal üçün, məsciddə uca səslə danışmaq olmaz, yanlış (batil) sözlər demək olmaz, alqı-satqı haqqında danışmaq olmaz, mənasız və faydasız mətləblərə yer vermək olmaz və s.

11.Məscidə doğru götürülən hər bir addım üçün bir savab vardır.

12.Məsciddə oturub namaz vaxtını gözləmək savabdır.

13.Namaz qılınmayan (tərk edilən) məscid Allaha şikayət edəcək.

14.Məscidin qonşusu namazını məsciddə qılmazsa, onun namazının dəyəri yoxdur.

15.Allah məscid əhlinə görə başqalarından da

1 Tövbə-18
2 Həcc-40

əzabı dəf edir. Hədislərdə məscidə gedib-gəlməyin insanlara faydaları haqqında çox söz açılmışdır. Misal üçün, din qardaşları və dostlar tapmaq, faydalı məlumatlar, günahdan uzaq olmaq və hidayətə qovuşmaq, ilahi nemət və mərhəmətə qovuşmaq və s. Peyğəmbər (s) buyurmuşdur: "Birinin məscidə gedib-gəldiyini gördünüzsə, onun imanına şahidlik edin".

Məscidin təmiri və abadlaşdırılması

﴿إِنَّمَا يَعْمُرُ مَسَاجِدَ اللَّهِ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَأَقَامَ الصَّلَاةَ وَآتَى الزَّكَاةَ وَلَمْ يَخْشَ إِلَّا اللَّهَ فَعَسَىٰ أُولَٰئِكَ أَنْ يَكُونُوا مِنَ الْمُهْتَدِينَ﴾

"Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolla gedənlərdən olsunlar".[1]

Məscid, müsəlmanların önəmli ibadətgah və ictimai məkanlarıdır. Buna görə də həm ona rəhbərlik edənlər əməlisaleh və pak insanlar olmalıdır, həm məscidin proqramları tərbiyəvi və islahedici olmalıdır, həm büdcəsi halal və qanuni olmalıdır, həm də məscidə gələnlər təqvalı, Allah adamı və hörmətli olmalıdır. Əks təqdirdə, əgər məscidi tikənlər zülmkarlar,

1 Tövbə-18

soltanlar olsalar, pişnamazlar savadsız və qorxaq insanlar olsa, xadimləri əldən düşmüş, halsız insanlar olsa, təbii ki, məscidlər əsl məqsədindən, yəni mənəvi abadlıqdan uzaqlaşacaq.

Mərhum Feyz Kaşaninin "Safi" təfsirində qeyd etdiyinə görə, məscidin təmiri ifadəsi onu təmir etmək, təmizliyinə, döşənəcəyinə, işıqlanmasına, orada dərslərin təşkil olunmasına, dinin təbliğinə və s. şamil olur.

Zinət və məscid

﴿يَا بَنِي آدَمَ خُذُوا زِينَتَكُمْ عِنْدَ كُلِّ مَسْجِدٍ وَكُلُوا وَاشْرَبُوا وَلَا تُسْرِفُوا إِنَّهُ لَا يُحِبُّ الْمُسْرِفِينَ﴾

"Ey Adəm oğulları! Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, (Allah) israf edənləri sevmir".[1]

Demək olar ki, Quranda "Ey Adəm övladları!" deyə müraciət olunan ayələr bütün bəşəriyyətə, bütün dinlərin mənsublarına, onların arasında olan müştərək cəhətlərə aiddir.

Quran mal və övlada zinət deyir. "Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir". [2]

1 Əraf-31
2 Kəhf-46

Demək, bu ayə övladlarınızı məscidə aparın, malınızı məscidə sərf edin, yaxud məscidə gedərkən özünüzlə pul aparın ki, müsəlmanların iqtisadi problemlərinin həllinə şərik olasınız demək istəyir. Övladlarınızı ictimai yerlərə, məscidlərə aparmaqla gələcək nəsillərin tərbiyəvi problemlərini həll edin.

Hədislərdə ədalətli pişnamaz, zahiri görkəmini səliqəyə salmaq, ətirlənmək, namaz zamanı gözəl paltar geyinmək, namazda rüku və səcdələr zamanı əlləri qaldırmaq, bayram və cümə namazlarında iştirak etmək zinətin real nümunələrindən hesab olunmuşdur.

İmam Müctəba (ə) namaz zamanı və məscidə gedərkən ən yaxşı paltarlarını geyinər və buyurardı: "Allah gözəldir və gözəlliyi sevir. Mən gözəl libasımı Allahım üçün geyinirəm". Sonra həzrət (ə) bu ayəni oxudu: "Ey Adəm oğulları! Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyinin".

Allah gözəlliyi və zinəti sevir. Yoxsa, ona əmr etməz və "gözəl geyimlərinizi geyinin" deməzdi. İslam fitri dindir. İnsan da fitri olaraq zinətdən, gözəllikdən həzz alır.

Məscidə zinətlə getmək Allah bəndələrinə, Allaha ibadətə hörmət göstərməyə səbəb olur. Həmçinin, başqalarının da oraya gəlməsi üçün

bir növ cazibə yaradır, əməli şəkildə cəlb edir, rəğbətləndirir.

Zinət və təamdan istifadə etmək fitri və təbii olmasına baxmayaraq, xüsusi şəraitdə, yəni ehtiyaclılar, yoxsullar olan zaman onların dərdinə şərik olmaq (sahib olduqlarını onlarla paylaşmaq) lazımdır. Odur ki, tarixdə oxuyuruq: Xalqın nisbətən rifahda yaşadığı dönəmə təsadüf edən İmam Sadiqin (ə) geyimi xalqın yoxsul dövrdə yaşadığı İmam Əlinin (ə) geyimi ilə çox fərqli idi. Çünki ictimai şərait tamamilə fərqli idi.

Bir az diqqət etsək, görərik ki, yuxarıdakı ayədən bir sıra ismarışlar başa düşmək olar. Misal üçün:

1. Müsəlmanların toplanma məkanı olan məscid səliqəli, gözəl və cazibəli olmalıdır: "Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin".

2. Ən yaxşı və ən gözəl geyim, ən yaxşı məkan üçündür: "Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin".

3. İslam, həm namazın batininə diqqətlə yanaşır, ("o kəslər ki, namazlarında mütidirlər" – "Muminun", 2), həm də zahirinə. (Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin).

4. Zinət, fərdi namazda dəyərli olmaısna baxmayaraq, camaat namazında, məscidlərdə,

kollektiv icra olunan ayinlərdə xüsusi dəyərə malikdir. “Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin”.

5. Öncə namaz, sonra qida. “Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin. Yeyin-için”.

28-ci dərs: İctimai əxlaq

Dost seçimi

﴿وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَىٰ يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا. يَا وَيْلَتَىٰ لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا. لَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي ۗ وَكَانَ الشَّيْطَانُ لِلْإِنْسَانِ خَذُولًا﴾

(27) O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: "Kaş ki, mən Peyğəmbər vasitəsilə (özümə) doğru bir yol tutardım;

(28)Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim;

(29) And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər).

Islam dini dostluq mövzusunda; dostun seçimi, dostu tanımaq yollarını, ünsiyyət

saxlamaq qaydaları, hüququ və çərçivəsi barədə çox saylı sifarişlər etmişdir. Bu səbəbdən islam təlimlərində bəzi insanlarla dostluq etməyə təşviq edilib, bəziləri ilə dostluq etməkdən çəkindirilib. Bu təlimlərdən bir neçəsini qeyd edirik:

1. Bir kəsi tanımaqda çətinlik çəkirsənsə, onun yoldaşlarının kimliyinə nəzər sal.[1]

2. Pis dostdan tənhalıq daha yaxşıdır.

3. Peyğəmbərdən (s) ən yaxşı dost haqqında sual edildi və O həzrət belə buyurdu: Yaxşı dost o kəsdir ki, onunla ünsiyyət sizə Allahı xatırlatsın, söhbəti elminizi artırsın və rəftarı qiyaməti yadınıza salsın.

4. Həzrət Əli (ə) buyurub: Yaxşı dost yaxşı qohumdur.

5. Dostunu qəzəb etməkdə, pulda və səfərdə yoxla. Əgər bu üç şeydə yaxşı olarsa yaxşı dostdur.

Şer:

Uzaq ol pis dostdan
Pis dost pisdir ilandan
İlan vurar canını
Pis dost alar imanını

1 Biharul-ənvar c. 74 s. 197

Qardaşlıq

﴿إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ ۚ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız![1]

İslamın özəl xüsusiyyətlərindən biri köklü islahatlar aparmasıdır. Qeyd olunan ayədə cəmiyyətdə çəkişmə və ədavəti aradan aparmaq üçün, Quran insanlarda dünyagörüşünü əvəz edib, möminlərin hamısını biri birilərinə qardaş olmasını elan edir. Beləliklə qardaşlar arasında çəkişmə və ədavətin yeri qalmır.

Qardaşlıq konsepsiyası islamın təşəbbüsüdür. Islamın ilk vaxtlarında Peyğəmbər (s) Nəxilə məntəqəsində 740 nəfərlə olarkən Cəbrayıl nazil olub dedi: Allah-taala mələklər arasında qardaşlıq əhdi bağladı. Bunu eşidən Peyğəmbər (s) öz əshabələri arasında qardaşlıq əhdi bağladı. Misal üçün Ömərlə, Əbubəkr, Salmanla, Əbuzər, Təlhə ilə Zubeyr, Miqdadla, Əmmar, Aişə ilə Həvsə, Ümmü Sələmə ilə Səfiyyə və Peyğəmbərlə Əli qardaşlıq əhdi bağladılar. [2]

1 Hucurat- 10

2 Biharul-ənvar c. 38 s. 335

Qardaşlıq əhdi yalnız kişilərə şamil deyil və qadınlar arasında belə ola bilər.[1]

Bu məqamda dost tapmaqdan daha zəruri olan məsələ dostu qoruyub saxlamaqdır. Hədislərdə dini qardaşlarını itirən şəxs məzəmmətlənib və göstəriş verilib ki, bizdən uzaqlaşan dini qardaşlarla əlaqəni kəsməyib get gəl edək.[2]

Imam Sadiq (ə) buyurub: Mömin möminin qardaşıdır, onlar vahid bədənə bənzəyirlər, bədənin bir üzvü xəstə olarsa bütün bədən narahat olar.

Qardaşlığın hüququ

Allahın Elçisi (s) buyurub: Müsəlmanın müsəlmana riayət etməsi vacib olan 30 hüququ var: 1-Səfindən keçib ona mehriban olmaq, 2-Sirrin qorumaq, 3- Səflərin düzəltmək, 4- Üzrün qəbul etmək, 5- Bədxahların qarşısında onu müdafiə etmək, 6- Xeyrin istəmək, 7- Ona verdiyi vədəsini yerinə yetirmək, 8- Xəstə olarkən görüşünə getmək, 9- Dəfn mərasimində iştirak etmək, 10- Dəvətin və hədiyyəsini qəbul etmək, 11- Hədiyyəsinə hədiyyə vermək, 12-Qulluğuna təşəkkür etmək, 13- Dadına çatmaq,

1 Nisa-176

2 Biharul-ənvar c. 78 s. 71

14- Namusun qorumaq, 15- Hacətin yerinə yetirmək, 16- Müşkülünün həllində vasitəçilik etmək, 17- İtirdiyinə yol göstərmək, 18- Asqırmasına dua etmək, 19- Salamına cavab vermək, 20- Sözünə, söhbətinə hörmət etmək, 21- Gözəl hədiyyə vermək, 22- Andın qəbul etmək, 23- Dostu ilə dost, düşməni ilə düşmən olmaq, 24- Başına gələn hadisələrdə onu tənha qoymamaq, 25- Özünə arzuladığını ona da arzulamaq....[1]

Sülh və barışıq

İslam dini insanların sülh və əmniyyət içində yaşamasına böyük önəm verib. Quranda müsəlmanların qəlblərinin birləşməsi nemət olaraq yad edilib. Belə ki, ayədə müsəlmanlara xitab edilərək buyurulur: *"O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz."*[2]

Sülhlə, barışığı bərpa etmək Allahın rəhmətinə səbəbdir. Allah-taala buyurur: *"Əgər sülh edib çəkinsəniz həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!."*[3]

Digər ayədə müsəlmanlar arasında yaxşı

1 Biharul-ənvar c. 74 s. 236
2 Ali İmran-103
3 Nisa-129

vasitəçilik edənə Allah-taala mükafat vədəsini verib: *"Yaxşı işə vasitəçi olana (onun savabından) bir pay düşür"*[1]

İslam dinində camaat arasında sülh yaratmaq üçün bəzi güzəştlər qoyulub:

1- Yalanın böyük günah olmasına baxmayaraq, barışıq üçün deyilən yalan günah sayılmır.

2- Pıçıltı ilə danışmaq şeytanın əməlindən hesab olunur və bu əməldən çəkinməyimiz vacibdir, -*"Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur.."* [2] - amma pıçıltı iki küsülünü barışdırmaq üçün olarsa günah sayılmaz.

3- Anda əməl etmək vacibdir, amma bir şəxs küsülülərin arasını düzəltməməyə and içərsə, dinimiz bu andın pozulmasına icazə verir: *"Allahı yaxşılıq etməməyiniz, təqvalı olmamağınız və insanların arasını düzəltməməyiniz kimi andlarınıza hədəf etməyin! Allah eşidəndir, biləndir!"*[3]

4- Vəsiyyəti yerinə yetirmək vacibdir, amma vəsiyyəti yerinə yetirmək insanlar arasında fitnəyə, kin-küdurətə səbəb olarsa İslam belə vəsiyyətin ləğv olmasına icazə verir: *"Hər kəs vəsiyyət edənin (öz vəsiyyətilə) səhv etməsindən və ya*

1 Nisa-85
2 Nisa-114
3 Bəqərə-224

günaha batmasından ehtiyat edib (ədalət naminə vəsiyyətdə dəyişiklik edərək) varislərin arasını düzəltsə, ona heç bir günah yazılmaz. Allah bağışlayandır, rəhm edəndir!" [1]

Dini əlaqə və bağlılıq

"Rəd" surəsinin 21-ci ayəsində ağıllı insanların əlaməti Allahın əmr buyurduğuna bağlı olması kimi göstərilmişdi. "O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir, Rəbbindən və (qiyamət günü çəkiləcək) pis haqq-hesabdan qorxurlar."

Hədislərə əsasən ayədə Allahın əmr etdiyi qohumluq əlaqələrini qoruyub saxlamaq və Allah övliyalarına, dini rəhbərlərə bağlı olmaqdır.[2]

Allah-taalanın əmr etdiyi bağlılıqlar müxtəlif işlərdən ibarətdir:

1- Alimlərlə mədəni əlaqə: "Əgər bilmirsinizsə, zikr (elm) əhlindən soruşun!"[3]

2- Camaatla ictimai əlaqə: "Ey iman gətirənlər, səbrli olun və başqalarını da səbrə sövq edin"[4]

3- Valideynlərlə əlaqə: "Valideynlərinizə

1 Bəqərə-182
2 Təfsir Safi
3 Nəhl-43
4 Ali İmran-200

ehsan (yaxşılıq, kömək) edin,"[1]

4- Fəqirlərə maddi kömək: "Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını (əvəzini) qat-qat artırsın?! "[2]

5- Cəmiyyətin idarəçiliyində məşvərət: "(Ya Rəsulum!) ... Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş,...."[3]

6- Vilayətlə siyasi əlaqə: "Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə və öz əmr sahiblərinizə tabe olun ...."[4]

7- Möminlərlə əlaqə: "Həqiqətən bütün möminlər bir-birləri ilə qardaşdırlar..."[5]

8- Allah dostları ilə mənəvi bağlılıq: "Şübhəsiz, Allaha və axirət gününə (qəlbdə və əməldə) ümid bəsləyən və Allahı çox zikr edənlər üçün Allah Rəsulunun rəftarında həyat örnəyi və nümunəsi vardır."[6]

1 Bəqərə-83
2 Bəqərə-245
3 Ali İmran-159
4 Nisa-59
5 Hucurat-10
6 Əhzab-21

29-cu dərs: Ailə

Cavanların ailə qurmasında məsuliyyətimiz

﴿وَأَنكِحُوا الْأَيَامَىٰ مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ ۚ إِن يَكُونُوا فُقَرَاءَ يُغْنِهِمُ اللَّهُ مِن فَضْلِهِ ۗ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ﴾

(Ey möminlər!) Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəmətilə) genişdir, (hər şeyi) biləndir![1]

Islam dinində ailə qurmaq müqəddəs işlərdən sayılır. Ailə və cəmiyyət cavanların evlənməsində məsuliyyət daşıyır. Elçiliyin yalnız oğlan tərəfdən olması vacib deyil və qız tərəfindən belə ola bilər. Allah-taala yeni ailə quranların təmin olmasına vədə verib, evlənmədə xeyir-bərəkət qoyub.

---

1 Nur-32

Məsihi dini subaylığı fəzilət bilir, o səbəbdən papaları, ruhaniləri subay yaşamağı seçirlər. Islam dini fərqli olaraq subaylığı pis əməllərdən hesab edir. Hədislərdə evlənən şəxsin dininin yarısının qorunduğu, qıldığı iki rükət namazının subay kəsin namazından 70 rükət üstün olması və yuxusunun subay kəsin oyaq qalıb tutduğu orucdan üstün olduğu qeyd olunub.

Peyğəmbər (s) evliliyi kasıbçılığa səbəb bilənlərə buyurmuşdur ki, ailə qurmaq ruzini artırır. Imam Sadiq (ə) buyurub: Məişətin rifahı evlənmək sahəsindədir, kasıbçılıq üzündən ailə qurmayan bizdən deyil və Allaha pis gümandadır, ailə insana rahatlıq gətirir. [1] Evlənmə baş verəndə qohumların yaxın olması, qəlblərin birləşməsi, yeni nəslin tərbiyəsi və qarşılıqlı yardım ruhiyyəsi əmələ gəlir.

Valideynlər övladlarını evləndirməyə imkanı olan halda, bunu etməsələr, övladı günah törədərsə onlar bu günahda şərikdirlər.

Digər rəvayətdə deyilib: Övladların ailə qurması üçün tələsin, qızın ərə getmə vaxtı çatıbsa dəymiş meyvəyə bənzəyir, vaxtında ağacdan dərilməsə fasidləşər.[2]

Ən gözəl vasitəçilik şəfaətdə və iki cavanın

1 Rum-21

2 Mizanul-hikmə

ailə qurmasındadır. Hədisdə deyilib ki, kim başqasını gəlin, ya kürəkən etsə Allah-taalanın ərşinin kölgəsində qərar tapmış olar.

Digər hədisdə buyurulub: Dini qardaşının evlənməsi üçün qabağa düşən kəs, qiyamət günündə Allahın xüsusi rəhmətinə nail olacaq.

Əlbəttə qeyd etməliyik ki əvvəldə olan ayənin ardı belədir: *"Evlənmək (imkanı) tapmayanlar, Evlənməyə qüvvəsi çatmayanlar (maddi imkanı olmayanlar) Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar. Kölələrinizdən mükatəbə etmək istəyənlərlə - əgər onlarda bir xeyir görürsünüzsə - mükatəbə edin. Onlara Allahın sizə verdiyi maldan verin..."*[1]

Cəmiyyətin iffətli olması üçün ayədə Allah-taala üç amilə işarə etmişdir: Cavanlar özlərin qorumalı "*iffətlərini qoruyub saxlasınlar*", dövlət, valideynlər cavanların evlənməsi üçün şərait yaratmalı "*Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin*" və imkanlı insanlar bu işə maddi kömək etməlidir "*Onlara Allahın sizə verdiyi maldan verin*".

Həyat yoldaşını seçməkdə tələsmək olmaz,

1 Nur-33

düşünüb, məsləhət etmək gərəkdir. Ailə ixtilaflarının mənşəyi çox vaxt həyat yoldaşı səf seçildiyi üçün baş verir. Həyat yoldaşı insanın şərikidir və ömrünün sonuna kimi, habelə qiyamətə kimi təsirlidir. Çox vaxt avtobusda, ya parkda üzdən olan tanışlıqla qurulan ailə tez pozulur.

Quranda müxtəlif ailələr

Quranda dörd cür ailə göstərilmişdi:

1- Həzrəti Əli ilə xanım Zəhra kimi, xeyir işdə həmrəy olan ailə. Onların həmrəyliyi İnsan surəsində bir neçə ayədə bəyan olub. Üç gecə ardıcıl olaraq öz iftarlarını miskinə, yetimə və əsirə veriblər. *"Və onlar yeməklərini, özləri(nin ehtiyacı olub çox) istədikləri halda Allaha olan məhəbbət üzündən fəqirə, yetimə və əsirə verərlər."*[1]

2- Əbu Ləhəb ilə yoldaşı kimi, xəbislikdə həmrəy olan ailə. Əbu Ləhəb Peyğəmbərin (s) əmisi olmasına baxmayaraq, xəyanət etmiş və yoldaşı Peyğəmbərin (s) qarşısına odun töküb, əziyyət edirmiş.

3- Həzrət Lut ilə, həzrət Nuhun və onların həyat yoldaşları kimi, ailənin xeyirxah kişisi və pis qadını. *"Allah kafir olanlara Nuhun zövcəsini və*

1 İnsan-8

Lutun zövcəsini məsəl çəkdi. Onlar Bizim bəndələrimizdən olan əməli saleh iki bəndənin (kəbini) altında idilər..."[1]

4-Yaxşı qadın və pis kişidən ibarət ailə. Bunun misalı Quranda Fironun ailəsidir. *"Və Allah iman gətirən kəslər üçün Fironun zövcəsini məsəl çəkdi..."*[2]

Ailə qarşısında məsuliyyət

Bir çox Quran ayələrində insanın ailəsinə nisbətdə məsuliyyətinə işarə olub:

- *"Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan ibarət olan oddan qoruyun..."*[3]

- *"Və öz ailənə namazı əmr et və özün (də) var gücünlə ona (riayət etməyə) səbr et..."*[4]

- *"Və (əvvəlcə) yaxın qohumlarını qorxut və xəbərdarlıq et."*[5]

- *"«Ey mənim əziz oğlum, namaz qıl və yaxşı işləri (əql və şəriət nöqteyi-nəzərindən bəyənilən işləri görməyi) əmr et və pis işlərdən (hər hansı pis və bəyənilməz işi) qadağan et... "*[6]

1 Təhrim-10
2 Təhrim-11
3 Təhrim-6
4 Taha-132
5 Şuəra-214
6 Loğman-17

- *"Deyərlər: «Həqiqətən biz öncə (dünyada) ailəmizin içində (olarkən işin sonundan) qorxurduq.»"*[1]

- *"Və xurma ağacını özünə tərəf silkələ ki, sənin üçün təzə yığılmış xurma tökülsün."*[2]

Quranda olduğu kimi, hədislərdə ailəyə qarşı məsuliyyətin olması barəsində söz acmışdır:

- Əziz Peyğəmbərimiz (s) buyurub: Sizin hamınız əlinizin altında olana qarşı məsuliyyət daşıyırsız. Kişi öz ailəsinə, qadın ərinə və övladlarına məsuliyyət daşıyırlar.[3]

- Həzrət Əli (ə) buyurub: Özünüzlə ailənizə xeyrin nə olduğunu öyrədin və onlara tərbiyə verin.[4]

1 Tur-26
2 Məryəm-25
3 Məcmui vərram c. 1 s. 6
4 Munyətul-murid s. 380

30-cu dərs: Nicat tapanların bayramı

Quranda nicat tapanlar

﴿قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ . الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ﴾

1-“Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!)”

2-“O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)”

Quranda Allah-taala bəzi fərdləri və qrupları nicat əhli bilmişdir:

1- Abidlər: “Ey iman gətirənlər, ruku və səcdə edin, Rəbbinizə ibadət edin və xeyir iş görün ki, bəlkə nicat tapasınız.”[1]

2- Əməlləri dəyərli və tərəzi gözündə ağır

1 Həcc-77

olanlar: “Həmin gün (əqidə və əməllərin) ölçülməsi haqq və qətidir. Beləliklə, kimin ölçülmüş əməlləri ağır və dəyərli olsa, onlardır nicat tapanlar!”[1]

3- Xəsislikdən uzaq olanlar: “... Nəfsin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapanlardır.”[2]

4- Allah dəstəsi: “...Onlar Allahın firqəsidirlər (Allahın dininə kömək edən kimsələrdir). Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb (əbədi) səadətə qovuşanlardır.”[3]

5- Allahı çoxlu yad edənlər: “... Allahı (dildə və qəlbdə) çox zikr edin, bəlkə nicat tapdınız.”

6- Pəhrizkarlar: “...Odur ki, ey ağıl sahibləri, Allahdan qorxun, bəlkə nicat tapdınız.”[4]

7- Cihad əhli: “... Onun yolunda cihad edin, bəlkə nicat tapdınız.”[5]

8- Tövbəkarlar: “...Ey möminlər, hamınız (bütün cəhətlərdə) Allaha tərəf qayıdın ki, bəlkə nicat tapdınız.”[6]

---

1 Əraf-8
2 Həşr-9
3 Mucadilə-22
4 Maidə-100
5 Maidə-35
6 Nur-24

Fitr bayramı, İlahi hədiyə

Imam Baqir (ə) həzrəti Peyğəmbərin (s) belə söylədiyin buyurub: Şəvval ayının biri (fitr bayramı günü) çatanda Allah tərəfindən bir nidaçı çağırar - "Ey möminlər hədiyyələrinizə doğru tələsin!" İmam üzün Cabirə tərəf tutub söylədi: Ey Cabir! Allahın hədiyyəsi padşahların hədiyyəsi kimi deyil!... bu gün hədiyyələr günüdür!

Imam Həsən (ə) Fitr bayramı günü əylənib, gülən bir dəstə ilə qarşılaşdı. Öz ətrafdakılarına buyurdu: Allah-taala ramazan ayını rəhmətinə, rizvanına çatmaq üçün meydan qərar verib. Bir dəstə buna nail olub, bir dəstə isə əldən verib. Bu gündə hədiyyəsini almaq əvəzinə əylənib, gülənə təəccübdəyəm...

Imam Rza (ə) buyurub: Allah-taala Fitr bayramını müsəlmanların bir yerə yığışıb, verilən nemətlərə görə şükür və təzim etmələri üçün qərar verib. Bu gün bayram günüdür, zəkat, rəğbət və münacat günüdür.

Qeyd olunan hədisdə bayramın və namazın fəlsəfəsi ibarətdir:

1- Birliyin rəmzi olaraq bir yerə toplaşmaq

2- Kasıblara kömək ünvanı ilə zəkatın toplanması

3- Allaha doğru rəğbət

4- Allah dərgahına dua

Qiyaməti xatırlamaq

Fitr bayramının təsirindən biri, müsəlmanların bir araya toplaşıb, açıq səmada Allahı yad edib, qiyaməti və ilahi rəhmətə ehtiyacımızı xatırlamaqdır. Həzrəti Əli (ə) Fitr günündə insanlara oxuduğu xütbədə buyurdu: Bu gün elə bir gündür ki, salehlər öz hədiyyələrini alır, pis əməl sahibi isə ziyanın görür, bu səbəbdən Fitr günü sizin qiyamətinizə bənzəyir. Mənzilinizdən məscidə gələrkən, qəbirlərinizdən çıxacaq gününüzü xatırlayın. Məsciddə namazı gözləyərkən qiyamət günündə Allah hüzurunda gözləyəcəyinizi xatırlayın. Mənzilinizə qayıdarkan qiyamət günü qayıdacaq cənnət, ya cəhənnəm mənzilinizi xatırlayın.

Bayram namazında qunutda belə dua edirik: "Allahım sən böyüklük və əzəmət sahibisən.." biz Allahı böyüklüyü, əzəməti, mərhəməti və rəhməti ilə tanıyırıq. Allah-taalaya Peyğəmbər (s) və onun Əhli-beytinin fəxri sayılan, müsəlmanların bayramı olan bu gündə belə dua edirik: "Məhəmməd və onun Əhli-beytinə rəhmətini göndər" və bizi öz bərəkətinə nail et. Bu duada gözəl arzulardan biri ibarətdir: "İlahi bu gündə Məhəmməd və onun Əhli-beytini daxil

etdiyin xeyrə bizi daxil et və bu gündə Məhəmməd və onun Əhli-beytini xaric etdiyin şərdən bizi xaric et!"

"Ilahi.. səndən saleh bəndələrin istədiyini istəyirəm, sənə xalis bəndələrin pənah apardıqlarından pənah aparıram!"

Gedənləri xatırlamaq

Bü gündə müsəlmanların gözəl əməllərindən biri dünyadan köcənləri ziyarət edib, xatırələrini yad etməkdir.

Allah Elçisi (s) buyurub: Qəbiristanlığa ziyarətə gedin ki, axirət gününü unutmayasız.

Başqa bir hədisdə O həzrət, buyurub: Hər cümə valideynlərinin qəbir üstünə gedənin, həm günahları bağışlanar həm də Allah dərgahında saleh övlad sayılar.

Digər hədisdə deyilib: Valideynin qəbri yanında dua qəbuldur.

Imam Rza (ə) buyurub: Möminin qəbrini ziyarət edərkən 7 dəfə Qədr surəsi oxunarsa, həm qəbir sahibinin, həm də oxuyanın günahları bağışlanar.

Nəql olunub ki, ölülər bizim gəlişimizdən xəbərdar olub sevinirlər.

"Həmd olsun aləmlərin Pərvərdigarına"

Mündəricat

Müqəddimə 3

Naşirdən 5

1-ci dərs: Ramazan.....7
Şabaniyyə xütbəsi.....10

2-ci dərs: Oruc 15
Orucun şərt və qaydaları 17
İftar vermə.....19

3-cü dərs: Quran üzərində düşünmə 21
Quran üzərində düşünməyin vacibliyi 24

4-cü dərs: Quranın imtiyazları 28
Ehtirama layiq bir kitab 29
Quranın ecazkarlığı.....32
Quran hekayətlərinin imtiyazı 34
Quran oxuyanların qisimləri 35

5-ci dərs: Dua.....37
Allahın dua edənə diqqəti 39
Duanın mədəniyyəti 41
Allahın ən gözəl adları 43

6-cı dərs: Namaz 46

7ci dərs: Yaxşılığa dəvət və pislikdən çəkindirmə 52
Məsələnin şərtləri.....55
Yaxşılığa dəvət ən yaxşı ümmətin göstəricisi kimi.....56
Təsir və bərəkətlər.....58

8-ci dərs: Həmd surəsinin təfsiri.....61
Həmd surəsinin tərbiyəvi dərsləri 64
"Bismillah"ın əhəmiyyəti 65
Doğru yol 66
Quranda qəzəbə düçar olmuşlar 68

9-cu dərs: Gecə namazı 70
Gecənin müəyyən vaxtını oyaq keçirmə.....72

10-cu dərs: Unudulmuş iki vacib əməl.....74
Xüms.....80

11-ci dərs: Ata və ana 82
Valideyn anlayışının dairəsi 89

12-ci dərs: Şükür 91
Allaha edilən şükür 92
Əməli şükürün nümunələri.....94
Çətinliklərə şükür etmək 96

13-cü dərs: İlahi məmurlar 98

14-cü dərs: İslamda müqəddəslər 102
Peyğəmbərin təhqir edilməsi və Allahın müdafiəsi.....107

15-ci dərs: Hicrət 110
Peyğəmbərin (s) tarixi hicrəti 113
Hicrətin təsir və bərəkətləri.....116

16-cı dərs: Qədr surəsinin təfsiri Qədr gecəsi.....118
Quranda mələklərin vəsfləri 123

17-ci dərs: Müqəddərat 130
Bəda nədir? 133

18-ci dərs: Əhli-beyt (ə) 136
İradlara cavab 138

19-cu dərs: Əhli-beyt (ə) sevgisi 142

20-ci dərs: İmamət və vilayət 149
Vilayət, kamillik və risalətin tamamlanması 151
“Vilayət” kimə məxsusdur? 154

21-ci dərs:İmam Zaman (əc.) 156
“Bəqiyyətullah” 160

22-ci dərs:Şəfaət 161
Şəfaət edənlər və şəfaət olunanlar 162
Şəfaət olunanların şərtləri 164

23-cü dərs: Günah və itaətsizlik 166
Günahın nəticələri 168
Günahların qarşılığının ödənilməsi yolları 169
İstiğfar 171

24-cü dərs:Tövbə 176
Tövbənin qəbul olunma şərtləri 179
Xilaskar tövbə 180

25-ci dərs:Məad 183
Qiyamət sorğu-sualının növləri 184
Nameyi-əmal 185
Qiyamət məhkəməsinin şahidləri 187
Bağışlayaq ki, bağışlanaq 188

26-cı dərs: İnfaq 189
Ən yaxşı infaq 190
Möminlərin infaqlarından nümunələr 191
Yoxsulun əli Allahın əlidir 192
Şəhidlik can infaqıdır 192

Ən yaxşı iş 194

27-ci dərs: Məscid 197
Məscidin təmiri və abadlaşdırılması 200
Zinət və məscid 201

28-ci dərs: İctimai əxlaq 205
Qardaşlıq 207
Qardaşlığın hüququ 208
Sülh və barışıq 209
Dini əlaqə və bağlılıq 211

29-cu dərs: Ailə 213
Quranda müxtəlif ailələr 216
Ailə qarşısında məsuliyyət 217

30-cu dərs: Nicat tapanların bayramı 219
Fitr bayramı, İlahi hədiyə 221
Qiyaməti xatırlamaq 222
Gedənləri xatırlamaq 223